# Strategiyalar

**İslam İnqilabının Böyük Rəhbəri həzrət Ayətullah Seyid Əli Xameneinin çıxışlarında**

**İkinci cild**

## On altıncı fəsil: İqtisadi və siyasi təhlükəsizlik

### İqtisadi təhlükəsizliyin mənası

Kimsə güman etməsin ki, iqtisadi təhlükəsizlik yaratmaq - iqtisadi müftəxorların, sui-istifadəçilərin, iqtisadi zəlilərin yolunu açıq qoymaq deməkdir. İqtisadi təhlükəsizliyin mənası bu deyil ki, ölkənin sağlam qanun və qərarları görməzliyə vurulsun. İqtisadi təhlükəsizliyin mənası odur ki, ölkənin əhalisi və hər hansı bir təbəqədən olan vətəndaşlar iqtisadi fəaliyyətlə məşğul olmaq - istər sənaye işi görmək, istər əkinçilik, sərmayə qoyuluşu və ya ticarətlə məşğul olmaq istəsələr, bilsinlər ki, heç kəs onlara mane olmayacaq. Amma bunun mənası o deyil ki, müharibə və ya quruculuq dövründə iqtisadi dolanbaclardan qanunsuz istifadə edib varlanan şəxslər eyni işi iqtisadi təhlükəsizlik adı altında da görə bilsinlər. İqtisadi təhlükəsizliyin mənası iqtisadiyyatda xaos deyil, qoçaqlara, sui-istifadə edənlərə və hər bir fürsətdən qanunsuz yollarla öz kisələrini doldurmağı gözləyənlərin bəhrələnməsi deyil. Bunu bilin.[1]

### Siyasi təhlükəsizliyin mənası

Siyasi təhlükəsizliyin mənası odur ki, cəmiyyətdə siyasi təfəkkür və bilgilər aydın, nifaqdan, ikibaşlı danışmaqdan və ikibaşlı düşünməkdən uzaq olsun; mənası odur ki, siyasi məsələləri xalqa izah etməyə təyin edilənlər xalqa qarşı əmanətdar olsunlar; mənası odur ki, cəmiyyətin düşüncə əsaslarını yazmağa və yaymağa vəzifəli olanlar yalan danışmasınlar, aldatmasınlar, saxtakarlıq etməsinlər və zahirən şirin olan xörəyə zəhər qatmasınlar. Bu, siyasi təhlükəsizlikdir. Bu xalqın istismarçı, düşmən, zalım və hegemon qüvvələrlə mübarizədə iyirmiillik məzlum və fədakar əməyini inkar edən qələm ölkənin bu siyasi təhlükəsizliyini pozur və düşüncə xaosu yaradır. Ölkə daxilində qanun və büdcə imkanlarından istifadə edən və sonra hansısa düşmən ölkənin dövlət rəsmilərinin və

---

[1] Beşinci "Nəsr" diviziyasında Mühafizəçilər Korpusu və Bəsic təşkilatının şəxsi heyəti ilə görüşdə çıxışından: 1999.

siyasətçilərinin istəklərini yayn, zahirən gözəl formalarda bir qrupa yedirdən şəxs siyasi və düşüncə gərginliyi yaradır.

...Mən mətbuat və yazı barədə çox söhbətlər etmişəm. Mənim azad fikrin, azad qələmin, azad sözün tərəfdarı olduğumu da heş kəs inkar edə bilməz. Mən deyirəm ki, ölkədə müxtəlif düşüncə, rəy və üsullar düzgün formada ortaya qoyulmalıdır. Lakin müxtəlif fikirlərin deyilməsi bir məsələdir, xalqa yalan demək, yalan yazmaq, həqiqətləri təhrif etmək və düşmənin mikrofonuna çevrilmək başqa bir məsələ. Mənim mətbuat üçün qəbul etmədiyim ikincisidir.[1]

**Milli birlik və milli təhlükəsizlik**

Əgər milli birlik və milli təhlükəsizlik təmin olunsa, hökumət də öz işlərini, böyük vəzifələrini və quruculuq proqramlarını icra etməyə macal tapar, xalqın iqtisadiyyatı, işsizliyi, məişət problemləri və ölkənin mədəni məsələləri ilə məşğul ola bilər. Əgər təhlükəsizlik, yaxud birlik olmasa, ixtilaf və qarşıdurma, daim siyasi gərginlik olsa, zərər çəkən ilk şəxs hökumət olar; çünki bu halda öz vəzifələrini icra edə bilməz. Hökumət öz vəzifələrini icra edə bilmədikdə isə xalqın, məhrum təbəqələrin, gənclərin, aidiyyətli qurumların fəaliyyətinə möhtac olanların vəziyyətinin necə olacağı bəllidir. Buna əsasən, bu iki şüar mühümdür.[2]

**İslamda sabitliyi pozanlara ağır cəzalar**

İslam dini cəmiyyətin sabitliyini pozan və xalqı qorxudan şəxslər üçün ağır cəzalar təyin etmişdir. Əgər həm bunlar, həm də oğrular, xüsusən də peşələri bundan ibarət olanlar haqqında ilahi hökm icra olunsa, şübhəsiz, çox təsirli olar. Bəzi beynəlxalq sıxıntıları və təbliğat dalğalarını nəzərə almasınlar, Allahın hökmünə baxsınlar. İlahi hökm hər bir şeyi öz yerində və düzgün ölçüdə müəyyən etmişdir.

...İqtisadi sabitliyin pozulması xaosun başqa bir tərəfidir. İqtisadi sabitliyi pozan şəxslər qeyri-qanuni işlərlə, "qoçaqlıq"la xırda sahibkarları və xalqın imkanını məhv və öz xeyirlərinə müsadirə edirlər. Bundan da

---

[1] Yenə orada.
[2] Tehranın cümə namazı xütbələrindən: 2000.

irəliyə gedib qanun-qaydalardan sui-istifadə yollarını tapan, ümumi dövlət imkanlarını öz xeyirlərinə müsadidə edən və bacardıqları qədər öz mənfəətlərini düşünənlər də iqtisadi sabitliyi pozurlar. Siz baxın, əgər bir ölkədə iqtisadi vəziyyət acınacaqlıdırsa, bir neçə səbəbdən biri də belə qanuni cığırlardır. Kimlərsə bunlardan yararlanıb sui-istifadə edə, öz ciblərini doldura, xalqın və dövlətin imkanlarını öz xeyirlərinə və özlərinə sarı yönəldə bilirlər.

...Bunların hamısından pisi ictimai sabitliyin pozulmasıdır. Əslində, milli sabitliyin pozulması daha çox bu nümunəyə aiddir; iş yerlərində, elmi mühitlərdə, tələbə çevrələrində sabitliyi pozurlar. Mən qeyd etdim ki, bir ay öncə ABŞ-ın bir dövlət rəsmisi İranda sabitliyin pozulacağını xəbər vermişdi. Bu, sabitliyin pozulmasıdır. Bunların proqramları var. Gərək həm xalq sayıq olsun, həm də bunların təxribatlarının daha çox hədəfi olan şəxslər. İnqilabın əvvəlindən indiyədək düşmən dəfələrlə iş yerlərində xaos yaratmağa, tətillə işçi qüvvəsini ölkədəki quruculuq fəaliyyətindən saxlamağa çalışmışdır. Bu günə qədər bacarmamışdır, lakin planlar hazırlayırlar.[1]

### Xarici investisiya və iqtisadi təhlükəsizlik

Əgər ölkədə xarici investisiyanı cəlb etmək imkanı yaranırsa, sözün həqiqi mənasında xalqın maraqları və milli kimlik nəzərə alınmalı, ölkənin maraqları qurban verilməməlidir. Biz bir cəhətə diqqət yetirib, digər cəhətləri unutmamalıyıq. Xarici investisiyaları cəlb etmək elə olmalıdır ki, ölkə iqtisadiyyatı ondan xeyir götürsün, ziyan yox. Biz bəzi Şərqi Asiya ölkələrində içiboş inkişaf və çiçəklənmələri gördük. Malayziyanın Baş naziri Tehranda mənə dedi ki, biz bir neçə günün içində sərvətli bir ölkədən yoxsul bir ölkəyə çevrildik. Bu yaxşıdır?! Yəni ölkənin iqtisadi taleyi qərbli bir tacirin əlində olsun; istəsə, milyardlarla dollar həcmində kapitalı fırlatmaqla bir ölkəni bir neçə günün ərzində bədbəxt və iflic edə bilsin. O bu sözü mənə deyəndə üzünə qəm-qüssə çökmüşdü. Biz bunu

---

[1] İmam Rzanın (ə) pak məqbərəsində Məşhəd əhalisi ilə ümumi görüşdə çıxışından: 2000.

iqtisadi inkişaf bilmirik. Ölkə insani və təbii resurslara və kimlik sərvətinə arxalanır və həqiqi iqtisadi inkişafa bunlar səbəb olurlar.[1]

**İnflyasiya məsələsinin həlli**

İnflyasiya məsələsi hansısa yolla həll edilməlidir. Milli valyutanın qüdrətinə hər bir mümkün tədbirlə çalışılmalı və bu, maksimum səylə təmin olunmalıdır. Əlbəttə, ümidvarıq inşallah sizin işlərinizin nəticələri görünəndə və bu əsaslı işlər nəticəyə çatanda elə də olacaq; uzunmüddətli nəticə belə olacaq. Lakin durub gözləmək, qısamüddətli və ortamüddətli planla mümkün olan çıxış yollarından kənarda qalmaq olmaz. Milli valyutanın dəyəri ölkənin bir çox problemlərinin həllinin açarıdır. Xalqın aşağı təbəqələrində alıcılıq qabiliyyətinin zəifləməsi və onların məişət ehtiyaclarının təmin olunmaması bundan irəli gəlir. İnşallah bunlar üçün daha artıq fəaliyyətlər göstərilsin.[2]

**Haqq və nahaq cəbhəsinin aydın olmasının zəruriliyi**

İslam quruluşunda həmişə diqqətdə qalması vacib məsələ cəbhələrin aydınlığı, haqq cəbhəsinin nahaq cəbhə ilə qarışmamasıdır. Nahaq cəbhə ilə keçinmək mümkündür - eybi yoxdur – hansısa bir yerdə onun əlini də sıxmaq olar. Öz yerində olsa, bunun eybi yoxdur. Lakin əsas xətlər əsla qarışmamalıdır. Haqqın kim olması, harada olması, nə üçün olması və nə etmək istəməsi - məqsədinin, üsulunun, siyasətinin, taktikasının və işinin necəliyi bəlli olmalıdır; nahağın kimliyi, səbəbi, məqsədi və planı da həmçinin. Bunları yaddan çıxarmaq olmaz. Bu sərhədi yaddan çıxarmaq heç bir haqq cəbhəsinin xeyrinə bitməz. Heç kəs haqq tərəfdarlarını nə üçün haqq olduqlarını, nə etməli olduqlarını və qarşılarında kimin durduğunu bilmədiyi üçün təqdir etməz; hətta düşmənləri də onları təqdir etməzlər.[3]

---

[1] İmam Rzanın (ə) pak məqbərəsinin ziyarətçiləri və Məşhəd əhalisi ilə görüşdə çıxışından: 2001.

[2] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1996.

[3] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 1999.

## On yeddinci fəsil: Yoxsullara diqqət yetirmək

### Əmirəlmöminin (ə) və cəmiyyətin zəif təbəqələri

O, Allah-Taalanın verdiyi hakimiyyətin və iqtidarın bütün anlarında cəmiyyətin ən zəif insanlarını düşünürdü; həm özü onları düşünürdü, həm də müxtəlif yerlərə göndərdiyi vali və səfirlərə tapşırırdı. O, Malik Əjdərə buyurur: "Axtar, sənin kimi bir adamın adətən görmədiyi şəxsləri tap". Bəzi şəxslər daim Malik Əjdər kimi hakimlərin ətrafında fırlanır, özlərini ona yaxınlaşdırırlar; imkanlıdırlar, dilləri, vəzifələri var, zirəkdirlər; demirəm pis adamdırlar, yaxşı da ola bilərlər, lakin bu işə bacarıqları var. Cəmiyyətdə elələri də var ki, bu işə bacarıqları, imkanları, üzləri, pulları, tanışları yoxdur. Buyurur ki, axtar onları tap və vəziyyətləri ilə maraqlan.[1]

### Yoxsulluğu aradan qaldırmaq üçün ölkənin siyasəti

Ölkəmizdə yoxsulluq, məhrum bölgə, savadsızlıq, abadlaşdırılması mümkün olan, lakin abadlaşdırılmamış bir yer və işsizlik olmamalıdır. Bu, xalqın və məmurların iradəsi və Allah-Taalaya təvəkküllə mümkündür.[2]

Ölkənin idarəsi məhrum təbəqələrin xeyri və yoxsulluğu aradan qaldırmaq istiqamətində olmalıdır; necə ki, belədir də.[3]

Cəmiyyətdə bütün fərdlərə xidmət göstərmək lazımdır, amma məqsəd əsasən məhrum təbəqədir. Xidmət göstərmək üçün iki dəlilə görə onlara xüsusi diqqət yetirilməlidir. Əvvəla ona görə ki, ehtiyacları çoxdur və ədalət bunu tələb edir. İkincisi isə onların quruluşa dəstəyi daha ciddi, daha daimidir və əvvəldən belə olmuşdur.[4]

Məhrum bölgələrə gedin, camaatla canlı ünsiyyət qurun, işlərindən xəbərdar olun. Xüsusən ucqar və məhrum bölgələrə edilən bu səfərlərin özü çox dəyərli və səmərəlidir; çünki insanı reallıqla üz-üzə qoyur.[5]

---

[1] Əmirəlmömininin (ə) doğum günü münasibəti ilə ümumi görüşdə çıxışından: 1993.

[2] Xürrəmabad əhalisi ilə görüşdə çıxışından: 1991.

[3] Müəllim və fəhlələrlə görüşdə çıxışından: 1990.

[4] İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 1991.

[5] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1999.

Ölkənin məhrum bölgələrinə, yoxsul təbəqələrinə və keçmişdə tağut qurumlarının diqqətindən kənarda qalan bölgələrə baxmaq çox lazım və vacib işlərdəndir. İnşallah cənablar harada çalışsalar - istər iqtisadi, istər texniki, istər elmi və mədəni işlərdə bununla maraqlansınlar.[1]

**Kəndlərə sərmayə qoymalıyıq!**

Əgər ölkəmizin nisbətən varlı və digərlərindən ehtiyacsız olmasını və özünü təmin etmək mərhələsinə çatmasını istəyiriksə, kəndlərə sərmayə qoymalı və zəhmət çəkməliyik. Özünü təmin etməyin birinci mərhələsi xalqın qidasını təmin etməkdir. Özünü təmin etməyin nisbi olduğunu ona görə deyirik ki, bir ölkə dünyanın digər ölkələrindən tam ehtiyacsız ola bilməz. Xalqlar və ölkələr arasında mübadilə adi və normal bir iş sayılır. Əsas budur ki, bir ölkə öz ayağı üstə dayana və özünün əsas ehtiyaclarını təmin edə bilsin.

Bunun üçün kəndlərdə abadlıq, əkinçilik işləri görülməli, məmurlar kəndlərə diqqət yetirməli, orada dövlətin və xalqın pulu xərclənməlidir.[2]

Ümumi siyasət bu olmalıdır: kəndləri, kəndlərdə həyatı asanlaşdırın, ölkənin məhrum təbəqələrindən olan əziz kəndlilərə məişət imkanları yaradın, onlar üçün rabitə, yol, nəqliyyat imkanı və rahat bir həyat üçün lazım olan digər imkanları təmin edin.[3]

**Cəmiyyətin məhrumlarına yardımın prioritet olması**

Biz cəmiyyətin məhrumlarına yardım istiqamətində hərəkət etməliyik. Düzdür, İslam cəmiyyətində ədalət hamı üçündür. Yəni siz misal üçün, bir oğrunun imkanlı bir şəxsin evinə girdiyini görsəniz, oğrunun qarşısını alarsınız, deməzsiniz ki, eybi yoxdur, gedib bu şəxsin evindən oğurluq etsin. Yaxud cəmiyyətin orta və adi bir şəxsinə qarşı zülmün də qarşısı alınmalıdır. Lakin cəmiyyətin vəziyyətində, ictimai quruluşda və bizim tariximizdə hansı təbəqələrin daha çox zülmə və

---

[1] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1993.

[2] Ölkənin bir çox bazar adamları, kooperasiya işçiləri və kəndlilərinin beyət mərasimində çıxışından: 1989.

[3] İmam Rzanın (ə) pak məqbərəsinin ziyarətçiləri və Məşhəd əhalisi ilə görüşdə çıxışından: 2001.

ədalətsizliyə məruz qaldığına və geridə olduğuna baxmaq, onlara kömək etmək lazımdır. Aydındır ki, ölkənin yoxsul təbəqələri belədirlər.

Ölkənin məhrumları bu ailənin digər üzvləri ilə bərabər haqqa malik olmalarına rəğmən, uzun illər zülmə məruz qalmış şəxslərdir. Bu ölkədə yüksək və imkanlı təbəqələr, qohumlar, mülkədarlar, oliqarxlar hakim olmuşlar. Hökumət və qanun onların xeyrinə işləmişdir. İndi hər şey həmin vəziyyətin əks istiqamətində hərəkət etməlidir. Yəni ölkənin sərvəti, fəaliyyəti, idarəçiliyi, maddi və mənəvi imkanları məhrum və məzlum təbəqələri yerdən qaldırmaq istiqamətində olmalıdır. Hökumətin bütün proqramlarında buna diqqət yetirilməlidir; əlbəttə, proqramlar elə belədir də. Yəni həqiqətən sizin rəhbər tutduğunuz və mənim əksəriyyətindən, yaxud hamısından xəbərdar olduğum proqramlarda bu cəhətlərə riayət olunmuşdur. Lakin bu, daim məmurların diqqət mərkəzində olmalıdır.[1]

---

[1] Əsirlikdən azad olan döyüşçülərlə görüşdə çıxışından: 1990.

## On səkkizinci fəsil: İşçi və məmurlar

### İnsan iradəsi və qüdrəti

Mənim insanın roluna, insan iradəsinə və qüdrətinə çox inamım var. Bu bizim düşüncə prinsiplərimizdəndir. İnqilab dövrü boyunca və İslam məsələlərini araşdırmaqla bu nəticəyə gəlmişik, onu əməldə icra etmişik, təsir və nəticələrini də görmüşük. İnsan iradəsinə inam, onun yanında ilahi yardıma etiqad, iman və əminlik ən böyük problemlərin asanlıqla həll olunmasına bais olur. Bu baxışla mən inqilabın, ölkənin və quruluşun gələcəyinə nikbin baxıram, bu nikbinliyi var qüvvəmlə qorumuşam və bu gün zərrə qədər də bədbinlik hiss etmirəm. Xüsusən də xalqın möhtəşəm hərəkəti ilahi möcüzəni göstərir və bizi xalqın rolunun əzəməti və təsiri ilə tanış edir.[1]

### İnsan kapitalı əhəmiyyəti

Bir ölkə üçün insan kapitalı hər şeydir. Bizim insan kapitalımız olmasa, heç bir şeyimiz yoxdur. Bir neçə il bundan qabaq bizdən illər öncə inqilab etmiş, iqtisadiyyat, sənaye, texnologiya və bu kimi sahələrdə uğurlar qazanmış bəzi ölkələr barədə araşdırma aparırdım. Gördüm ki, onlar inqilabın əvvəllərində daha çox insan kapitalı yetişdirmək üzərində dayanmış və işlər görmüşlər. Belə ki, bu ölkələrin bəzisi indi də işgüzar və məharətli canlı qüvvə ixrac edir; yəni nəinki belə kadrlar baxımından öz ölkələrini təmin etmişlər, xeyr, onların ölkəsi digər cəhətlərdən bu qədər mütəxəssisi idarə etməyə qadir deyil; iqtisadi vəziyyətləri elə deyil ki, bütün bu mütəxəssisləri işlədə bilsinlər. Buna görə başqa ölkələrə ixrac edirlər. Bu insan kapitalı, neft və digər mühüm strateji gəlirlərinin olmamasına rəğmən (Allaha şükür olsun ki, bunlar bizdə var), onları yüksək səviyyələrə çatdırmışdır.[2]

### Ölkə inkişafının əsası

---

[1] Ölkə Naziri və valilərin beyət mərasimində çıxışından: 1989.

[2] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1989.

Universiteti düzəltmək əsaslı bir işdir. Hər bir ölkədə insan kapitalı inkişafın əsasıdır. Hansı insan kapitalı inkişaf amilidir? İmanlı, vicdanlı, işə inamlı və qayğıkeş insan kapitalı. Əks təqdirdə, işə inamı və qayğıkeşliyi olmayan, ölkəyə, quruluşa, xalqın dəyərlərinə və xalqın özünə heç bir diqqət yetirməyən kadr ölkənin inkişafına nə kömək edə bilər?! Bunlar əsaslı məsələlərdir və bizim quruluşun əsas siyasətlərində bunlara diqqət yetirilməlidir.[1]

**Hər kəsə etimad etməyək!**

Məmurlar iki məsələni işlərinin sərlövhəsi etməlidirlər. Onların biri yaxşı seçimdir; yəni pak, əmanətdar, xeyirxah, səmimi və xalqı sevən insanları seçsinlər. Bu böyük işdə kömək almaq mühüm işdir. Belə olmasın ki, hər kəsə və hər nanəcibə etimad edək, xalqı ona dəyər tanımayan və özünü düşünən bir şəxslə üz-üzə qoyaq. Məmurlar bu məsələyə riayət etməlidirlər.

İkincisi budur ki, bu xidmət və məsuliyyəti öz dünyaları üçün istəməsinlər. Bu quruluşda məsul şəxslər gərək saysız-hesabsız ləzzətlər dişini çəkdirsinlər, çoxlu ləzzətlərdən imtina etsinlər.[2]

**İnsan kapitalını təmin etməkdə elm hövzələrinin vəzifəsi**

Bu ilahi quruluşun və hökumətin əməl üçün əvvəla İslam təlimlərinə və qanunlarına ehtiyacı var. İkincisi, bu quruluşun bəzi işlərini idarə etmək üçün kadrlara ehtiyac var. Bu iki ehtiyacı hövzələr təmin etməlidir. Əlbəttə, məqsəd bu deyil ki, bütün işləri, yaxud mühüm işləri din alimləri öhdələrinə götürməlidirlər. Xeyr, bütün möminlər, saleh insanlar, düşüncə və tədqiqat adamları öz yerlərində mühümdürrlər və ölkədə müxtəlif işləri görəcək mütəxəssislər mövcuddur.

...Deməli, cəmiyyətin və İslam hökumətinin ehtiyacından və onun bərqərar edilməsindən söhbət gedirsə, bunu elm hövzəsi təmin etməlidir. Cəmiyyət dinsiz olduqda təbii ki, din alimlərinə ehtiyac duymur, lakin

---

[1] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.
[2] Məhərrəm ayı ərəfəsində alim və ruhanilərlə görüşdə çıxışından: 1993.

dindar olduqda din alimlərinə, əxlaq, din və İslam maarifi müəllimlərinə ehtiyac duyur.

...Din alimləri İslam təlimlərinə aid yazıları kitab, broşür, jurnal və ya digər formalarda hazırlamalıdırlar ki, sənət adamları onların üzündən misal üçün, film hazırlasınlar və yaxud müxtəlif proqramlar düzəltsinlər.[1]

**Məmurların ilahi meyarlarla seçilməsi**

Mən müxtəlif sahələrə başçılıq edən, yaxud edəcək əziz nazirlərə deyirəm: müavinlərin, öz sahənizdəki müdir və məmurların hər birini ilahi meyarlarla seçin: bacarıqlı, ləyaqətli, dindar, pak və bir müdir üçün lazım olan xüsusiyyətlərə malik.[2]

**İnqilabın işgüzar və sədaqətli insanlara ehtiyacı**

İnqilabın işgüzar və sədaqətli insanlara ehtiyacı var. Sədaqət və ixlas birinci şərtdir. Əgər biz kimdəsə sədaqət və ixlas görməsək, böyük ehtimalla onun işi də yararsız olacaq, yaxud bəzi yerlərdə problem yaradacaq. Sədaqəti və ixlası olmayan, lakin bacarığı olan bir insan bir maşına bənzəyir; əgər nəzarət etməsələr və bir boltunda qüsur yaransa, bəzən insana da zərər yetirir. İnsani işgüzarlıq budur ki, hər bir fərd ixlas, sədaqət və düzgün niyyətlə öhdəsinə düşən işi yerinə yetirsin və nəticədə insan sayılsın, maşın olmasın.[3]

**Bəsic ruhiyyəsini uca tutmaq**

Bəsic üzvlərinin qədrini bilmək lazımdır. Hər bir qurumun, hər bir nazirliyin daxilində Bəsic ruhiyyəsinə malik olan insan əziz sayılmalıdır. Müxtəlif dövlət qurumlarında Bəsic ruhiyyəsinə malik olan şəxs, Bəsic üzvü olan mütəxəssis, həkim, tələbə, ruhani, müdir, kargüzar harada olsalar, uca tutulmalıdırlar. Bununla Allahın lütfü ilə ümmət imamının bu əziz yadigarı həmişə bu xalq üçün qalacaq və öz töhfələrini verəcək.[4]

---

[1] Fiqhin ali ixtisas (xaric) dərsinin əvvəlində söhbətlərindən: 1995.

[2] Höccətül-İslam Haşimi Rəfsəncaninin prezidentlik hökmünün təsdiqi mərasimində çıxışından: 1993.

[3] Prezident aparatı işçilərinin vida mərasimində çıxışından: 1989.

[4] Tehranın cümə namazı xütbələrindən: 1992.

**Əsirlikdən azad olanlar - inqilabın ən yaxşı əsgərləri**

Əsirlikdən azad olanlar inqilabın ən yaxşı əsgərləridir. Əsirlikdən azad olanlar bu xalqın ən sınanmış övladlarıdır. Əsirlikdən azad olanlar inqilabı və İslam Respublikası quruluşunu müdafiə etməyə ən layiqli şəxslərdir. Əsirlikdən azad olanlar bu quruluşun ümidi və etimadı sayılırlar və gələcək işlər üçün də belə sayılmalıdırlar. Əgər inqilab, yaxud İslam Respublikası quruluşu qarşısında bir düşmən baş qaldırsa, onun sinəsinə yumruq vurmalı olan ilk şəxs əsirlikdən azad olandır. Çünki o bu quruluşu qorumaq üçün hamıdan artıq əziyyət çəkmiş, hamıdan artıq təcrübə toplamışdır, özünü daha yaxşı tanıyır və çətin günlərdə öz dözümlüyünü sınamışdır.[1]

**Müharibə iştirakçılarına iş tapşırmaq**

Bu xüsusdə bizim daimi tövsiyəmiz olub və yenə də siz əziz qardaşlara deyir, yada salır və xatırladırıq; bu, müxtəlif sahələrdə müharibə iştirakçılarına diqqətdən, ölkənin müxtəlif vəzifələrini onlara tapşırmaqdan ibarətdir. Həqiqətən bu gün ölkədə olan sabitlik və müxtəlif sahələrin ondan istifadə edərək işləməsi, proqram hazırlaması, ölkəni qurması, ölkə və özləri üçün fəxr yaratması fədakar veteranların və düşmənlə döyüşə atılmış bu gənclərin fəallığından irəli gəlir. Onların bəziləri şəhid oldular, bəziləri yaralandılar və müharibə əlili oldular.[2]

**Doğma qüvvələrin təcrid olunmasına imkan verməyin!**

Hücum qarşısında doğma mömin qüvvələr dayana bilərlər. Doğma mömin qüvvələri, harada olsalar, uca tutun. Mənim sözüm budur. Mən ölkənin elmi-mədəni məmurlarına - Təlim və Tərbiyə Nazirliyindən tutmuş İslam-İrşad Nazirliyinə, İslam Təbliğatı Komitəsinə və digər müəssisə və orqanlarına qədər hamıya deyirəm: doğma qüvvələrə arxalanın. Məqsədim bu deyil ki, kimsə inqilabçı gənc deyilsə, qolundan yapışıb bayıra atasınız. Xeyr, heç kim belə bir söz demir. Ümumiyyətlə,

---

[1] Yenə orada.

[2] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1996.

İslamın və inqilabın məntiqi bu deyil. Hamıya imkan yaradın, kim bu xalq üçün işləmək istəyirsə, işləsin. Mən deyirəm ki, doğma qüvvələrin təcrid olunmasına qoymayın.[1]

**Əməli təcrübənin məziyyəti**

Kitabda bir şey oxuyanla onları yaşayan, yaxud praktikada öyrənən şəxs arasında fərq vardır. Əməl meydanı möhtəşəm bir yerdir.[2]

Vəzifə tapşırılan, vəzifəni qəbul edən və iyirmi il də icra işində çalışan dünənki gənc indi gənc olmadığı üçün demək olmaz ki, heç kim ona vəzifə verməsin. Təcrübə birdən-birə əldə edilmir. O, bir qab kimidir. Siz bahalı bir ağac şirəsini əldə etmək üçün onu bir ağacın, misal üçün, Kauçu ağacının altına qoyursunuz ki, damla-damla dolsun. Bu qab şirə ilə dolduqda deyək ki, daha bəsdir, sonra götürüb boşaldaq və dolmaq üçün yenidən ağacın altına qoyaq?!

Təcrübələrin və təcrübəlilərin qədrini bilmək lazımdır. Sözsüz ki, təcrübəliyə arxalanmaq gənclərə şərait yaratmamaq anlamına gəlmir.[3]

**Hər bir məmurda üç ümdə və zəruri məsələ**

Əgər hər bir sahənin hər hansı məmurunda o işin idarəsinə lazım olan xüsusiyyətlər olsa, insan işlərin yaxşı gedəcəyinə əmin ola bilər.

Mənim fikrimcə, məmurda üç ümdə məsələ, üç hazırlıq və məsuliyyət hissi olmalıdır: Biri budur ki, işin və əməlin özünə hazır olsun. Tənbəllik, halsızlıq, səhlənkarlıq, işi hadisələrin, qəza və qədərin öhdəsinə buraxmaq bir müdiri yetərli və lazımi səlahiyyətdən salan ilk nöqsandır. İşdə ciddilik, iş üçün rahat durmamaq, əmək, hərəkət və öhdəsinə götürdüyü vəzifə üçün məsuliyyət hissi keçirmək çox mühümdür. Məhz buna görə, kimsə ölkə sahələrinin birində işə həqiqətən yetərli bacarığının olmadığını hiss etsə, onu qəbul etməsi şəriətə uyğun olmaya bilər. Çünki işi qəbul etməyin mənası onu yerinə yetirməyə öhdəlik götürmək və yerinə

---

[1] Tehranın cümə namazı xütbələrindən: 1992.
[2] Ordu komandirləri ilə görüşdə çıxışından: 1993.
[3] Gənclərlə sual-cavab məclisində söhbətlərindən: 1999.

yetirməyi qəbul etməkdir. Bu, bacarıqsız və ləyaqətsiz mümkün deyil. Bu, müdir və məmur barədə birinci məsələdir.

İkincisi işi ümumi siyasətlərin və ölkənin əsas proqramlarının tələb etdiyi şəkildə yerinə yetirmək üçün hazırlıq, istedad və öhdəlikdir. Əgər ölkə bir sahədə müəyyən bir siyasəti qəbul etmişsə, ölkənin hər hansı bir sahəsinin icrasını qəbul edən şəxs onu həmin istiqamətdə və həmin məqsədlə icra və idarə etməlidir; onun özü həmin siyasəti tam qəbul etməsə də. Baxmayaraq ki, icraçının o siyasəti qəbul etmədiyi təqdirdə bu işi nə qədər düzgün görəcəyi bəlli deyil, amma hər halda, lazım və əsas olan budur ki, vəzifəni qəbul edən müdir, məmur, yaxud nazir işi hər sahənin siyasət təyin edənlərinin qəbul etdiyi siyasətlər istiqamətində aparsın. Bu da sağlam idarəçiliyin ikinci şərtidir.

Üçüncü şərt paklığı, təqvanı, əməldə düzgünlüyü qorumaq, Allah eləməmiş, hər növ qeyri-qanuni, qeyri-məqbul və qeyri-əxlaqi məqsədlərə bulaşmaqdan çəkinməkdir. Bu, üçüncü şərtdir. Yaxşı müdir öhdəsinə götürdüyü işi düzgün əxlaq qaydalarına riayət etməklə görən müdirdir. İslam quruluşunda ciddi mübarizə aparılan məsələ fəsadın möhkəmlənməsidir. İslam quruluşunda qeyri-düzgün, qeyri-əxlaqi əməllə və Allah eləməmiş, fəsadın möhkəmlənməsi ilə mübarizə aparılan qədər pis və qeyri-düzgün etiqadla mübarizə aparılmır. Bu gün quruculuq dövründə ölkə məmurları, hökumət üzvləri, dövlət qurumlarında çalışan ikinci və üçüncü dərəcəli müdirləri, aşağı sıralara qədər hamı diqqətli olmalı, fəsadın möhkəmlənməsi təhlükəsinin ciddi və öldürücü olduğunu bilməlidirlər. Bu həqiqətən öldürücüdür. Bu işdə fəsad demir ki, mən fəsadam. Digərlərini fəsad vadisinə - maliyyə fəsadına, iş fəsadına, müxtəlif sahələrdə qeyri-qanuni və qeyri-düzgün qərarlara çəkən fəsadçı şəxs, insanı buna həvəsləndirən və sürüşdürən şəxs əvvəldən demir ki, mən sizi fəsada bulaşdırmaq üçün gəlmişəm. Əvvəlcə düzgün bir adla və kiçik bir işlə meydana daxil olur. İnsan ciddi zərərlərə uğraya bilər. Odur ki, çox ehtiyatlı olmaq lazımdır.[1]

---

[1] Höccətül-İslam Haşimi Rəfsəncaninin prezidentlik hökmünün təsdiqi mərasimində çıxışından: 1993.

**Təqva, şücaət və özünüdərk**

Ölkə məmurları nəinki xalqla yanaşı hərəkət etməyi, hətta onlardan öndə addım atmağı bacarmalıdırlar.

Ölkə məmurlarında üç xüsusiyyət olmalıdır. Əgər bu üç xüsusiyyət olsa, o zaman bu əzəmətli milli qüvvə düşmənlərin hər növ xəbislik və ədavətinin qarşısını ala bilər. Bu üç xüsusiyyət təqva, şücaət və özünüdərkdən ibarətdir. Ölkə məmurları - hansı sahədə çalışmaları fərqlənmir; istər bir hökumət müdiri, istər məhkəmə hakimi, istər deputat, istər Nəzarət Şurasının, istər Dini Ekspertlər Məclisinin üzvü, istər silahlı qüvvələrin məsul şəxsləri - bu üç xüsusiyyətə malik olmalıdırlar ki, ölkə təhlükələrdən qorunsun.[1]

**Ölkə məmurlarının fərdi və qrup formasında iqtisadi fəaliyyətlərdən çəkinməsi**

Mənim fikrimcə, xüsusən nazirlər və ölkənin yüksək rütbəli məmurları özlərini bu müxtəlif nigaranlıqlardan xilas etmək, göstərmək istədikləri bu böyük, ixlaslı və yaxşı xidməti əməl dəftərlərinə arxayın və qüsursuz qeyd etmək və ölkə üçün davamlı etmək istəsələr, yolu budur ki, fərdi və ya kollektiv iqtisadi fəaliyyətlərə əsla qoşulmasınlar.

Ölkə müdirləri öz gələcəklərini təmin etmək barədə fikirləşməsinlər. Hər şey Allahın əlindədir. Həyatın idarəsi və onun davamı da Allahın əlindədir.

...İqtisadi fəaliyyətdən nə qədər uzaqlaşsanız, özünüzün, işinizin və ölkənizin xeyrinə olar. Hətta mənim fikrimcə, təyin olunduğunuz vəzifədən başqa hər bir işdən çəkinin ki, öz işinizi görə biləsiniz.[2]

---

[1] 19 Dey (9 yanvar) münasibəti ilə Qum əhalisinin müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 2002.

[2] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1996.

## On doqquzuncu fəsil: Nəzarət

**Məmurların öz sahələrinə davamlı nəzarəti**

Uzun illər icra işində qazandığım təcrübəyə əsasən, bu nəticəyə gəlmişəm ki, bir müdir öz idarəsini sağlam saxlamaq istəsə, gərək işdə təsirli olan ən aşağı sıraya qədər hamıya nəzarət etsin. Deyə bilmərik ki, biz buraya yaxşı bir nazir qoymuşuq, daha hər şey bitdi. Xeyr, o nazir də yaxşı müavinlər seçməli, yaxşı işçilər, şöbə müdirləri təyin etməlidir. Düzdür, iş nə qədər ağır olsa, meyarlar daha yuxarıdır. Yüksək rütbəli məmurdan olan gözlənti ikinci dərəcəli məmurdan gözlənilmir. Lakin düzgünlük, təhlükəsizlik, işi bacarmaq, sevmək, təqva və paklıq bütün səviyyələr üçün lazımdır.

Mən müxtəlif yerlərdə ölkənin müxtəlif məmurlarına dəfələrlə demişəm: ölkənin hansısa şəhərinin, yaxud ucqar kəndinin əhalisi quruluşu həmin kəndin bələdiyyə sədri, polis rəisi, yaxud digər məmuru ilə tanıyır. Onlar üçün prezident, nazir, rəis, müavin - hamısı qarşılaşdığı bir şəxsdir. Əgər o sağlam, əmanətdar, xalqı sevən və qayğıkeş olsa, bütün hökumətin belə olduğunu göstərir. Əgər Allah eləməmiş, addımını əyri atsa, insanlar müqayisə edəcəklər və müqayisəsinin qarşısını almaq mümkün olmayacaq.[1]

**İdarəçilikdə üç mühüm məqam**

İcra işində iki-üç mühüm məqam vardır. Bunları bilsəniz də, bir daha xatırlatmağın eybi yoxdur:

Birinci məqam rəhbərlik etdiyiniz təşkilata nəzarətdir. Bürokratiya maşını qəribə bir şeydir. Mənim və sizin 10-12 illik icraçı iş təcrübəmiz olsa da, hələ bürokratiyanı tanımamışıq. Biz bürokratiyanı digərlərinin sözlərindən - əlliillik, altmışillik və yüzillik nəhəng və məşhur bürokratiyalardan danışan şəxslərin sözlərindən tanıyırıq və bir çox yerlərdə bizim vəziyyətimizlə də uyğundur. Bu icra maşını qaçılmaz bir

---

[1] Höccətül-İslam Haşimi Rəfsəncaninin prezidentlik hökmünün təsdiqi mərasimində çıxışından: 1993.

qurum olmaqla yanaşı, əgər ondan ehtiyatlı olmasanız, təhlükəli də olar. Bu ehtiyat sizi asanlıqla və sürətlə məqsədlərə çatdıran amildir. Əgər icraçı qurum və sizin əlləriniz olmasa, heç bir məqsədə çata bilməzsiniz. Eyni zamanda həmin maşın istədikdə sizi izlədiyiniz məqsədə çatmaqdan saxlaya bilər. Bu sizin çevrənizdən və daha çox ona nəzarətinizdən asılıdır. Əgər ona nəzarət etsəniz, sizin ixtiyarınızda qalacaq; əgər onu unutsanız, siz onun ixtiyarına keçəcək və nə qədər yaxşı olsanız da, öhdəsindən gəlməyəcəksiniz.

Bəzən icrasına təkid göstərilən və təsdiq olunmuş bir siyasət var. Aidiyyətli nazir və ondan aşağı digər məmurlar ona imza və icra möhürü vurmuşlar, lakin yalnız bir nəfər ona mane olur. Sizin hər biriniz bir müddət icra işində olduğunuzdan bunu təsdiq edərsiniz. İcraçı qurumda işləmiş hər kəs bunu təsdiq edər. Yəni nazir istəyib, hökumət istəyib, sərəncam verilib, suyu oradan töküblər və vurulmaqdadır, lakin bu nəhəng borudan su çıxmır. Orada kiminsə ayaqqabısında qum var və bu kanala sədd çəkmişdir; bunun əlacı da yalnız sizin nəzarətinizdir. Deyə bilmərik ki, hamını yaxşı seçin. Məgər sizin bir meyar təyin edib min, iki min, on min işçinizin hamısını o meyarla seçməniz mümkündür?! Fərz edək ki, seçdiniz, məgər yaxşı insanlar həmişə yaxşı qalırlar?! Məgər vəsvəsə və təhrik yaxşı insanlara təsir göstərmir?! Deməli, zəmanət verən amil sizin nəzarətə vaxt sərf etmənizdir.

Əgər yüksək rütbəli bir müdir zamanını bölsə, bəlkə də demək olar ki, vaxtının yarısını öz qurumuna nəzarət etməyə, yarısını da digər işlərə sərf etməlidir: düşünmək, siyasət təyin etmək, sərəncam vermək, iclas keçirmək və sair. Bu quruma nəzarətin mənası sizin daim orada olmanız deməkdir: Cənab, siz nə iş görürsünüz? Bu iş nə oldu? İşlərlə maraqlanmaq da sözügedən nəzarətin bir hissəsidir. Bu, deməsi lazım olan bir məqamdır. Xahiş edirəm cənablar bu məsələyə ciddi yanaşsınlar.

Əlbəttə, cənab Haşiminin qeyd etdiyi kimi, mən bütün vücudumla icra işinin çətinliyini dərk etmişəm, bilirəm ki, bu sizin böyük probleminizdir. Siz çox işlər görmək istəyirsiniz, lakin olmur.

İkinci məqam budur ki, məruzələri nəzərə alın və onların üzərində həssas olun. İnsan elə hissiyyat əldə etməlidir ki, bir məruzə gələn kimi ondakı düzgün məqamı duysun. Ən azı yüksək rütbələrdə belə olmalıdır.

Hər bir müdir öz tabeliyində olanları himayə çətri altına almalıdır; əks təqdirdə, işləyə bilməzlər. Lakin çox bəyənilmiş və yaxşı ənənə olan bu "əməkdaşı müdafiə" məsələsi, o əməkdaşın əleyhinə bir məlumat çatdıqda sizin ciddi şəkildə maraqlanmanıza mane olmamalıdır.

Əgər bu işləri görsəniz, icra qurumu düzələcək. İndi biz bir neçə ildir davamlı olaraq idarə və işə qəbul məsələləri üzərində işləyirik, amma hələ də düzgün bir şey alınmamışdır. Əgər siz bu işləri görsəniz, icra qurumu duzələcək və çox zaman əməl olunmayan bütün bu idarə və işə qəbul proqramları daha lazım olmayacaq, yaxud əksəri lazım olmayacaq. Mənim fikrimcə, hamısından təsirli proqram budur ki, siz harada olsanız, bütün qanun pozuntularına qarşı həssas tədbir görün. Bu, əhəmiyyətli bir məsələdir.

Üçüncü məqam budur ki, çalışın özünüzdə olan bu paklığı və səmimiyyəti idarənizin əsas işçilərinə də ötürün.[1]

**Nəzarətə, həvəsləndirməyə və tənbehə əhəmiyyət verin!**

Nəzarət çox mühüm məsələdir. Müxtəlif sahələrin müdirləri öz iş çevrələrinə qarşı nəzarətə, həvəsləndirməyə və tənbehə çox əhəmiyyət versinlər. Tənbeh dedikdə məqsədimiz məhkəmə qurmaq deyil. Hər halda, nəzərə alınsın. Əgər birisi yaxşı, düzgün və proqrama uyğun işləyirsə, həvəsləndirilsin. Kimsə qanun pozuntusuna yol verirsə, işi pis görürsə, quruluşun maraqlarına və quruluş üçün ideal anlayışlara riayət etmirsə, İslamın və inqilab məfhumlarının ziddinə iş aparırsa, ona qarşı tədbir görmək lazımdır.[2]

**İdarəçiliyə dair məqamlar**

---

[1] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.

[2] İran İslam Respublikası radio və televiziyasının məsul şəxsləri ilə görüşdə çıxışından: 1990.

Biz gərək özümüzdən və işçilərimizdən ehtiyatlı olaq. Gərək ehtiyatlı olaq ki, əvvəla, iş görülsün, ikincisi, düzgün görülsün, yəni səhv və pis görülməsin. Bəzən mıx üzərinə iki çəkic vurmaq lazımdır ki, möhkəm olsun; əgər bir çəkic vursan, bu, səhlənkarlıqdır. Deməli, birincisi işin görülməsinin özü, ikincisi düzgün, üçüncüsü möhkəm olmasıdır. Dördüncüsü işdə sürətdir. Xalqın sizə müraciət etdiyinə görə siz cənablar üçün beşinci məsələ də var; o da işdə gülərüzlülükdür. Ola bilsin bir nəfər sizə müraciət etsin, lakin siz onun işinin düyününü aça bilməyəsiniz. Əgər düyünü aça bilmirsinizsə, ən azı bir düyün də əlavə etməyin.[1]

**Yeknəsəqliyin qarşısını almaq**

Müəyyən bir məqsəd üçün qurulan təşkilatların ömrü nə qədər uzun və təcrübəsi nə qədər çox olsa, işlərlə daha artıq tanış olurlar. Lakin bunun bir zərəri də var, onun qarşısını almaq lazımdır. O da işin adət olmasıdır; yəni işi maraqlı, həvəsli və təravətli bir iş formasından çıxarıb adi və adət edilmiş bir iş formasına salmaq. Bu böyük təhlükədir. İnsan bir işə başlayanda əvvəldə təbii ki, həvəsi daha çox olur, onun xırdalıqları ilə məşğul olur. Bu həvəsin bitməsinə və işin yeknəsəq olmasına imkan vermək olmaz.[2]

**Sayıqlıq və məsuliyyət hissi**

İcraçı qurumlarda çalışan qardaşlar - mənim məqsədim təkcə icraçı hakimiyyət deyil, icra işləri olan qurumlar, yəni icraçı hakimiyyət, məhkəmə hakimiyyəti, silahlı qüvvələr və öhdələrinə iş icrası düşən bütün şəxslər - öz postlarında ayıq-sayıq durmalı və məsuliyyət hiss etməlidirlər. Təkcə özləri barədə demirəm: "Özünüzü və ailənizi qoruyun"[3]; həm özünüzü, həm tabeliyinizdə olanları. Özünüzü də qoruyun, tabeliyiniz altında olanları da.[4]

Əgər biz öz işlərimizin çatışmazlıqlarına, bəzi proqramlarımızda olan nöqsanlara baxsaq, haradan vurulduğumuzu görərik. Bir qədər daha artıq

---

[1] Buşəhr vilayətinin məsul şəxsləri ilə görüşdə çıxışından: 1992.
[2] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.
[3] "Təhrim"/6.
[4] Korpus və ordunun Hərbi Dəniz Qüvvələri ilə görüşdə çıxışından: 1992.

qənaətlə, iş icraçılarının bir qədər diqqəti və qayğıkeşliyi ilə bu problemlərin çoxu tədricən aradan qalxar.[1]

**Məmurların tənqid və nəsihətlərə diqqəti**

Ölkə məmurları və kargüzarlar bilsinlər və bilirlər ki, İslam Respublikasında hər bir məmurun işgüzarlığı tənqid və nəsihətə diqqətdən, işlərin eyib və nöqsanlarını aradan qaldırmaqdan, İslam quruluşunun prinsip və meyarlarına əməl etməkdən və inqilab amallarını qorumaqdan asılıdır.[2]

---

[1] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1999.
[2] Həzrət İmam Xomeyninin vəfatının ikinci ildönümü münasibəti ilə müraciətdən: 1991.

## İyirminci fəsil: İşçi vicdanı və nizam-intizam

### İşçi vicdanı və ictimai nizam-intizam şüarı

İki meyarı özümüzə şüar seçək. Bu iki meyar işdə vicdandan və ictimai nizam-intizamdan ibarətdir. Harada olsaq, bu iki meyar bizim hamımız üçün çox vacibdir.

İşçi vicdanı odur ki, əgər bir işi öhdəmizə götürdüksə və onu yerinə yetirməyi qəbul etdiksə - bu iş istər bizim özümüz, yaxud ailəmiz üçün, çörək qazanmaq üçün olsun, istər ictimai iş, xalq işi və digərləri ilə bağlı olsun; məsələn mühüm ictimai işlər və ölkə vəzifələri kimi - onu yaxşı, kamil, dəqiq və tam şəkildə yerinə yetirək. Əgər bir xalq işçi vicdanına malik olsa, əməyinin məhsulu da yaxşı olar. Məhsul yaxşı olduqda isə ictimai vəziyyət şübhəsiz, yaxşılaşacaq.

İqtisadi, yaxud siyasi şəxsiyyətlərdən hər birinin ölkənin müxtəlif məsələlərinə qarşı fərqli təhlilləri ola bilər. Lakin mən deyirəm: kimin necə təhlili olsa da, problemlərin həlli bu iki meyarda - işdə vicdan və ictimai nizam-intizamdadır.

İctimai nizam-intizam - bütün işlərdə intizamı qəbul etməkdir. Siz bu nizam-intizamdan ötrü kiçik işlərdən başlayın; fərz edin tıxac olan xiyabanlarda, yaxud hər hansı yerdə piyadaların keçidi üçün nəzərdə tutulmuş xətdən keçmək. Bu iş ilk baxışdan kiçik və əhəmiyyətsiz görünür, lakin buradan başlayıb ictimai nizam-intizamı bütün məsələlərə qədər genişləndirək ki, ölkə işlərinə və yüksək vəzifələrə qədər davam etsin. Yəni xalqın müraciət etdiyi şəxslər onlara müraciət edən insanlarla rəftarda nizam-intizamı hakim etsinlər, üzərlərinə iş götürən şəxslər o işi yerinə yetirməkdə nizam-intizama riayət etsinlər. Bütün bunlar ölkəmizə və xalqımıza təravət bəxş edər və onların işlərini yoluna qoyar.[1]

### Vəzifələri yaxşı yerinə yetirməkdə bütün gücü işlətmək

Bu ölkədə kim və hansı səviyyədə üzərinə iş götürürsə, vəzifəsi, xalqa xidmət olan o işi yerinə yetirməkdir. Mən dəfələrlə demişəm ki,

---

[1] Yeni il münasibəti ilə şərafətli İran xalqına müraciətdən: 1994.

icraçı və icraya bənzər vəzifələri qəbul edən şəxslər özlərinin bütün vaxtlarını bu vəzifəyə sərf etsələr, bəlkə onu tam şəkildə yerinə yetirə bilərlər. Lakin bu iş üçün olan vaxtın bir qədərini digər işlərə sərf etsələr, işlər yerdə qalacaq.[1]

**İctimai nizam-intizama nail olmaq üçün proqram**

Məncə əxlaq mədəniyyətini, ümumi əxlaq və mədəniyyət cəhətlərini təmin etmək üçün ciddi bir istiqamətlənmə lazımdır.

Əxlaq dedikdə yalnız şəxsi xarakterlər təsəvvür olunmasın və bizim oturub xalqa nəsihət hazırlamağımızı düşünməsinlər. Xeyr, ümumi əxlaq məsələləri nəzərdə tutulur. Məsələn, fərz edin, biz bu ilin əvvəlində şüar kimi dedik: İşçi vicdanı və ictimai nizam-intizam. Bu, əxlaqın iki qismidir. Həqiqətən gəlin bu ictimai nizam-intizamın yaranması üçün proqram hazırlayaq.[2]

**Mədəni İnqilab Ali Şurasının vəzifəsi**

Əgər ictimai qayda-qanun olsa, müxtəlif yerlərə nüfuz edən saxtakarlıqlar və müxtəlif maliyyə fəsadları olmayacaq. Bizim təməllərimiz möhkəm təməllərdir. Bizim fəsad dolu bir quruluşla fərqimiz budur ki, fəsadçı quruluşun təməli səhv qoyulub, möhkəm deyil. Allaha şükür olsun ki, bizim təməllərimiz möhkəm və əsas daşlarımız güclüdür. Lakin bəzi divarlarda və ikinci dərəcəli sütunlarda fəsad şəbəkələri mövcuddur. Əgər ictimai qayda-qanun olsa, bu məsələlər qarşıya çıxmaz. Əgər işə lazımi diqqət göstərilsə və biz adını əxlaq - əlbəttə, qanun formasında olan qeyri-fərdi əxlaq - qoyduğumuz ictimai əxlaqa əməl etsək, ona hüquqi bir məsələ kimi qanun-qayda qoysaq, yalnız bir əxlaqi cəhət olduğunu düşünməsək və əslində, bu xarakterlərə hüquqi cəhət versək, inkişafımızın təməllərini o mədəniyyət üzərində qurmuş olacağıq. Bu məmləkətdə belə bir iş kimin öhdəsinə düşür? Mənim yadıma ancaq bu orqan düşür. Bizdə həqiqətən hara var? Əgər bu məmləkətdə ictimai əxlaqın qanuni, yaxud ən azı qanunabənzər təzminatı olmasını və ona əməl edilməsini istəsək, yalnız

---

[1] Şəhər və kəndlərin İslam şuralarının üzvləri ilə görüşdə çıxışından: 1999.
[2] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1994.

dillə deməyək "işçi vicdanı". İşçi vicdanını hamı deyir və söyləyir. Əməl etməliyik. Yəni bu vicdanın yaranması üçün bir iş görməliyik. Bizim özümüzün işçi vicdanmız var və işlərimizlə məşğuluq; bu aydındır. Biz bunun ümumiləşməsini istəyirik. Bu, zəhmət çəkmədən ümumiləşə bilərmi?! Nəsihətlə ümumiləşə bilərmi?! Şübhəsiz ki, xeyr. Əgər işdə vicdanın bir proqramla ümumiləşməsini istəsək, bu məmləkətdə bu proqramın hazırlandığı yer haradır? Mədəni İnqilab Ali Şurasından başqa bir yerimiz varmı?! Belə nəzərə çarpır ki, Mədəni İnqilab Ali Şurasının üzərinə belə əzəmətli missiya düşür və Allahın lütfü ilə bu şurada görkəmli şəxsiyyətlər, həqiqətən böyük, uca, dəyərli, fikir, zehin, elm və İslam baxımından yüksək dərəcələrə malik insanlar var. Bu şura bu işi görə bilər.[1]

[1] Yenə orada.

## İyirmi birinci fəsil: Məmurların anlaşması

**Yüksək səviyyələrdə həmrəylik və əməkdaşlıq**

Mən demək istəyirəm ki, icra işində əldə etdiyim, səkkiz il birbaşa icraçı işdə və ondan öncə də inqilabın əvvəlindən icra işlərində qazandığım təcrübəyə əsasən, əgər bu işin təşkilat baxımından düzəlməsini və kollektiv içra işi görülməsini istəsək, mütləq yüksək səviyyələrdə həmrəylik və əməkdaşlıq olmalıdır. Yəni ayrı-ayrılıqda düzgün olan iki saleh adam bir yerdə olduqda nöqsan yaransa və bir-biri ilə əməkdaşlıq edə bilməsələr, bunlar saleh insanlar olsalar da, işi apara bilməzlər.[1]

**Kollektiv və harmonik iş**

Digər tövsiyə kollektiv və harmonik işdir. Bizim bu bir neçə ildə həmişə tövsiyə etdiyimiz, lakin həyata keçməyən və son zamanlara qədər hökumət məmurlarının bizə şikayət etdiyi bir məsələ müxtəlif sahələrdə və həssas yerlərdə əməkdaşlığın olmamasıdır; misal üçün, bizim iqtisadi sahələrimizin Xarici İşlər Nazirliyimizlə əməkdaşlığı. Xarici İşlər Nazirləri – həm cənab Doktor Vilayəti, həm də cənab Doktor Xərrazi həmişə mənə şikayət edirdilər ki, bizim filan ölkə ilə siyasi problemimiz var, bunu bir iqtisadi işlə həll etmək olar, lakin əlimiz boşdur. Bir də görürük bizim iqtisadi orqanımız bir iqtisadi iş görüb, bizim isə əsla xəbərimiz olmayıb. Əgər xəbərdar olsaydıq, siyasi problemimizi onun vasitəsi ilə həll edərdik.[2]

**Hökumətin sütunlarının birliyi və uyğunluğu**

Bir məqam hökumətin birliyi, uyğunluğu və bir sahəsinin digər sahəni zəiflətməkdən çəkinməsidir. Sizin təşkilatınız bir olmalıdır. Siz sözün həqiqi mənasında bir-birinizlə əməkdaşlıq etməlisiniz. Mən demirəm ki, sizin sahə gözləntiləriniz olmasın. Mən bir dəfə sahə gözləntiləri olan və məndən bir şey istəyənlərin birinə dedim ki, mən sizin bu işinizi görməyəcəyəm, yəni imkanım yoxdur. Lakin bu səyinizi

---

[1] Ali Məhkəmənin sədri və məsul şəxsləri ilə görüşdə çıxışından: 1989.

[2] Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2005.

alqışlayıram. Buna əsasən, mən öz-özlüyündə sahə səyindən gileylənmirəm, lakin ayrı-ayrı sahələrin bu fəaliyyəti ümumi işə və hökumətin sahələrüstü cəhətinə zərbə vurmamalıdır. Yəni müxtəlif sahələr məsələyə riayət etməlidirlər. Mənim fikrimcə, əsas məsuliyyət də Proqram və Büdcə Təşkilatından, ölkənin İdarə və Kadr İşləri Komitəsindən və əsasən prezidentdə birləşən orqanlardan ibarət olan hökumətin üzərinə düşür.

Hökumətdə prezidenti mərkəz bilmək lazımdır. Mən həmişə demişəm ki, hökumət prezidentin komandir kimi ortada dayandığı dörd yol ayrıcına bənzəyir. Bir sahənin qarşısında əlini qaldırdıqda o sahə dayanmalıdır ki, digər sahələr hərəkət edə bilsinlər. Hərəkət işarəsi verdikdə hərəkət edin; yəni önə keçməyin və arxaya da qalmayın. Prezidentin məşvərətlə, məsələnin bütün cəhətlərini nəzərə almaqla, müxtəlif sahələrin müxtəlif ehtiyaclar kimi dediklərini nəzərə almaqla və təbii şəkildə malik olduğu kompleks baxışı ilə prioritet seçdiyinə əməl olunmalıdır.

...Sizin sahələrinizdən yüksəkdə duran bir məsələ var və o, hökumətin və hökumət imkanlarının məcmusudur. Bu mərkəzliliyə, bu birliyə diqqət yetirməklə hökumətin işini idarə edə bilməlisinz. O zaman üçüncü məsələ qarşıya çıxır və bu, priortetlərə riayət etməkdir.

Mənim fikrimcə, iki hissədə prioritetlərə riayət etməlisiniz: biri sahələr daxilindəki proqramların özündə, digəri isə hər bir sahənin digər sahəyə qarşı proqramlarında. Bizim gəlir mənbələrimiz tükənməz olsaydı, uşağının oyuncağa ehtiyacı olduqda səxavətlə əlini cibinə salıb oyuncaq üçün pul verən sərvətli və zadəgan bir insan kimi əməl edərdik. Lakin sərvətlərimiz o qədər də çox deyil və gəlir mənbələrimizdə çoxlu çatışmazlıqlar var.[1]

**Üç orqan arasında əməkdaşlığın zəruriliyi**

Təkidlə deyirik: digər orqanlarla - məhkəmə və qanunverici hakimiyyətlə əməkdaşlıq çox əsaslı və mühüm məsələdir. Allaha şükür olsun ki, son dövrdə əməkdaşlıq və mehriban üsul həyata keçmişdir. Ali

---

[1] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1999.

Məhkəmə fəaldır, çalışır, dəyərli xidmətlər göstərir. Qanunverici hakimiyyət məsuliyyət hissi və qayğıkeşliklə hərəkət edir. Siz də Allaha şükür olsun ki, xalqın seçdiyi hökumət və xalqın nümayəndələrisiniz. Ümidvarıq inşallah bu əməkdaşlıq ən yaxşı formada həyata keçsin və davam etsin.[1]

**Yüksək səviyyədə hökumətin və quruluşun birliyini qorumağın zəruriliyi**

Qardaş və bacılar çalışıb yüksək səviyyədə hökumətin və quruluşun birliyini qorusunlar. Bilin ki, biz bu problemlərə üstün gələ bilsək - əlbəttə ki, Allahın lütfü ilə üstün gələcəyik – bu yalnız quruluşun yüksək səviyyəsində birlik və ümumi məsələlərdə izlənilən kollektiv iradə sayəsində mümkün olacaq və davamlı ümumi birliklə nəticələnəcək. Bir dəstənin bu tərəfdə, bir dəstənin o tərəfdə, bir qrupun öz söz və işləri, digər qrupun da öz söz və işləri haqda düşünməsi yaramaz. Quruluşun yüksək səviyyələrini bölmək və parçalamaq onun zərərinə tamamlanacaq, heç kəsin xeyrinə bitməyəcək. Əlbəttə, düşmənin xeyrinə bitəcək; əgər zirək və ağıllı düşmənimiz olsa, cəld sui-istifadə edəcək.

Bu gün xoşbəxtlikdən, xalqımız birdir. Dəfələrlə gördüyünüz və təcrübənin göstərdiyi kimi, Allaha şükür olsun ki, xalq birdir. Bu birlik o zaman zəmanətli, möhkəm və köklü olar ki, yüksək səviyyələrdə parçalanma və ayrılıq hissi, bəzən isə Allah eləməmiş, ədavət olmasın. Əgər işlərinizdə uğur qazanmanızı istəyirsinizsə, buna əməl etməlisiniz.[2]

**Cinah rəftarları və xalqın etimadının sarsılması**

Siyasi görüşü və xətti fərqli olan müsəlman qardaşına hörmətsizlik edən, üstünə cuman, əleyhinə yazı yazan və söz danışan şəxs bununla nəyi əldən verdiyini bilmir? Siz öz gümanınıza görə qardaşınızı islah etmək istəyirsiniz. Sizin bu birbaşa və mütləq - əksər etirazlar mütləqdir - tənqidinizi və etirazınızı eşidən şəxs sizin qardaşınızdır. Get qardaşını təklikdə tut, nə istəyirsən ona de. Nə üçün belə ixtilaf yaratmaqla xalqı və

---

[1] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1993.

[2] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1999.

ümumi dinləyiciləri düşüncə gərginliyinə düçar edirsən? Əgər cinah rəftarları davam etsə, xalqın etimadını əldən verəcəyik.[1]

Bütün orqanlar yaxşı çalışmalıdır və bütün xalq onlara kömək etməlidir. Bu gün İslam bayrağı siz xalqın və hökumətin əlindədir. Siz bu bayrağı qorumalısınız. Qarşıdurma və çəkişmə ilə bayraq qorunmaz.[2]

[1] İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 1991.
[2] Ruhanilər, məmurlar və xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 1989.

## İyirmi ikinci fəsil: Birlik

**Düşmən xalqın birliyini hədəf seçmişdir!**

Təhdidləri zərərsizləşdirmək üçün xalqımızın ən mühüm silahı milli birlik və həmrəylikdir. Düşmən təhdidlərini zərərsizləşdirmək üçün atom bombasına və nüvə silahına ehtiyac yoxdur. Siz xalqın həmrəyliyi və birliyi, sizin ilahi ipə və dini inanca sarılmanız ən mühüm silahdır. Bu silah inqilabın qələbəsindən bu günə qədər ötən 26 il ərzində öz təsirini göstərmişdir və bundan sonra da göstərəcək. Birliyinizi və vəhdətinizi qoruyun. Düşmən xalqın birliyini hədəf seçmişdir.

...Ürəkləri bir-birinə yaxınlaşdırın, Allah-Taaladan kömək istəyin, Allahın bu xalqa əmanət verdiyi həvəsi, qüvvəni və böyük istedadı işə salın. Allah-Taala da kömək edəcək.[1]

**Bu gün vəhdət məsələsi müsəlmanlar üçün çox zəruri məsələdir!**

İslam və müsəlmanların düşməninin iki xüsusiyyəti var. Bu iki xüsusiyyət tarix boyu heç zaman mövcud olmamışdır. Biri budur ki, güclü şəkildə sərvətlə, siyasətlə, təbliğatla, müxtəlif təsir və zərbə mexanizmləri ilə silahlanmışdır. İslamın düşməni kimdir? Hegemon cəbhə. Sionizmdən ABŞ-a, neft kompaniyalarına, onlar üçün işləyən muzdur qələm sahiblərinə və ziyalılara qədər hamısı bütün dünyada təchiz olunmuşlar. İslam qarşısındakı cəbhə heç zaman bu qədər imkanlı olmamışdır.

Digər xüsusiyyət budur ki, həmin imkanlı cəbhə bu gün İslamın və İslam oyanışının yaratdığı təhlükəyə qarşı olduqca həssasdır. Bu həssaslıq ondan irəli gəlir ki, İslamın bir əxlaq tövsiyəsi həddindən kənara çıxdığını və bir quruluş yaradacaq fikir mövqeyində olduğunu görür. Düşmənlər İslamın bir inqilab, möhkəm və güclü bir quruluş yaratdığını gördülər. Gördülər ki, İslam bir xalqı özünə inandırıb, onları psixoloji məğlubiyyətdən özünə güvənməyə, özü və öz dini ilə qürur duymağa yüksəltdi. Onlar İslamın bir xalqı qeyd etdiyimiz amillərdən heç birinin təsir göstərə bilməyəcəyi həddə qüdrətli və güclü etdiyini gördülər.

---

[1] İmam Rzanın (ə) məqbərəsində çıxışından: 2005.

...Bu güşmənin malik olduğu ən güclü amil müsəlmanlar arasında ixtilaf yaratmaq, xüsusən də digər müsəlmanların ilham mənbəyi ola bilən faktorlar arasında fasilə salmaqdır. Görün bu gün müxtəlif İslam ölkələrində kitab yazıb qəribə etiqadları şiələrə aid etmək üçün neft dollarlarından və digər yerlərdən nə qədər pul xərclənir! Mən bir dəfə bu kitabların böyük hissəsini topladım, gördüm ki, çox kitablar yazılır. Ən bacarıqlı təbliğat mərkəzləri bu kitabları hazırlamaqla məşğuldur. Məqsəd ixtilaf yaratmaqdır. Məqsəd İslam cəmiyyətinin İslam bayrağını ucaltmış və zirvəsi də İslam İranı olan hissəsini digər İslam dünyasından ayırmaqdır.

Bu gün İslam dünyasında pul, düşüncə çoxdur, bacarıqlı insan kapitalı var. İslam dünyasında layiqli alimlər, şairlər, yazıçılar, sənətkarlar və siyasi şəxsiyyətlər var. Əzəmətli maliyyə qaynaqlarının və yeraltı sərvətlərin - Allahın bəxş etdiyi yeraltı mədənlərin əsas hissəsi İslam ölkələrinin ixtiyarındadır. Əgər bunlar bir-biri ilə eyni istiqamətdə olsalar, yaxud ən azı bir-birinin əleyhinə işləməsələr, görün dünyada nə baş verər! Düşmən elə edir ki, İslam dünyasında bütün bu insani və maliyyə qaynaqları bir-birinin qarşısında dayanır. İraq rejimini təhrik etdi və bu bölgədə səkkiz il fəlakətli bir müharibə yaratdı. Sonra da ona kömək etdilər ki, bacarsa, bu yeni ağacı bütünlüklə kökündən qoparsın. Təbii ki, bacarmadılar.

Bu gün də siyasi cəhətdən var gücləri ilə çalışırlar. Odur ki, bir xidmətçi, düşmənin təxribatını görən və hiss edən bir şəxs kimi nəticəm, dərkim, qənaətim və müsəlman qardaşlara tövsiyəm budur ki, bu gün müsəlmanlar arasında birlik onlar üçün həyati əhəmiyyət daşıyır, zarafat və şüarçılıq deyil. İslam cəmiyyətləri bir-biri ilə ciddi sözbirliyinə malik olmalı və eyni istiqamətdə hərəkət etməlidirlər. Əlbəttə, vəhdət mürəkkəb işdir, birlik yaratmaq mürəkkəb məsələdir. Müsəlman xalqlar arasında birlik məzhəb fərqləri, həyat tərzi və həyat ənənələrinin fərqləri və fiqhlərin müxtəlifliyi ilə ziddiyyət təşkil etmir. İslam xalqları arasında birliyin mənası budur ki, İslam dünyasına aid məsələlərdə eyni istiqamətdə hərəkət etsinlər, bir-birinə kömək etsinlər və öz sərvətlərini bir-birinin əleyhinə işlətməsinlər.

Bu sahədə mərkəz olan amillərdən biri əziz Peyğəmbərin (s) müqəddəs vücudundan ibarətdir. Müsəlmanlar və İslam ziyalıları o həzrətin şəxsiyyəti, təlimləri və ona sevgi ətrafında, İslama dair ümumi baxışla sərmayə qoymalıdırlar. Bu vəhdətin mərkəzi olan bilən və bütün müsəlmanların yekdil rəyə gələ bildiyi amillərdən biri Peyğəmbər (s) əhli-beytinə tabe olmaqdır. Peyğəmbərin (s) əhli-beytini bütün müsəlmanlar qəbul edirlər. Əlbəttə, şiələr onların imamlığına etiqad bəsləyirlər. Qeyri-şiələr onları Şiə terminologiyasında olan mənada imam bilmirlər, lakin İslam böyüklərindən və Peyğəmbərin (s) əhli-beyti bilirlər, İslam elmlərində alim bilirlər. Müsəlmanlar imamların və Peyğəmbər (s) əhli-beytinin sözlərinə əməl etməyə dair yekdil fikrə gəlməlidirlər. Bu, vəhdət amillərindən biridir.

Əlbəttə, bu iş peşəkar işdir, asan deyil, lazımi şərtləri var. Mütəxəssislər, hədisşünaslar və hədisə bağlı elmlərə yiyələnmiş şəxslər bu işin müqəddimələrinin nə olduğunu bilirlər. Hədisi dərk etmək, hədisə dözüm meyarları, hədisin düzgünlüyünün və mötəbərliyinin meyarları haqda yekdil rəyə gəlmək lazımdır; hədis rəvayətçilərində razılığa gəlinməlidir. Keçmişdə əsasən, Bəni-Abbas və bir qədər də Bəni-Üməyyə Əhli-beyt təlimlərini İslam dünyasının zehniyyətindən çıxarmağa çalışdılar. Buna görə onların hədisləri az nəql olunmuşdur. Hədisçi hədisi nəql edir və onun üçün fərqi yoxdur ki, Həsən Bəsridən, Qətadədən, yaxud digərlərindən nəql etsin; nə üçün Cəfər ibn Məhəmməddən (ə) nəql etməsin? Harun, Məmun, Mötəsim, Mütəvəkkil və digər xəlifələrin aparatı mane olur və yolları bağlayırdılar. Bəziləri də hədis rəvayətçilərini ittiham edirdilər. Odur ki, görülməli işlərdən biri hədisin müqəddimələri barədə ortaq fikrə gəlməkdir. Bu sahədə alimlərin, İslam mütəfəkkirlərinin üzərinə məsuliyyət düşür.[1]

### İslam düşmənlərinin təfriqə yaratmasına qarşı mübarizə

Düşmən İslam firqələri arasında çəkişmənin olmasını istəyir. Xüsusən də İslam inqilabının qələbəsindən sonra düşmən inqilabçı və

---

[1] Quruluşun məsul şəxsləri və beynəlxalq Birlik konfransının xarici qonaqları ilə görüşdə çıxışından: 1995.

islamçı İranla digər xalqlar arasında məsafə yaratmağa çalışır. Allahdan istəyirlər ki, İslam dünyasında deyilsin: "Bunlar şiədirlər, inqilabları şiə inqilabıdır və biz sünnilərə aidiyyəti yoxdur". İran xalqı inqilabın əvvəlindən demişdir ki, bəli, biz şiə və Peyğəmbər (s) əhli-beytinin tərəfdarlarıyıq, lakin bu inqilab bir İslam inqilabıdır, Quran, tövhid, əsl İslam və bütün müsəlmanlar arasında vəhdət və qardaşlıq əsasında baş vermiş bir inqilabdır. Bunu bizim xalqımız əvvəldən dedi; bizim imamımız açıq söylədi və bəyan etdi.

Bu birliyin sarsılmasına qoymayın. Digər ölkələrdə yaşayan müsəlman xalqlar muzdur yazıçı və qələm sahiblərinin İran xalqı, İslam inqilabı və İslam Respublikası əleyhinə yazmalarına, böhtan və iftira yaymalarına qoymasınlar. Onlar bu işi görməkdədirlər. Bizim öz yazıçılarımız da sayıqlıq göstərsinlər, düşmən bəhanə tapmasın və bu yarıq genişlənməsin. Radio və televiziya, media qurumları, qəzetlər, kitab yazanlar, hamı və hamı ehtiyatlı olsunlar və müsəlmanlar arasında ixtilaf yaratmaq üçün düşmənin əlinə bəhanə verməsinlər. Biz dedik ki, məzhəbləri nə olursa olsun, müsəlman qardaşların hamısı qardaşdırlar, İslam, tövhid, və Quran yolunda, İslamın, tövhidin və Quranın düşməni olan hegemonizmlə mübarizə aparmalıdırlar.[1]

**Müstəmləkə təxribatının müxtəlif yolları**

Düşmən müxtəlif yollarla təxribat aparır; onlardan biri ixtilaf yaratmaqdır. İxtilaf hansı yoldan və harada olsa, İslamın və Quranın ziddinədir; istər siyasi ixtilaflar olsun, istər qəbilə ixtilafları.

Düşmənin bu gün bizim xalqımıza təsir göstərməyə çalışdığı digər yollardan biri şayiə yaymaqdır. İnqilabın qələbəsindən bu günə qədər harada imkanları olubsa, şayiə yaymışlar. Məqsədləri budur ki, xalqı qorxudub ümidini kəssinlər.[2]

**Şiə və sünni arasında ixtilaf yaratmaq üçün düşmənin proqramı**

[1] Tehranın cümə namazı xütbələrindən: 1991.
[2] Xürrəmabad əhalisi ilə görüşdə çıxışından: 1991.

Mən buradan öz xalqımıza, İraq xalqına, Pakistan xalqına və digər müsəlman xalqlara xatırlatmaq istəyirəm ki, məzhəb qarşıdurmalarına, şiə və sünni ixtilaflarına son qoysunlar. Mən bu gün şiə və sünni adı ilə planlı şəkildə müsəlmanların arasında müharibə törədən əlləri görürəm. Baş verən qırğınlarda, məscidlərdə, hüseyniyyələrdə, camaat və cümə namazlarında törədilən partlayışlarda, şübhəsiz, sionizmin və imperializmin xəbis əlləri mövcuddur. Bu, müsəlmanların özlərinin işi deyil. Həm İraqda, həm İranda, həm Əfqanıstanda, həm Pakistanda, həm də digər ölkələrdə bu gün müsəlmanlar özlərinin bir və müştərək cəhətlərinə diqqət yetirməyə borcludurlar. Tövhid birdir, nübüvvət birdir, məad birdir, Quran birdir, İslam şəriətinin əksər hökmləri birdir, hamısı müştərəkdir, lakin düşmən fərqli nöqtələr üzərinə barmaq qoyur, öz məqsədlərinə çatmaq üçün ürəkləri bir-birinə qarşı kinlə doldurur.

...Bizim ölkəmizdə və digər İslam ölkələrində ingilislər və İngiltərənin casus şəbəkəsi şiə və sünni arasında ixtilaf yaratdılar. Onların bu işdə böyük təcrübələri var. Hamı ehtiyatlı olmalıdır.[1]

**Vəhdətin ziddinə olan amillərlə mübarizə**

Təbii şəkildə vəhdəti pozan bəzi amillər mövcuddur: milli fərqlər, məzhəb və tayfa fərqləri, siyasi fərqlər. Onlara qarşı mübarizə aparmaq lazımdır. İslam ümmətinin birlik mərkəzi olan Peyğəmbərin (s) müqəddəs adına və o həzrətin xatirəsinə əsaslanmaqla bu ixtilaflar üzərində qələbə çalmaq lazımdır. Lakin bundan çətini İslam ümmətinə köçürülən təfriqə səbəbləridir. İslam düşmənləri özlərinin daimi siyasətlərinə uyğun olaraq, milli, tayfa və məzhəb fərqləri fonunda müsəlmanlar arasında ixtilaf yaradırlar. Bu ixtilafların arxasında düşmənin əlini, təxribatını və siyasətini açıq şəkildə görmək olar.[2]

**Birlik və vəzifələrə sadiqlik: ölkə problemlərinin həlli**

Mənim bu gün ölkənin bütün problemlərinin əlacı bildiyim iş quruluşun daxili strukturunun möhkəmləndirilməsidir. Əlbəttə, bu iş

---

[1] İmam Xomeyninin vəfatının on altıncı ildönümü mərasimində çıxışından: 2005.
[2] Quruluşun məsul şəxsləri və İslam ölkələrinin səfirləri ilə görüşdə çıxışından: 2005.

ümumi iradə ilə mümkün ola bilər. Bu bütün tərəqqi, xidmət və düyünlərin açılmasının vacib şərtidir; yəni vəhdəti qorumaq, hər bir insanın və ölkənin fəaliyyətlə məşğul olan qanuni sahələrindən hər birinin öz vəzifələrinə əməl etməsi, cəmiyyətdə sabitliyin qorunması, işləmək, mühiti ixlaslı və mömin fəaliyyətlə doldurmağa çalışmaq, xüsusən də tələbələr arasında və universitetdə əvvəldə dediyim iki baxışla universitetə məxsus aydınlaşdırma və məlumatlandırma işi görmək: universitetə, beynəlxalq mühitə və dünyanın vəziyyətinə baxışla.[1]

Quruluşun bizim kimi məsul şəxslərinin heç biri hansısa əllərin inadkarlıq, qərəz, yaxud cəhalət üzündən xalq arasında təfriqə yaratmasına, xalqı dəstələrə bölməsinə və onların istəklərini bir-birinə qarşı çevirməsinə imkan verməməliyik. Bunun yolları var. Bu həmişə qəzəblənməklə, dalaşmaqla və təhdid etməklə hasil olmur. Bunu çox zaman məhəbbətlə və qəlbləri cəlb etməklə həyata keçirmək lazımdır.[2]

### Üç hakimiyyətin eyni istiqamətdə olması - xalqımız üçün bir fürsət

Üç hakimiyyətin eyni istiqamətdə olması xalqımız üçün bir fürsətdir. Əlbəttə, bəziləri bunu pisləyirlər. Bu, səhvdir. Kimlərinsə müxtəlif orqanlarda xalqın seçimi və istəyi ilə siyasi baxımdan vahid istiqamətdə hərəkət etməsi əsla zərərli bir şey deyil, ölkə üçün faydalıdır. Əlbəttə, işlər şəffafdır, xalq görür, tənqid edən insafla tənqid edir, şəxslərin dəyəri, bacarığı, iradə və maraqlar bəlli olur. Bunun eybi yoxdur. İndi fürsət yaranmışdır. Bu uyğunluq ab-havasının bəzi yersiz iradlarla, yaxud kiçik məsələləri böyütməklə məhv olmasına qoymayın. Diqqətli olaq; çünki eyni istiqamətdə olan qüvvələr arasında ixtilaf yaratmaq və işləməyə mane olmaq istəyən bədxah və bədniyyət göz və qulaqlar var. Çox ehtiyatlı olun; həm hökumətdə ehtiyatlı olun, həm parlamentdə, həm Ali Məhkəmədə, həm də siyasi mətbuatda və digər sahələrdə.[3]

### Birlik və həmrəylik

---

[1] Bəsic üzvü olan müəllim və tələbələrlə görüşdə çıxışından: 2003.
[2] Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdə çıxışından: 1991.
[3] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2005.

Düşmən özünün mənfi və sizin müsbət cəhətinizi anlamışdır. Sizin müsbət cəhətiniz iman, fədakarlıq, mübarizlik, həmçinin birliyiniz və həmrəyliyinizdir. Onun mənfi cəhəti budur ki, bir xalqın milli qüvvəsi qarşısında heç bir imkana malik deyil. Hərbi imkanın faydası və uğuru yoxdur; düşmən bunu bilir. Düşmən bu müqaviməti sındırmaq, bu imanı zəiflətmək, milli birliyi və həmrəyliyi yox etmək fikrindədir. Əgər kiminsə əcnəbiyə könül verməkdən, imanı, müqaviməti və birliyi buraxmaqdan danışdığını görsəniz, bilin ki, düşmənin dili ilə danışır; istər bilsin, istər bilməsin. Bu meyar bizə hər yerdə lazımdır ki, harada və necə yaşadığımızı bilək, mühitimizi və zamanımızı tanıyaq.[1]

[1] Şəhid ailələri ilə görüşdə çıxışından: 2005.

## İyirmi üçüncü fəsil: Xalqa ümid vermək

### Xalqın quruluşun gələcəyinə ümidvarlığı

Tövsiyə edirəm ki, xalqı quruluşun gələcəyinə, vəziyyətlərinin yaxşılaşacağına ümidvar və onlara qarşı xeyirxah olduğunuza əmin edin; xalq ölkə məmurlarının onlara qarşı xeyirxah olduğunu və onların problemlərini dərk etdiklərini hiss etməlidir.[1]

### Ümid işığını söndürmək üçün düşmənin səyi

Bu gün düşmən səyinin bir qismi bizim xalqımızın qəlbində olan ümid işığını söndürməyə, onları ölkənin vəziyyətinə, vəzifəli şəxslərə və məmurlara qarşı bədbin etməyə sərf olunur. Düşmənlərin xalqla hökumət arasında yaratmağa çalışdıqları məsafə elə bir şeydir ki, Allah eləməmiş, baş tutsa, ölkəyə və inqilaba zərbə vurmaq üçün onların və daxildəki əskik, riyakar və xəbis tərəfdarlarının əli açılacaq. Bu, düşmənin həmişəki məqsədi olub, indi də belədir. Odur ki, mərhum və əzəmətli imamın həmişəki təkidi bu idi ki, xalqla məmurlar arasında əlaqə möhkəmlənsin.[2]

### Mömin ümidli və şaddır!

Mömin və Bəsic üzvü məqsədli olduğundan və nə iş gördüyünü bildiyindən həm ümidvar, həm də şaddır. Bəsic şad bir qüvvədir. Nə üçün? Çünki ümidlidir. Bir gəncin qadağalarla və bəyənilməz işlərlə məşğul olması, dəyərsiz fiziki ləzzətlərə qərq olması və həyatının bəzi anlarında yalançı sevinc duyması mümkündür. Lakin bu, ötəridir. Öz istedadını, varlığını və vücudunu fəsada tapşıran gənc uca bir məqsədə sahib ola bilməz. Əgər gənc uca məqsədə sahib olsa, o məqsəd özünü fəsadların və bəyənilməz işlərin bataqlığına düçar etməyə mane olar. Məqsədi olmayan şəxs gələcək üfüqlərə və öz varlığına diqqət yetirdiyi hər bir an, yalançı və ötəri ləzzətə malik olsa da, qəmgin olur. Lakin imanlı və ayıq gənc nə üçün nəfəs çəkib yaşadığını bilir, ədalətsizlik və namərdliklə

---

[1] Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2003.

[2] Bəsic komandirlərinin ümumrespublika toplantısına müraciətdən: 1990.

dolu olan bu dünyanın ədalət təşnəsi olub, bir quruluşun, fəlsəfənin və məntiqin ona gələcəyi müjdə verməsini gözlədiyini bilir. Bu gün dünyada o güclü məntiq, dərin fəlsəfə və xilasedici amil aydın İslam təfəkküründən başqa bir şey deyil; təbii ki, söhbət inqilabçı İslamdan gedir, dünyanın o tərəf-bu tərəfindəki zalım qüvvələrdən asılı İslamdan yox.[1]

**Mehdiyə etiqad - əzəmətli bir xəzinə**

Mehdiyə, zühur, fərəc və intizar məsələlərinə etiqad çox möhtəşəm xəzinədir və xalqlar ondan çox bəhrələnə bilərlər. Siz təlatümlü bir dənizdə bir gəmini təsəvvür edin. Əgər bu gəmidə olanlar hər tərəflərində min kilometrlərlə heç bir sahilin mövcud olmadığına inansalar, su, çörək və hərəkət vasitələri də az olsa, nə edərlər?! Onlar hərəkət edər və gəmini sürərlərmi?! Xeyr, çünki ölümlərinin qaçılmaz olduğunu düşünürlər. İnsanın ölümü qaçılmaz olduqda daha nə etsin və hansı fəaliyyəti göstərsin?! Ümid və üfüq yoxdur.

...Bəşəriyyət tarix boyu ictimai həyatda təlatümə düşmüş bir gəminin sərnişinləri kimi həmişə hakimlər, zülmkarlar, güclülər və istismarçılar tərəfindən yaradılan problemlərə düçar olmuşlar. Ümid səbəb olur ki, insan mübarizəyə başlasın, yolu açsın və irəliləsin. Sizə "intizarda olun" dedikdə mənası odur ki, bu gün sizi incidən, ürəyinizi ağrıdan bu vəziyyət əbədi deyil və bitəcək. Belə olduqda görün insan nə qədər enerji və ümid əldə edir! İmam Mehdiyə (ə), vəd olunmuş Mehdiyə (ə) etiqadın rolu budur. Bu, şiəni bu günə qədər yolunda olan bütün qəribə dolanbaclardan keçirmiş etiqaddır. Bu gün Allaha şükür olsun ki, İslam və Quranın izzət və ucalıq bayrağı siz müsəlman xalqın əlindədir. Harada belə bir etiqad varsa, ümid və mübarizə də vardır.[2]

---

[1] Bəsic üzvləri və Mühafizəçilər Korpusunun şəxsi heyəti ilə görüşdə çıxışından: 2001.

[2] 15 Şaban (İmam Mehdinin (ə) doğum günü) bayramında ümumi görüşdə çıxışından: 1996.

## İyirmi dördüncü fəsil: Xalqın iştirakı

### Xalqın iştirakının zəruriliyi

Biz inqilabın əvvəlindən bir qayda olaraq xalqın iştirakı üzərində təkid göstərdik. İmam dəfələrlə xalqın iştirakı barədə tövsiyə edir və danışırdı. O günlər xalqı təxminən müxtəlif sahələrdən uzaqlaşdıran bir təfəkkür də mövcud idi. Sonra da Allahın lütfü ilə hamı bu nəticəyə gəldi ki, xeyr, xalq ölkənin müxtəlif məsələlərində - istər iqtisadi məsələlərdə, istər digər sahələrdə (Allaha şükür olsun ki, siyasi məsələlərdə rolu var) iştirak və müdaxilə etsinlər. Bu gün də belədir, belə də olmalıdır.

Bu həm də bir qaydadır ki, xalq hökumətin işlərində şərik, həmkar və icraçı olmalıdır. Lakin burada əsaslı məqam odur ki, xalqın dəxalət növü onun bəzi təbəqələrinin, yaxud xalqın arasındakı bəzi "qoçaq" adamların böyük və zəhmətsiz qazanclar götürməsinə, xalqın digər bir qrupunun isə zəruri məişət ehtiyaclarına möhtac qalmasına səbəb olmasın; yəni əsaslı məsələ olan ictimai ədalət və müxtəlif sahələrdə bütün təbəqələrə qayğı məsələsi diqqət mərkəzində olsun.[1]

### Xalqa arxalanmaq və xalqla əlaqə

İslam cəmiyyətini idarə edən hakim qurum xalqa arxalanır, xalqdandır, xalqın yanındadır, tamamilə xalqa birləşmişdir və ayrı deyil.[2]

Xalqla əlaqə ilə xarici güclərlə əlaqə və onlara sığınmaq arasında tərs mütənasiblik mövcuddur: hansı hökumətin öz xalqı ilə əlaqəsi səmimi olsa, xarici güclərə etinasız olar, onlara baxmaz, arxalanmaz, sözlərinə məhəl qoymaz, əmrlərinə qulaq asmaz və onların yanına getməz. Lakin öz xalqı ilə əlaqəsi olmayan hər bir hökumət böyük güclərlə isinişir, onların qucağına sığınır, onlara arxalanır və təbii ki, onların sözünü eşidir və əmrlərini icra edir. O tərəfdən də belədir: hansı hökumət xarici qüvvələrə yaxınlaşırsa, öz xalqından uzaqlaşır və hansı hökumət qlobal

---

[1] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından:.
[2] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından.

supergüclərdən uzaqlaşırsa, öz xalqının qəlbində yer açır. Bu, dünyanın bugünkü siyasi bilgilərində aydın məsələdir.[1]

**Hadisələrdən və xalqdan uzaq olmanın nəticəsi**

Hakimiyyət qurumlarında, istər mənim vəzifəmdə, istər digər vəzifələrdə çalışan şəxslərin həqiqətlərdən və xalqdan uzaqlaşması tənəzzül amilidir. Düşünürəm ki, bir məmur cəmiyyətin hadisələrindən və onda baş verənlərdən uzaq qalmamalıdır.[2]

Xalqa məhəbbət və etimad reallıqları səmimi və düzgün bəyan etməklə hasil olur.[3]

**Xalqa sevgi və xalqla əlaqə qarşılıqlı bir məsələdir!**

Ölkənin vəzifəli şəxsləri olan sizlərə demək istədiyim budur ki, mənim əzizlərim, harada çalışsanız, bunun qədrini bilin, bunu saxlayın və qoruyun. Biz bunu qorumalıyıq. Xalqın etimadı və sevgisi birtərəfli hərəkət deyil ki, xalq kiməsə məhəbbət göstərib könül versə, nə iş görsə də, bunlar məhəbbət göstərəcəklər. Xeyr, belə deyil. Xalqın sevgi və əlaqəsi ikitərəfli bir məsələdir. Gərək bütün səviyyələrdə çalışan məmurlar tərəfindən xalqa cavab verilsin; əlbəttə, bu cavabın növləri və sahələri var. Xalq üçün iş görülməlidir.[4]

**Hamı Bəsic üzvü olmalıdır!**

Kimsə düşünməsin ki, Bəsic kənar bir qüvvədir; xalq, hökumət və dövlət bir yolla gedirlər, Bəsic də kənarda oturub öz işi ilə məşğuldur. Xeyr, Bəsic quruluşun hərəkətinin içindədir. Hamı Bəsic üzvü olmalıdır. Hökumət və məmurlar da Bəsic üzvü olmalıdırlar... Bəsic üzvü İslam dəyərlərinə əhəmiyyət göstərən, Allaha etiqadlı olan, Aləmlərin Rəbbi qarşısında kiçilən və təzim göstərən şəxsdir, ürəkdə yaxşılığa müştaqdır,

---

[1] Bəsic komandirləri ilə görüşdə çıxışından: 1995.

[2] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2001.

[3] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından:

[4] Qədir-Xum bayramı münasibəti ilə quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 1997.

yaxşı və pak olmaq, əxlaqi qəbahətlərdən uzaq durmaq, özünün Allahla ünsiyyətini günbəgün artırmaq, Onun bəndəsi olmaq, Onun fərmanına uyğun yaşamaq istəyir. Bəsic üzvü bu yolu səadət yolu bilir. O, səadəti həyatın ötəri ehtiraslarında, əlvan və rəngli paltarlar geyinməkdə və nəfsini bir saatlıq doyurmaqdan ötrü onun-bunun qarşısına çıxmaqda bilmir. Onun ruhu belə kiçik və dəyərsiz işlərlə doymur. Onun ruhu ilahi mərifətlə doyur.[1]

[1] Bəsic komandirləri ilə görüşdə çıxışından: 1995.

## İyirmi beşinci fəsil: Ölkə (Daxili İşlər) Nazirliyi

**Vali - vilayətdə quruluşun nümayəndəsi**

Vilayətdə olan sizlər prezidentin, nazirin və quruluşun nümayəndələrisiniz. Əgər quruluş hamı üçündürsə, siz də hamı üçün olmalısınız. Əgər quruluş məhrumların quruluşudursa, bu sizin əməlinizdə, sözünüzdə və rəftarınızda özünü göstərməlidir. Əgər quruluş dəbdəbə və israfçılıqdan çəkinmək quruluşudursa, bu xüsusiyyət sizin həyatınızda görünməlidir. Siz quruluşun vilayətdəki görüntüsüsünüz. Bu, vilayətin sahə, əhalinin və get-gəl edənlərin sayı və insanların keyfiyyəti baxımından necə vilayət olmasından asılıdır. Allaha şükür olsun ki, bizim ölkəmizin bütün vilayətləri mənəviyyat və keyfiyyət baxımından yüksək səviyyədə və zirvəyə yaxın yerdədirlər. Vilayətin hər yerində belə olmasa da, ölkəmizdə keyfiyyət belə bölünmüşdür. Ölkənin ən ucqar nöqtələrinə də baxsanız, Allahın lütfü ilə keyfiyyətli insanlar tapılar. Demək olmaz ki, bütün keyfiyyətli insanlar xüsusi bir vilayətdə, Tehranda və ya böyük şəhərlərdə mərkəzləşmişlər.

Buna əsasən, birinci məsələ budur ki, vali xalqda, quruluşun məsul şəxsləri olan məndə və sizdə inqilab, İslam Respublikası quruluşu və İslam haqda yaranmış zehniyyəti öz əməlində, rəftarında, işində, yaşayış yerində, məişət tərzndə, davranışında, tərəfdarlığında və mövqe seçimində göstərsin. Şübhəsiz, əgər vali bir şəhərdə əhalinin könlünü ala bilməsə, quruluş o vilayətdə uca tutula bilməz. Əlbəttə, bəziləri deyə bilərlər ki, vali belə etsə, xalq bu valiyə pis münasibət bəsləyər, lakin quruluşdan dönməz, yaxud yüksək rütbəli məmurları sevər. Bəli, qısa müddət üçün belədir, lakin uzun müddət üçün əsla belə deyil. Təhlil məsələsi meydana çıxdıqda, vali barədə təhlil fürsəti yarandıqda o, quruluşun nümayəndəsi olur, işinin keyfiyyəti quruluşun keyfiyyətinin göstəricisinə çevrilir.[1]

**Vali bir vilayətdə ata rolunu oynayır!**

---

[1] Ölkə Nazirliyinin məsul şəxsləri və valilərlə görüşdə çıxışından: 1990.

Təyin olunduqları mərkəzə getmək üçün mənim yanıma gələn, yaxud iş əsnasında mənimlə görüşən bu cənablara və valilərə həmişə xatırlatdığım və indi də sizə - hərçənd sizin aranızda buna yetərincə əməl edənlər var - demək istədiyim başqa bir məqam budur ki, vali bir vilayətdə ata rolunu oynayır. Əlbəttə, sizin bəziləriniz çox gəncsiniz və hansısa alim qocanın atası olmaq görkəminizə yaraşmır, lakin həqiqət budur ki, atasınız. Vali ata kimi rəftar etməli, xüsusən də müxtəlif cinah və təbəqələrə eyni gözlə baxmalıdır. Şübhəsiz, hamı sizinlə eyni rəftar etməyəcək. Şübhəsiz, bəziləri beyinlərində olan təsəvvürə və misal üçün, cəhalət və tələbkarlıqlara görə razılıq, yaxud etirazda sərtlik göstərəcəklər. Lakin siz bir ata kimi rəftar etməlisiniz.[1]

**Ölkə Nazirliyi ana nazirlikdir!**

Valilik çətin işdir, validən gözləntilər çoxdur. Ölkə məsələləri ilə tanışam və bilirəm ki, bu iş nə qədər çətin və zərifdir, ağla, dinə və yaxşı idarəçiliyə ehtiyaclıdır.

Yaxşı vali... ağıllı, dindar, yaxşı üsullu və idarəçilik işində incəliyə malik şəxsdir. Valilik bircəhətli idarəçiliklərdən deyil. Siz bir vilayətdə misal üçün, İqtisadiyyat, yaxud Əmək, yaxud Sənaye nazirliyinin Baş müdiri ola bilərdiniz. Bunların hamısı bircəhətli işlərdir. Baxmayaq ki, indi hər bir ictimai iş çoxcəhətlidir, lakin sizin işinizə nisbətən bircəhətli olur. Sizin işiniz birinci növbədə insani və siyasi bir işdir və bu elə bir şeydir ki, doğrudan da çox incəlik, çoxlu ağıl və ixlaslı din tələb edir.

Ölkə Nazirliyindən gözləntimiz budur ki, onda bu şərtlər çox olsun və məncə Allahın lütfü ilə belədir... Eyni zamanda Ölkə Nazirliyi ana nazirlikdir; başqa heç bir dövlət orqanı onun qədər universal və əhatəli deyil.[2]

---

[1] Yenə orada.

[2] Yenə orada.

## İyirmi altıncı fəsil: Mədəniyyət

### Mədəni iş və onun əhəmiyyəti

Mədəni iş və onun əhəmiyyəti barədə nə deyilsə, deyilənlərin təkrarıdır və bir məsələdən artıq deyil. O da inqilabın sözü və qəti İslam prinsiplərindən biri olan çatdırmaq prinsipidir. Təbliğ - çatdırmaqdır: "Allahın risalətini çatdıranlar"; yəni pərdələri və maneələri qət etmək və haqq sözü lazım olan yerə çatdırmaq. Nə deyilsə, bu bir məsələnin ətrafında deyilmişdir. Bu sahədə hər şey, yaxud çox sözlər deyilmiş və yazılmışdır.

Mənim deyə biləcəyim budur ki, siz gözlənilən vəziyyəti İslam Respublikasının real vəziyyəti ilə müqayisə edin. Bu müqayisənin nəticəsi bizi yeni üsullara və görülməmiş işlərə, yaxud görülmüş işləri düzəltməyə yönəldəcək. Burada yenidən baxış, özünə baxış və nəfsin dəyərləndirilməsi lazımdır.

Çatışmazlıqlara diqqətlə və güzəştsiz baxmalı, işimizdə hansı nöqsanın olduğunu görməliyik. Təbliğat işində paralel xətlərin olması və vahid mərkəzin olmaması təsirli olmuşdurmu? Məsul şəxslərin işi bilməməsi təsirli olmuşdurmu? İşin dayandığı ölkədə işlə birbaşa məşğul olan qurumlar arasında ziddiyyət təsirli olmuşdurmu? Prioritetləri düzgün tanımamaq təsirli olmuşdurmu? Üçüncü dərəcəli işi birinci dərəcəli, birinci dərəcəli işi üçüncü dərəcəli etmək və sıraya riayət etməmək təsirli olmuşdurmu? Maliyyə imkanları və çatışmazlıqlar təsirli olmuşdurmu? Düşmənlər və onların qlobal hegemonizm tərəfindən himayə olunan fəal və imkanlı təbliğat orqanları təsirli olmuşdurmu? Bunların hamısı mümkündür.

Ən asan iş budur ki, bunların hamısının birgə təsirli olduğunu deyək. Bizim pul çatışmazlığımız olub, kadr çatışmazlığımız olub. İndi bizim digər ölkələrdə olan bu qədər nümayəndələrimizin sayı lazım olan qədər deyil, lazım olan bir neçə dəfə artıqdır. İnsani, maddi və texniki imkanlarda da çatışmazlığımız var. Biz bir mühasib və mütəfəkkir beyin kimi oturub bir cədvəl düzəltməli və bu çatışmazlıqları cədvələ

yerləşdirməliyik. Sonra görək hansı bizim imkanlarımızdan xaricdir və hansı imkanlarımız çərçivəsindədir. Bizim imkanlarımız çərçivəsində olanlarda iradə göstərək və o problemləri aradan qaldıraq. İşdə səhlənkarlıq olmaz![1]

**Milli iqtidar elm və əxlaqla təmin olunur!**

Milli iqtidarı təmin etməliyik. Milli iqtidar nə ilə təmin olunur? Elm və əxlaqla. Elm haqqında çox söhbət etmişik. Bu məclisdə əxlaq barədə söhbət edəcəyik. Əxlaqda biz aşağı qiymət almamalıyıq. Bizim Peyğəmbərimiz (s) əxlaq müəllimidir. Mənəvi saflıq və əxlaqın təkmilləşdirilməsi bayrağını Peyğəmbər (s) ucaltmış və onun risaləti elan etmişdir. Biz əxlaqda geri qalmamalıyıq. İctimai rəftarlar, qayda-qanun, işdə vicdanlılıq, qanuna riayət və dindarlıq ruhu - bəzi insafsız adamlar bizim gənclərimizin dindarlıq ruhunu təhlükəyə salır, məzmunsuz, məntiqsiz sözlər və azadlıq adı altında qarət edirlər - iqtidarın təməllərindəndir.

Mövcud imkan və potensialları da unutmamalıyıq. Milli iqtidarın təməllərindən biri budur ki, ölkə məmurları və əhali bu yolları keçəcəklərinə və bu işləri görəcəklərinə inansınlar, özlərini aciz, əl-ayaqsız və çıxılmaz mühitdə hiss etməsinlər. Bunu xalqa verməliyik. Bu bizim vəzifələrimizdən, hökumətin görməli olduğu işlərdəndir. Milli iqtidarın amilləri hökumətə aid olan və hökumət orqanlarının görməli olduğu işlərdəndir. Sözsüz ki, qüdrət xəyalında olmamalı, bacarmadığımızı özümüz üçün xəyal etməməli, həqiqi qüdrətimizi də yaddan çıxarmamalıyıq.[2]

**Mədəni iş və büdcə məsələsi**

Mədəni işdə pul və büdcə məsələsi əsas problem sayılmamalıdır. Belə ki, mədəni problem və nöqsanları büdcə siyahısının sonlarında yerləşdirməməliyik. Əgər birinci sırada olmasa da, siyahının əvvəllərində

---

[1] İslam Respublikasının xarici ölkələrdəki mədəni nümayəndələri ilə görüşdə çıxışından: 1991.

[2] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2005.

yerləşdirməliyik. Əgər düzgün fikirləşsək, bu, məmləkətin iqtisadiyyatının da xeyrinədir. Yəni büdcə və imkanları daha çox mədəni işlərə - xüsusən də təhsil mədəniyyətinə yönəltsək, ölkə ziyan çəkməz. Çünki bunun özü ölkənin gələcəyi üçün əlavə imkanlar yaradır.[1]

**Xalqın mənəvi və əxlaqi geriliyi qarşısında məmurların cavabdehliyi**

Bizim bütün vəzifələrimiz iqtisadi və siyasi vəzifələrlə məhdudlaşmır. Biz xalqın mənəviyyatı üçün də məsuliyyət daşıyırıq. Əgər xalq mənəvi və əxlaqi baxımdan geridə olsa, deyə bilmərik ki, bunun üçün cəmiyyətdə heç kim məsuliyyət daşımır. Əgər kimsə məsuliyyət daşıyırsa, o kimdir? Şübhəsiz, ölkə məmurları özlərini kənara çəkə bilməzlər; hər biri bir növ və bir yolla məsuliyyət daşıyırlar. Deməli, xalqın mənəviyyatının məsuliyyəti də yuxarıdan aşağıya qədər müxtəlif səviyyələrdə çalışan ölkə məmurlarının üzərinə düşür.[2]

**Nazirliklərdə hizbullahçı şəraitin hakim olması**

Mənim sözüm budur ki, nazirlikdə hizbullahçı ab-hava hakim edin. Təşkilatın taleyinə dindar adamlar hakim olmalıdırlar. Əlbəttə, insan müxtəlif səviyyələrdə bir şey bilən, özləri də bizimlə bir əqidədə olmayan və hətta bunu söyləyən bütün şəxslərdən istifadə edə bilər; eybi yoxdur. Mən ölkənin müxtəlif sahələrində elə yerlər tanıyıram ki, orada işləyən - əlbəttə, aşağı səviyyələrdə, yaxud bir mütəxəssis ekspert səviyyəsində - müdirin bizim inqilabımızın yoluna inamı da yoxdur. Amma özü bu idarəçilikdə xidmət göstərir; təşkialata, nazirliyə, yaxud idarəyə girib xidmət göstərir və işləyir. Bu formada insanların xidmətlərindən istifadə edə bilərsiniz. Lakin təyinedici olanlar, yolu müəyyən edənlər, xüsusən də idarəçiliyin yuxarı səviyyələrində, eləcə də istiqamət verən ekspertlər inqilabi ruhiyyəli şəxslər olmalıdırlar.[3]

---

[1] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1989.
[2] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 1989.
[3] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından:: 1993.

**Qalib xalq mədəniyyəti qalib olandır!**

Mədəniyyət sahəsində ölkənin ümumi siyasəti milli mədəniyyəti qorumaqdan, önə çəkməkdən, ona güclü və kamil bağlılıqdan ibarət olmalıdır. Əlbəttə, milli mədəniyyətin ən mühüm sütunlarından biri İslamdır. Biz İran xalqı fəxr edirik ki, mədəniyyətimiz, dilimiz, adət-ənənələrimiz, geyimimiz və hər şeyimiz 1350 il öncədən İslamla qarışmışdır. Bəlkə də başqa heç bir millət İslamla bu şəkildə qarışmamışdır. İslam dini, onun mədəniyyət və ənənələri bizim milli mədəniyyətimizdəndir. Burada "milli" sözü İslamın qarşılığında deyilmir, elə İslamın özüdür.

Milli mədəniyyət doğma mədəniyyət deməkdir. Doğma mədəniyyət qorunmalıdır. Sözsüz ki, doğma mədəniyyət digər mədəniyyətlərdən borc da götürür; eybi yoxdur: "Çində olsa belə, elmi öyrənin". Bu da mədəniyyətdir. Gedib dünyanın hər hansı bir yerindən yaxşı şeyi gətirmək işi də bizim mədəniyyətimizdəndir. Bunu da qorumalıyıq. Lakin biz bədənimizə lazım olanı çeynəməli və udmalıyıq; yıxılıb qalmamalıyıq ki, ölü və huşsuz bir adam kimi başqa birisi gəlib özü məsləhət bildiyini bizim bədənimizə köçürsün. İslam Respublikası quruluşunun siyasətinin təməli olan bu müstəqillik siyasəti və bu mədəniyyət bizim əsas şüarımızdır. Hər cəhətdən tam müstəqillik - heç kəsin hegemonluğuna və zorakılığına dözməmək, beynəlxalq məsələləri öz meyarlarına uyğun həll etmək və onun yolunu qət etmək deməkdir.[1]

**Mədəni qələbə - bütün işlərdə qələbənin amili**

Biz ölkə tədqiqatçılarında və yaxud idarələrdə bu ruhiyyəni necə canlandıra bilərik? İdarə işinin iqtisadi inkişafla birbaşa əlaqəsi var. Əgər siz iqtisadi bir layihəni səhv, biçimsiz, işçi vicdanından, savaddan uzaq və işin keyfiyyətindən xəbərsiz bir idarəyə versəniz, onu korlayar və axıra çatdırmaz. Biz işçi vicdanını və ayıqlığı öz nəhəng idarə və qurumlarımıza necə köçürə bilərik? Yaxud zavodlarda fəal iş mühitləri yaratmaqda "işi möhkəm şəkildə görən insana Allah rəhm etsin!" - deyən İslamın

---

[1] Höccətül-İslam Haşimi Rəfsəncaninin prezidentlik hökmünün təsdiqi mərasimində çıxışından: 1993.

tövsiyəsini necə həyata keçirə, işdə möhkəmliyi, sağlamlığı və istehsal kamilliyini fəhləyə necə köçürə bilərik ki, avtomobilimiz zavoddan çıxanda, misal üçün, bir aydan sonra qapısı laxlamasın, hansısa boltu açılmasın; çünki dünyanın filan ölkəsinin istehsalı belə deyil. Yaxud nə edək ki, bu insan işdən qaçmasın; çünki digərləri işə həvəslidirlər və daha çox çalışırlar. Biz işə həvəsi, işdə ciddiliyi, vicdanlılığı, intizamı və işin sağlamlığını öz iqtisadi inkişaf layihələrimizə necə sala bilərik? Bu, cəmiyyətin ümumi mədəniyyətini yüksəltmədən, onlara işçi mədəniyyəti, işdə vicdan və işə dair məlumatları köçürmədən mümkündürmü?! Görürsünüz ki, bu da mədəniyyətə qayıtdı.[1]

**Xalqın istəyi əxlaqi dəyərlər istiqamətində olmalıdır!**

Düzgün təlim-tərbiyə ilə və xalqı fəzilət çeşmələrinə yönəltməklə onun istəyinin əxlaqi dəyərlər istiqamətində olması, bəzən xalqın rəyi və istəyi kimi ortaya qoyulan fəsadçı həvəslərin onların seçim üfüqündən uzaqlaşması üçün bir iş görülməlidir. Xalqın hidayətinin mənası budur. Görürsünüz ki, bu gün Qərb demokratiyalarının çoxunda ən çirkin cinsi və digər fəsadlar xalqın istəyi olaraq qanuni rəng alır, rəsmiləşir, onların yayılmasına kömək olunur. Bu, mənəvi amilin və iman hidayətinin yoxluğunu göstərir. İslam quruluşunda - yəni dini demokratiyada xalq seçir, qərar verir, özünün seçdiyi şəxslər vasitəsi ilə ölkənin taleyini ələ alır. Lakin bu istək, seçim və iradə ilahi hidayət sayəsində heç zaman məsləhət və qurtuluş yolundan yayınmır, düzgün yoldan xaric olmur. Dini demokratiyada əsas məqam budur. Bu, İslam inqilabının İran xalqına hədiyyəsidir. Bu yeni və gənc təcrübədir, lakin ürəkləri dəyərlər üçün, pak və təmiz insan cəmiyyəti üçün döyünən, əxlaqi qəbahətlərin, cinayətlərin və çirkin bəşəri xarakterlərin yayılmasından əziyyət çəkən hər kəs üçün diqqətəlayiqdir.[2]

**Doğmaların inqilab barədə sözləri toplanmalıdır!**

---

[1] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1990.

[2] Höccətül-İslam Xatəminin prezidentlik hökmünün təsdiqi mərasimində çıxışından: 2001.

Həqiqətən etiraf etməliyik ki, inqilabın təhlili və izahı ilə düşmənlər bizdən artıq məşğul olmuşlar. Bu təhlil və izahda onların məqsədi inqilabın sözünü dəyişdirmək, xalqın öz əli ilə və öz gözü önündə baş verən həqiqəti yanlış göstərməkdir. Buna əsasən, doğmaların inqilab barədə dediyi sözlər toplanmalı, yazılmalı və onların üzərində düzgün elmi-mədəni işlər görülməlidir. İndiyədək belə bir iş görülməyib və görülmüşdürsə də, az görülmüşdür. Hər halda, bu iş görülməlidir. Lakin görülməməsi də bizim gənclərimizin həqiqətləri anlamasına mane olmamalıdır. Gənclər son 15 ildə inqilab böyükləri tərəfindən inqilaba dair deyilən sözləri eşitməli və onların barəsində düşünməlidirlər.[1]

**Mənfi mədəni iş**

Mən öz zehnimdə mənfi mədəni işi - yəni bizim meyarlarımıza görə pis olanı üç qismə bölürəm: Bir qismi bizim fikrimizcə səhv olan bir məntiqi, yaxud sözü bəyan edən yazı və ya kitabdır. Bir fikir, təklif, nəzərdir və hər bir sahədə də mümkündür. Lakin onun sahibi öz müxalif nəzərini yalnız ortaya qoymaq fikrindədir və arxasında heç bir məqsəd dayanmır. Bizim fikrimizcə, cəmiyyətdə belə bir müxalif və səhv fikri irəli sürmək faydalıdır, olması yaxşıdır. Çünki səhv düşüncə ortaya qoyulmasa, düzgün düşüncə pöhrə verməz. Bu məntiqlidir və biz istəyirik ki, sahibinin fikrincə düzgün, lakin bizim fikrimizcə səhv olan söz deyilsin, müxtəlif yerlərdə də yayılsın. Necə ki, məsələn, fiqh, yaxud fəlsəfə dünyasında - bizim işlədiyimiz sahədə, yəni İslam fəlsəfəsində və digər elmi mövzularda bəzi adamlar başqa bir dəstənin fikrincə səhv olan düşüncələri yazırlar. Onlar da buna cavab yazırlar və nəticədə mövzu inkişaf edir, böyüyür, zehinlər güclənir, söz və elm inkişaf edir.

Səhv olan ikinci iş budur ki, onun məqsədi sırf elmi bir söz, yaxud fəlsəfi, ictimai və ya siyasi nəzər irəli sürmək deyil, təxribat layihəsinin bir hissəsidir. Bunu yaymaq da zərərlidir. Düşmən mədəni vasitələrlə ölkəyə, cəmiyyətə və quruluşa hücum etmək istədikdə bəzi şeyləri hədəf seçir. Mənim fikrimcə, bu gün ölkəmizdə belə şeylər var; həm kitab dünyasında var, həm mətbuat, həm də sənət dünyasında. Əlbəttə, biz bu səhv fikrin,

[1] Tehranın cümə namazı xütbələrindən: 1995.

səhv layihənin, yaxud qeyri-düzgün sözün bir təhlükəsizlik və təxribat layihəsi çərçivəsində olduğunu deyirik, amma onun sahibi nə iş gördüyünü əsla bilməyə də bilər. Bunun mənası o deyil ki, onun özü də həmin pozuculuq layihəsinə şərikdir. Xeyr, bəzən onun əsla rolu olmur, lakin düşmən ondan istifadə edir. Burada bir xeyirxah insan onun sözündən və ya işindən pozuculuq planının bir hissəsi kimi istifadə olunduğunu gördükdə, əgər özü bu pozuculuğa meylli olmasa, cəld geriyə çəkilər. Qaydası budur; əgər geriyə çəkilməsə, deməli, o da şərikdir. Bu, səhv düşüncələrin ikinci qismidir.

Üçüncü qisim təsiri bir anlıq olan və cavab verilməsi mümkün olmayan mədəni işdir. Misal üçün, bir cəmiyyətdə pozğun cinsi şəkilləri geniş formada gənclər arasında yaysınlar. Siz buna necə cavab vermək istəyirsiniz? Ümumiyyətlə cavab veriləsidir?! Bu ümumiyyətlə cavab veriləsi deyil. Bir sənət əsəri, yazı və ya şəkil əxlaqi cəhətdən pozucu təsirə malik olduqda, cavab vermək mümkün olmur.[1]

**Mədəni məsələlərdə təsir altına düşməkdən çəkinmək**

Bu gün istismarçılar bütün dünyada, hər bir yerə münasib şəkildə mədəni istismarçılıq edirlər. Bir nümunəsi peyk antenləridir. İndi görürəm ki, yenə də peyk antenləri mövzusunu ortaya atıblar. Bu məntiq düz deyil ki, biz beş ildən sonra peyk texnologiyasının inkişaf edəcəyinə və xalqın boşqabsız da peyk kanallarını tuta biləcəyinə görə indidən onun qarşısını almayaq. Bu məntiq düzgün deyil. Bu məntiqi ortaya qoyan şəxs deməlidir ki, onun qarşısını almaq üçün hansı yeni işi görmək lazımdır. Bu məntiq və əsaslandırmanın belə nəticəsi olmalıdır. Düşmən texnologiyanı inkişaf etdirir, qarşılığında siz də düşünməlisiniz ki, peyk texnologiyasının inkişafından sonra onun qarşısını almaq üçün hansı işləri görə bilərsiniz. Lakin düşmən inkişaf edir deyə bizim onun qarşısındakı hər bir maneəni götürməli olmağımız kimi əsaslandırma məntiqli deyil. Bu maneə hələlik maneədir. Sanki düşmən bizim sərhədlərimizə qədər gəlib, biz deyək ki, iki saatdan artıq müqavimət göstərə bilməyəcəyimizə görə, elə indidən gedək? Xeyr, cənab, bu iki saatı müqavimət göstərin, bəlkə qalib gəldiniz. Bu nə

---

[1] Kitab sərgisində iştirak edən naşirlərlə görüşdə çıxışından: 1999.

sözdür?! İslam Şurası Məclisinin bir neçə il öncə peyk antenlərinə dair çıxardığı qadağa qərarı çox düzgün və yerində verilmiş bir qərar idi. Ən azı budur ki, siz bir neçə il bu nüfuzu gecikdirə bilərsiniz və inşallah yenə də bacaracaqsınız.

Siz paralel olaraq profilaktik tədbirlər görün, gəncləri, beyinləri, ürəkləri qoruyun ki, bir gün düşmən nüfuz edə bilsə, öncədən mühafizə yaratmış olasınız. Yolu budur. Düşmənin hücumuna qarşı belə tədbir görmək lazımdır. Biz bu müqavimət, direniş ruhiyyəsi ilə qlobal hegemonizm və ABŞ kimi bir gücü iyirmi il qapı arxasında saxlaya bilmişik və yenə də saxlaya biləcəyik. Xalqımız güclüdür və bu müqavimət iman müqavimətidir. Bu müqavimət dindən, İslamdan və imandan qaynaqlanır; harada olsa, düşmənin uğursuzluğuna bais olur. Biz bunu qorumalı və gücləndirməliyik. Biz dini, gənclərin imanını, fəsaddan çəkinməni gücləndirməliyik. Düzgün iş, düzgün yol budur. Və siz əziz naşirlər bundan ötrü məsuliyyət daşıyırsınız.[1]

**Günahın azadlığına müxalifik!**

Təbii ki, biz bəzi azadlıqlara müxalifik. Məgər kiminsə buna şübhəsi var?! Biz bəzi azadlıqlara müxalifik. Biz cinsi azadlıqlara müxalifik, günahın azadlığına müxalifik və bu, xalqı bu səmtə sövq edən bir işdir. İndinin özündə bizim kitablarımızda var; indi nəşr olunan kitablarda var. Əgər qeyri-düzgün bir əsərin adının təkrarlanmasından qorxmasaydım, adını deyərdim. Gəncləri incəsənət üsulları ilə açıq şəkildə günaha sövq edən kitab var. Bu elmi bir məsələ deyil ki, nəşrinə icazə verək, deyək biz də cavabını nəşr edərik. Bunun cavabı yoxdur.[2]

**Fəsadçı mətbuata qarşı tədbirin zəruriliyi**

Mən dəfələrlə dövlət məmurlarına demişəm və onlardan ciddi şəkildə istəmişəm ki, bu vəziyyətin qarşısını alsınlar. Bunun adı mətbuatı məhdudlaşdırmaq, azad informasiya ötürülməsinin qarşısını almaq deyil; informasiyanın sağlam ötürülməsini biz də təsdiq edirik. Bunun mənası

---

[1] Yenə orada.

[2] Yenə orada.

düşmənin təsirinin qarşısını almaqdır; düşmənin təxribatlı təbliğatının səmərəyə çatmasına mane olmaqdır. Mən belə təbliğat və mətbuatı ölkəyə, gənclərə, gələcəyə, inqilaba və xalqın imanına zərərli bilirəm. Bu cərəyan daim əsas İslam məsələlərinin müqəddəsliyini sındırmaq fikrindədir. İslam mövzularını sual altına salırlar, inqilabı sual altına salırlar; özü də məntiqi sözlə yox, bənzərini və oxşarını bəzi keçmiş dövrlərdə qeyri-sağlam mətbuatdan başqa bir yerdə tapmağın mümkün olmadığı çox səhv üsullarla.[1]

**Mədəni hücum yollarından biri**

Mədəni hücum mədəni işin özü kimi sakit və səssiz işdir. Mədəni hücumun yollarından biri mömin gəncləri imana təəssüblü bağlılıqlardan daşındırmaq olmuşdur. Bu isə bir mədəniyyəti saxlayan amillərdəndir. Onlar ötən əsrlərdə Andalusda bu işi gördülər; gəncləri fəsada, ehtiraslara, şərabxorluğa və bu kimi işlərə aludə etdilər.[2]

**İdarələr daxilində qadınların geyiminə diqqətin vacibliyi**

Mən idarələr daxilində kişi-qadın münasibətləri və qadınların geyimi barədə xüsusi təkid göstərmək istəyirəm. Bəziləri şikayət edirlər, gileylənirlər, şəhid ailələri və mömin qadınlar bizə şikayət edirlər, buraya zəng edirlər, məktub yazırlar, bizi görəndə dəfələrlə deyirlər ki, cəmiyyətimizin bəzi qadınlarının rəftarı müsəlman qadına münasib və yaraşan deyil. İdarələrdə çalışan qadınların geyim və rəftarını düzəltməklə bu məsələnin ümdə hissəsi həll olunar.[3]

**Yazılı medianın rolu üzərində həssaslıq**

Siz deyin görək xalqın mədəniyyətini, etiqadını, din təməllərini, xalqda inqilabçı, fədakar və şəhadət ruhunu zəifldən, özü də yalnız 1-2 və 5-10 ədəd olmayan filmlər qarşısında neçə film hazırlamısınız? Mən bu cəhətdən təhlükə hiss edirəm. Əlbəttə, əsaslı və uzunmüddətli iş budur ki,

---

[1] Tehran namazxanasında gənclərlə görüşdə çıxışından: 2000.
[2] Tehranın cümə namazı xütbələrindən: 1992.
[3] Yenə orada.

yaxşı olanı istehsal etməyi düşünək. Lakin yaxşı olanın meydana çıxmasına qədər mən qəbul edə bilmərəm ki, bu palçıq seli gəlib gənci, uşağı və müxtəlif təbəqələri boğsun. İnqilab təfəkkürü ilə mübarizədə düşməni sevindirən və düşmənin öyrətdiyi bütün üsullardan istifadə olunmalı, kimsə buna qarşı çıxsa da, cəld ittihama məruz qalmalıdır. Bu, azadlıq deyil. Bu, ağıldan deyil. Bu, ölkə idarəsi deyil. Siz mediaya nəzarət üçün məsuliyyət daşıyırsınız. Bu olduqca mühümdür. Xüsusən bizim indiki şəraitimizdə yazılı media qurumları və qəzetlərin rolu üzərində həssaslıq olduqca mühümdür.[1]

**Vəhy sözü mühüm məsələləri ehtiva edir!**

Bu gün dünyada əsaslı bir problem olan ailə məsələsi haradan qaynaqlanır? Qadın məsələsinə baxış tərzindən, yaxud qadın və kişi əlaqələrinə baxışdan qaynaqlanır. Nə üçün bəşər varlığının təbii və əsaslı bir orqanı olan ailə indi dünyada bu qədər böhran içindədir? Belə ki, bugünkü dırnaqarası sivil qərb dünyasında kiminsə hətta çox yumşaq şəkildə ailə təməlinin möhkəmləndirilməsinə dair bir sözü olsa, onu yaxşı qarşılayırlar; həm qadınlar yaxşı qarşılayır, həm kişilər, həm də uşaqlar. Əgər siz dünyadakı ailə məsələsinin bu cəhətini araşdırsanız, ailə məsələsində yaranmış böhranı düzgün və dəqiq araşdırsanız, görərsiniz ki, bu, iki cinsin münasibətlərinə, birgəyaşayışına və qarşılıqlı əlaqələrinə aid məsələlərin həll olunmamasından irəli gəlir. Başqa sözlə desək, baxış yanlışdır. İndi biz kişilərin hazırladığı düşüncə müstəvisindən deyirik ki, qadın məsələsinə baxış düzgün deyil. Ancaq demək olar ki, kişi məsələsinə baxış da düzgün deyil, fərqi yoxdur. Yaxud iki cinsiyyətin keyfiyyətinə, yəni onların yerləşməsinə baxış yanlışdır.

...Çarə budur ki, biz ilahi həll yolunu axtaraq və tapaq. Çünki qadın və kişi məsələsi barədə vəhy sözü mühüm məsələləri ehtiva edir. Görək vəhy bu barədə nə deyir. Vəhy təkcə moizə etməklə kifayətlənməmiş, örnək də göstərmişdir.[2]

---

[1] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2000.
[2] Qadınların Mədəni-İctimai Şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.

**Məscid - böyük təsirlərin mənşəyi**

Məscid təkcə bizim dövrümüzdə və təkcə bizim əziz İslam ölkəmizdə yox, dünyanın müxtəlif yerlərində və tarix boyu böyük təsirlərin və böyük İslam hərəkatlarının mənşəyi olmuşdur. Məsələn, Şimali Afrikanın müsəlman ölkələrinin - Əlcəzairin və uzun illər Fransanın hərbi müstəmləkəsi altında olan digər ölkələrin xalqlarının qiyamı məscidlərdən başlandı, qələbə çaldı və ölkələri müstəqil oldu.

...Müsəlman İranda bu mübarək inqilabın qələbə çalmasının və yaxud ən azı bu qələbənin asanlaşmasının amillərindən biri xalqın məscidlərə üz tutması idi. Gənclər məscidləri doldurdular. Böyük alimlər məscidlərdən təlim-tərbiyə, düşüncə və beyinləri işıqlandırmaq üçün bir mərkəz kimi istifadə etdilər. Məscid hərəkət, ayıqlıq, mübarizə və tağut rejiminin fəsadçı və satqın başçılarının sirlərinin ifşası mərkəzi oldu. Məşrutə dövründə də belə olmuşdur. Neft sənayesinin milliləşdirilməsi dövründə də müəyyən həddə belə idi. İnqilab dövründə isə bu məsələ ən yüksək həddə çatdı.

Xalqımız məscidlərin qədrini bilməli, onları elm, aydınlıq və milli müqavimətin bazası saymalıdırlar.

...Buna əsasən, məscid həm məktəbdir, həm universitetdir, həm fikir və düşüncə mərkəzidir, həm mənəvi saflıq yeridir, həm ixlas və bəndənin Allaha qovuşduğu məkandır, yer və göyün rabitəçisidir, insanın özünü tükənməz lütf və qüdrət mənbəyinə birləşdirdiyi yerdir; insan məsciddə özünü Allaha birləşdirir.

Odur ki, məscidlərin qədrini bilmək, məscidlərdə iştirak etmək lazımdır. Allaha şükür olsun ki, inqilabın sayəsində son illərdə bu iş çoxalmış və keyfiyyəti artmışdır.[1]

**Namaza, zikrə və müstəhəb işlərə əhəmiyyətli yanaşın!**

Bacardığınız qədər namazda diqqətli olmağa, zikrə və müstəhəb işlərə əhəmiyyətli yanaşın. Allah-Taala əziz Peyğəmbərə (s) buyurur: "Gecəni – az bir hissəsi istisna olmaqla – qalxıb namaz qıl! (Gecənin)

---

[1] 19 Dey (9 yanvar) münasibəti ilə Qum əhalisinin müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 1997.

yarısına qədər, yaxud ondan bir qədər az və ya bir qədər çox! Həm də aramla (ağır-ağır) Quran oxu! Həqiqətən, Biz sənə ağır bir kəlam vəhy edəcəyik". Yəni gecənin yarısını, yaxud üçdə ikisini oyaq qal və ibadət et. Bu, Peyğəmbər (s) üçündür. Biz bu sözləri özümüz üçün deyə bilmərik. (Peyğəmbərə (s) olunan bu tövsiyə) nə üçündür? "Həqiqətən, Biz sənə ağır bir kəlam vəhy edəcəyik". Biz sənə ağır bir söz çatdırmaq istəyirik. Biz sənə böyük söz demək istəyirik. Buna görə özünü hazırlamalısan.[1]

**Namazı tanıtdırmağın zəruriliyi**

Bizim cəmiyyətimizdə namazı bütün səviyyələrdə tanıtdırmaq üçün mühüm bir dövr başlanmalıdır. Media orqanları, xüsusən də radio və televiziya müxtəlif üsullarla namazı tanıtdırmalı və yada salmalıdırlar. Hər yerdə və həmişə radio və televiziyada namaz birinci olmalı, qəlblərdə iman şövqü və Allahı yad etməyin susuzluğu yaranmalıdır. Məktəb və universitetlərin din dərslərində namaz dərsi öz yerini tapmalı, namazı öyrənməkdə biçimli sözlər və uca fikirlər hazırlanıb tələbə və şagirdlərin zehninə və qəlbinə təqdim olunmalıdır.

...Məktəblərdə, universitetlərdə, zavodlarda, hərbi hissələrdə, hava limanlarında, qatar dayanacaqlarında, dövlət idarələrində və digər yerlərdə namaz üçün münasib yerlər nəzərdə tutulmalıdır. Məscid və namazxanalar təmiz, səliqəli və ürəkaçan olmalıdır. Namaz fəzilətli vaxtında və camaatla qılınmalıdır. Hər bir yerdə oranın görkəmli və böyük şəxsləri digərlərindən önə keçməli və namaza diqqəti əməli surətdə digərlərinə öyrətməlidirlər. Qısası, hər yerdə namaza sarı hərəkət və namaza tələsmək duyulmalıdır.[2]

**Məktəb və universitetlərin məsul şəxslərinin namaza diqqəti**

Namaz barədə xüsusən məktəb və universitetlərin məsul şəxslərinə deyirəm ki, bu işə diqqət göstərin. İnşallah namazın bərpası ilə məşğul olan şəxslər müxtəlif orqanlarda öz proqramlarını asanlıqla icra edə

---

[1] Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2005.
[2] Müqəddəs Məşhəd şəhərində keçirilən ilk illik namaz iclasına müraciətdən: 1991.

bilsinlər. Bunlarla yaxşı əməkdaşlıqlar edilib, bundan sonra da bu əməkdaşlıqlar günbəgün artırılmalıdır.[1]

**Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə məsələsinin əhəmiyyəti**

Yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək məsələsi namaz kimi bir şeydir; onu öyrənmək lazımdır. Gərək gedib öyrənəsiniz. Harada və necə yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirməyin yolları var. Əlbəttə, mən deyirəm və öncə də demişəm ki, İslam cəmiyyətində ümumi xalqın vəzifəsi dillə yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirməkdir.

...Dillə yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək daha mühümdür. Cəmiyyəti islah edən amil dillə pis işlərdən çəkindirməkdir. Pis iş görən, qanunsuz iş görən, pozğunluğu yayan, cəmiyyətdə günahın qəbahətini ortadan götürmək istəyən insana camaat deməlidir; on nəfər, yüz nəfər, min nəfər. İctimai rəy onun vücuduna və beyninə təzyiq göstərməlidir. Bu, ən güclü amildir.[2]

Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirməni dirçəltməlisiniz. Qoymayın gənclərin arasında - məktəb və universitetlərdə fəsad yaransın. Bu mərkəzlər düşmənin hədəfindədir.[3]

---

[1] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2005.

[2] Bəsic Müqavimət Qüvvəsinin batalyonlarının və Aşura tağımlarının komandirləri ilə görüşdə çıxışından: 1992.

[3] Tələbə və şagirdlərlə görüşdə çıxışından: 1991.

## İyirmi yeddinci fəsil: Gənclər

**Gənc - hərəkətin motoru**

Gənc hər bir cəmiyyətdə hərəkətin motorudur. Əgər inqilabçı hərəkət və siyasi qiyam olsa, gənclər başqalarından daha tez səhnədə hazır olurlar. Əgər quruculuq hərəkəti, yaxud mədəni hərəkət olsa, yenə də gənclər digərlərindən öndədirlər və onların əli digərlərindən daha işləkdir. Hətta Allah peyğəmbərlərinin təbliğində, o cümlədən erkən İslam çağında da hərəkətin, işin və fəaliyyətin mərkəzi gənclər idilər.[1]

**Ölkənin böyük gənc toplumundan istifadə**

Mənim ölkə məmurlarına, müdirlərə və proqram hazırlayanlara sözüm budur: Ölkədəki bu böyük gənc toplumunu coşub-daşan təlatümlü bir çay bilin. Bu çay daim axmaqdadır və bundan illər sonra da axacaq.

...Bu təlatümlü çayı elektrik stansiyalarına yönəldin, nəhəng bir enerji mənbəyi yaradın, bütün ölkəni nailiyyətə və işə vadar edin.

...Görülməli iş bunlar deyil. Görülməli iş odur ki, ölkənin mədəni, iqtisadi və siyasi texnoloqları oturub bu möhtəşəm fenomeni düzgün dəyərləndirsinlər və onun üçün proqram hazırlasınlar. Ölkənin buna ehtiyacı var.

Bizim ölkəmizin geniş torpağı və çoxlu imkanları var. Əlbəttə, çoxlu problemlər də var. Bizim ölkəmiz sulu ölkələrdən deyil. Bəzi təbii çatımazlıqlar da var. Ortasında böyük bir səhra yerləşir. Lakin bu insani əllər tərbiyə olunmuş və zənginləşmiş beyinlərdən fərman alsa, bütün bu çatışmazlıqları büküb kənara tullayarlar və ölkə inkişaf edər; bu şərtlə ki, elmi və dəqiq proqram hazırlansın.[2]

**Gəncə etimad edək!**

İnqilabın əvvəllərindən mənim səlahiyyətimdə olan işlərdə gənclərə məsuliyyət verirdim; həm silahlı qüvvələrdə, həm dövlət işlərində, həm

---

[1] Yenə orada.

[2] Rəşt namazxanasından gənclərlə görüşdə çıxışından: 2001.

prezidentlik zamanı. Mənim təcrübəm budur ki, biz gəncə etimad göstərsək - sözsüz ki, ləyaqətli bildiyimiz və səlahiyyəti olan gəncə, hər bir gəncə və hər bir məsuliyyəti yox - işi gənc olmayandan daha yaxşı və daha məsuliyyətli yerinə yetirəcək; həm sürətlə yerinə yetirəcək, həm işi daha yeni və daha artıq yaradıcılıqla bizə təhvil verəcək. Yəni işdə inkişaf prosesi qorunacaq. Qeyri-gənc isə belə deyil. O, işi aktual olaraq yaxşı yerinə yetirə bilər, lakin onda inkişaf prosesi dayanacaq. Əksərən belədir.

İnqilab Şurasında olanda bu məsələyə qarşı bizə və o şurada olan digər dostlara etiraz olunurdu. Əsasən 60, 70 və 75 yaşlı insanlar da o şurada vardı. Onlar gənclərə çox da güvənmirdilər. Deyirdilər ki, siz nə üçün gənclərə üz verirsiniz, bunları əbəs yerə əsas işlərə daxil edirsiniz və sair. Onlar gənclərə çox imkan yaradılmasını istəmirdilər. İstəyirdilər ki, gənclər onlara qulaq assınlar, onların ardınca getsinlər; deyirdilər ki, onlar gəncdirlər, biz qocayıq, gərək bizim arxamızca gəlsinlər. Gənclərə çox etimad göstərmək istəmirdilər. Lakin biz etimad göstərirdik. Biz işin yaxşı gedişini və inkişafı göstərərək onlara əməli cavab verirdik.[1]

### Gəncin ən mühüm ehtiyacı kimlikdir!

Lakin bilirisiniz mənim fikrimcə gəncin ən mühüm ehtiyacı nədir? Gəncin əsas ehtiyacı kimlikdir; öz kimliyini və məqsədini tanımalı, kim olduğunu, nə üçün işləmək və çalışmaq istədiyini bilməlidir. Düşmən gənclərimizin kimliyini almaq, məqsədləri ortadan götürmək, üfüqləri qaraltmaq istəyir; gənclərə demək istəyir ki, siz əskik və məhdud varlıqsınız, mənim yanıma gəlin, sizi qanadlarım altına alım.[2]

### Gənc, gözəllik və gözəlləşmə

İnsanın, xüsusən də gəncin gözəllikdən və gözəlləşmədən xoşu gəlir; ürəyi istəyir ki, özü də gözəl olsun. Bunun eybi yoxdur; təbii və zəruri bir haldır, İslamda da qadağan olunmayıb. Qadağan olunan fitnə və fəsaddır.

Bu gözəllik və gözəlləşmə cəmiyyətdə süqutun və fəsadın yaranmasına səbəb olmamalıdır; yəni əxlaqi pozğunluq vucüda

---

[1] Gənc Günü münasibətilə gənclərlə görüşdə çıxışından: 1998.
[2] Rəşt namazxanasından gənclərlə görüşdə çıxışından: 2001.

gəlməməlidir. Necə? Yolları bəllidir; əgər qadın və kişi münasibətlərində qeyd-şərtsiz əlaqə və cinsi özbaşınalıq olsa, bu, fəsada bais olacaq; əgər ifratçı modabazlıq şəklinə düşsə, fəsadla nəticələnəcək; əgər bu gözəlləşmək - başla, görkəmlə, geyimlə və bu kimi məsələlərlə məşğul olmaq həyatın əsas məşğələsi olsa, sapqınlıq və tənəzzül yaradacaq. Tağut dövründə əyan və əşrafın xanımları bəzənmə stolu arxasında otururdular. Sizcə neçə saat otururdular? Altı saat. Bu, həqiqətdir. Bizim dəqiq xəbərimiz vardı ki, altı saat otururdular. Bir insan bəzənmək üçün bu qədər vaxt sərf edir, misal üçün, toya getmək istəyir, saçını, yaxud üzünü filan formada düzəltmək istəyir. Əgər iş bu formaya düşsə, sapqınlıq və tənəzzüldür. Lakin öz-özlüyündə, özünü göstərmək və yadların qarşısında bəzənmək niyyəti ilə olmasa, başa, görkəmə və paltara diqqət yetirməyin eybi yoxdur.

...İslamda gözəllik məsələsinə önəm verilmişdir. Çox eşitmişik ki, deyilir: "Allah gözəldir və gözəlliyi sevir".[1] Zahiri görkəmi düzəltmək haqda bizim hədis kitablarımızda çoxlu rəvayətlər mövcuddur. Nikah kitablarında kişi və qadının özünə fikir verməsinə dair geniş söhbətlər açılır. Bəziləri elə bilirlər ki, misal üçün, kişilər saçlarını qırxdırmalıdırlar. Xeyr, şəriətdə gənclər üçün saç saxlamaq müstəhəb əməldir. Hədisdə göstərilir ki, gözəl saç ilahi nemətlərdəndir, onu qiymətli sayın[2].[3]

### Gənc nəslin fəsada çəkilməsinin qarşısını almağın zəruriliyi

Cənablar! Gənc nəsil düşmənin vasitəsi ilə tədricən tələf olmaqdadır. Biz buna imkan verməməliyik. Biz gənc nəsli qorumalıyıq ki, müharibə olsa, müdafiə etsin, daxildə bir hadisə baş versə, iştirak etsin, elm və tədqiqat növbəsi çatdıqda dərs oxusun və özünü islah etsin, gələcəkdən söhbət düşdükdə özünü hazırlasın. Etimad və ümid səbəbi olan bu gənc nəsil üzərində müxtəlif forma və üslublarda tədricən işləyirlər. Bu da əsasən mədəni-ideoloji fəaliyyətdir. Düzdür, gəncləri aparıb fəsada qurşatmaq üçün mərkəzlər var. Bu, qeyri-mədəni və praktik tərəfidir.

---

[1] "Bihar əl-ənvar", c. 10, səh: 92.

[2] Yenə orada, c. 76, səh: 83.

[3] Gənc Günü münasibətilə gənclərlə görüşdə çıxışından: 1998.

Lakin hamısından təhlükəli olan gənclərin beyni, düşüncəsi və ruhiyyəsidir. Bunu başa düşmək lazımdır.[1]

**Düşmənin gənclərin beyninə təsir göstərən iki amili**

Gənc zehni üzərində ən çox təsir göstərən iki amil var: Biri düşmənin müxtəlif təbliğatıdır; gənci müqəddəs İslam həqiqətlərinə, inqilabda qəti məsələlər və əsas etiqadi təməllər kimi tanınan həqiqətlərə qarşı laqeyd və biganə edən təbliğat. İkinci amil isə bu həqiqət və prinsipləri düzgün izah və müdafiə etməməkdir. Mən düşünürəm ki, ikinci amilin təsiri birincidən az deyil. Çünki İslam Respublikası quruluşunda İslamın, İslam prinsiplərinin, İslamın əsaslarının və İslam təlimlərinin əleyhinə açıq-aşkar şəkildə az təbliğ olunur, geniş təbliğata şərait yoxdur. Odur ki, düşmənin təbliğatı yalnız müəyyən səviyyəni əhatə edir, halbuki ikinci amil üçün heç bir məhdudiyyət yoxdur.

Biz təbliğat aparmadıqda, həqiqətləri bəyan etmədikdə, İslam təlimlərini - tövhidin özünü, ilahi hökuməti, insanın Allah qarşısında bəndəliyinin lazım olmasını, insanın əsas təməllərdən olan Allah hökmləri qarşısında təslimçiliyinin lazım olmasını düzgün izah və müdafiə etmədikdə bundan doğan təsir xüsusi bir hədlə məhdud olmur və hamıya şamil olur.

...Bəzi İslam mövzuları hazırlanıb münasib formada yazılmalı və ölkənin hər yerində deyilməlidir; belə ki, bütün ürəklərdə və beyinlərdə yer açsın. İslam məsələləri barədə mətləblər seçilməli və bu gün müxtəlif vasitələrlə xalqın xüsusi təbəqələri arasında yayıldığını bildiyimiz fərzi şübhələrə cavab verilməlidir.

Qərbin materialist filosof, yazıçı və mütəfəkkirlərinin düşüncələri bu gün bizim universitetlərimizdə kitab və tərcümə formasında mövcuddur. Bunların daxil olmaması üçün bir sədd düzəltmək olmaz. Bu, mümkün və məsləhət deyil. Düşüncələr gəlməli və bilinməlidir. Bu düşüncələrin qarşısında padzəhər düzəltmək lazımdır.[2]

---

[1] Ölkənin Cümə imamlarının yeddinci toplantısındakı çıxışından: 1991.
[2] Yenə orada.

**Fəsad oyatmaq və gənc nəslə nüfuz**

Düşmənin təxribatlarından başqa birisi fəsad oyatmaq təxribatıdır; gənc nəslə nüfuz etmək, İslamın həqiqi əsgərləri arasında fəsad yaratmaq gəncləri fəsadçı işlərlə məşğul etmək. Gənclər bilsinlər ki, bu, təxribatdır.[1]

**İrşad Nazirliyinin vəzifəsi**

Biz bilməliyik ki, hökumət xalqın bir çox işləri - məişət vəziyyəti, iqtisadiyyatı, siyasəti, mədəniyyəti, təhsili və sağlamlığı üçün məsuliyyət daşıdığı kimi, beyinlərinin vəziyyəti üçün də məsuliyyət daşıyır. Yəni misal üçün, cəmiyyətimizdə hünəri yalnız gənclərin cinsi duyğularını təhrik etməkdən ibarət olan bir kitab zərərlidir. Bir elmi-mədəni məhsul olduğu üçün onu azad buraxa bilmərik ki, istəsə, istehsal və təklif etsin. Xeyr, bu, istək məsələsi deyil, narkotik maddə kimidir. Narkotik maddələrin də istəyəni çoxdur. Çoxlarına narkotik maddə versəniz, yaxşı qarşılayar və istifadə edərlər, lakin aludə olduqdan sonra sizi lənətləyərlər. Çoxlarından narkotik maddələri alsanız, sizinlə dalaşmaları da mümkündür. Lakin bu işlə həmin xəstəlikdən xilas olduqdan sonra sizə dua edəcəklər. Odur ki, istək mütləq məsələ deyil. Xeyirli istək yaxşıdır. Xeyri təyin etmək də məsul şəxsin öhdəsinə düşür.

Əlbəttə, biz xalqa demək istəmirik ki, siz mütləq bu kitabı oxumalısınız, o kitabı oxumamalısınız. Xeyr, müxtəlif zövq, fikir, beyin və istedadlar qarşısında açıq mühit olmalı, istədiklərini seçə bilməlidirlər. Lakin azdırıcı və fəsadçı olana meydana giriş icazəsi verməməliyik. Bu bizim vəzifəmiz, hökumətin və İrşad Nazirliyinin borcudur.

...Əlbəttə, cinsi hisslərin təhriki barədə dediyim söz yalnız bir misaldir; siyasi sahələrdə də belədir. Fərz edək müxtəlif qisimli azdırıcı yalanların mövcud olduğu bir kitab var və sizin də indi bu yalanlara cavab vermək imkanınız yoxdur. Bunun qarşısı alınmalıdır.

Əlbəttə, səhv nəzərlərin qarşısı alınmamalıdır. Səhv fəlsəfi, ictimai və müxtəlif nəzərlərin cəmiyyətdə deyilməsinin və tənqid olunmasının eybi yoxdur; bu, yaxşıdır. Səhv fəlsəfi nəzərlərin qarşısını almaq bəzi şəxslərin bu nəzərlərin düzgün olmasını duşunməsinə səbəb olur. Bu, istənilənə əks-

---

[1] Xürrəmabad əhalisi ilə görüşdə çıxışından: 1991.

təsir buraxar. Xeyr, fəlsəfi, ictimai və siyasi nəzərlər irəli sürməyin eybi yoxdur.[1]

**Gənclərin düşüncə təməllərini möhkəmlətməliyik!**

Gənclərin İslama təmayülünü görürsünüz. Bu təmayül duyğusal təmayüldür və çox dəyərlidir. Lakin bir dalğa kimidir, gəlib qayıda da bilər. Biz bu dalğanın davam etməsini istəyiriksə, gənclərin düşüncə təməllərini möhkəmlətməliyik. Bizim bu qədər mənbələrimiz var. Cənab Meşkininin buyurduğu Əbu Həmzə duası, İmam Hüseynin (ə) Ərəfə günündəki duası - bunları bizim gənclərimiz oxuyurlar, lakin mənalarını anlamırlar. Belə münacatlarda, Şəban münacatında və Səhifeyi-Səccadiyyənin dualarında belə dərin sözlər o qədər çoxdur ki. Biz bunları gənclərə deməli, izah etməli və aydınlaşdırmalıyıq ki, başa düşsünlər, maraqla, həvəslə oxusunlar.[2]

**Gənclərin pak qəlblərini İslam nuru ilə işıqlandırın!**

Bütün məmurlar - birinci növbədə dövlət məmurları, həmçinin digərləri gənclərin pak qəlblərini İslam nuru ilə işıqlandırmağa çalışmalıdırlar. Onların qəlbində iman təməllərini möhkəmlətsinlər, onların gənclərin pis rəftarın, pis seçimin, pis təbliğatın, həqiqətləri pis anlamanın, aydın həqiqətləri pis açıqlamanın və pozucu fikirlərə imkan yaratmanın təsirindən həqiqət yolundan sapınmalarına qoymasınlar. Bu bizim üzərimizə düşən böyük məsuliyyətdir.[3]

**Dini məsələlərdə gəncləri məlumatlandırmaq**

Tərbiyəvi işlərlə məşğul olan siz əzizlərin məqsədi ilk növbədə gənci mömin, ayıq, dini məsələlərdə aydın, İslam maarifinə və İslam əməlinə sadiq yetişdirməkdir. Ölkənin gələcəyi belə təmin olunar. Gənclərin etiqadlarında şübhə yaratmaq istəyən düşmənlərin vəsvəsələrini ədavətli zümzümə sayın, işlərində uğur qazanmalarına qoymayın. Gəncləri dünya

---

[1] Tehranın beynəlxalq kitab sərgisinə baxış keçirərkən: 1998.

[2] Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdə çıxışından: 2005.

[3] 17 Rəbiüləvvəl (Peyğəmbərin (s) və İmam Sadiqin (ə) doğum günü) münasibəti ilə quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2001.

gənclərinin daha öncə məşğul olduğu və bu gün altını çəkdiyi məsələlərlə məşğul etmək bu ölkənin gənc nəslinə kömək deyil. Bəziləri müxtəlif bəhanələrlə iranlı gənci əyləncəli məsələlərə, zərərli musiqilərə, cinsi həvəslərə və bu tip işlərə sövq etmək istəyirlər. Bu, qərbli, amerikalı və avropalı gənci özündə qərq etməkdə olan bataqlıqdır. Bu, təqlid etməli bir şey deyil. Bunun qarşısında dayanın.[1]

**Əhli-beyt (ə) sözünü ucaltmağa çalışmaq**

Biz Əhli-beyt (s) sözünü ucaltmaq üçün işlər görməliyik. Əvvəla Əhli-beytin (ə) özünü tanıtdırmalı, ikincisi isə onların fikirlərinin təbliğinə çalışmalıyıq. Bu gün İslam dünyasında Əhli-beyt (ə) haqqında bu dövrə uyğun dillə yazılmış kitablar var, yoxsa yox? Mənim daha çox gümanım budur ki, yetərincə yoxumuzdur. Bəlkə də haradasa nələrsə var. Əgər varsa, biz onları tələbələr, gənclər, ruhanilər, ümumi xalq və mənfi təbliğatın təsiri altına düşənlər arasında yaymalı, onların ixtiyarına buraxmalıyıq.[2]

**Şəhid Mütəhhərinin kitablarının mütaliəsi**

Bu gün bizim gənclərimiz, tələbələrimiz, müəllimlərimiz və fəhlələrimiz İslam düşüncələri sahəsində dərin məlumat əldə etmək və öz suallarının cavabını tapmaq istəsələr, Şəhid Mütəhhərinin kitablarına müraciət etməlidirlər. Bu böyük insanın kitabları barədə imamın təxminən bu məzmunda bir sözü var ki, onların hamısı yaxşı və faydalıdır. İmam kimi bir insanın belə bir söz işlətməsi olduqca əhəmiyyətlidir. Fikir, düşüncə və mədəniyyət sahəsində insanların fikir mübadiləsinə və yeni yolların açılmasına həvəsləndirmənin vacibliyi doğrudur, amma bu, İslam düşmənlərinin düşüncə özbaşınalığı ilə sonuclanmamalıdır. Yolu gəncin, gənc nəslin və qərəzsiz axtarışda olanların fikirləri qarşısında açmaq

---

[1] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdə çıxışından: 2001.

[2] Ümumdünya Əhli-beyt (ə) cəmiyyətinin Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.

lazımdır. Bunun üçün ən yaxşı vasitələrdən biri canını Allah yolunda fəda edən böyük mücahidin uca və dəyərli fikirləridir.[1]

**Gənclərə əxlaqi dəyərləri öyrətmək**

Mən məsul şəxslərə deyirəm ki, bizim gənclərimizə gözütoxluq, əxlaqi saflıq, özünəinam, sədaqət və şücaət öyrədin, onlarda polad iradə, ictimai nizam-intizam və işçi vicdanı yaradın, sonra da onlar üçün proqram hazırlayın. Bu işlər mümkündür və bu gələcək reallaşacaq.[2]

---

[1] Müəllim və Fəhlə Günü münasibəti ilə müəllim və fəhlələrlə görüşdə çıxışından: 1999.
[2] Rəşt namazxanasında gənclərlə görüşdə çıxışından: 2001.

## İyirmi səkkizinci fəsil: Proqramlaşdırma hərəkatı

### Proqramlaşdırma hərəkatının tərifi

Bir neçə ildir ölkənin elmi arenasında Proqramlaşdırma hərəkatı məsələsini irəli sürmüşəm. Bu nə deməkdir? Yəni biz öyrənməklə qane olmamalıyıq. Bizim tədqiqat və təhsilimizdə məqsəd elmin istehsalı olmalıdır; yəni bəşərin indiki elmi yeniliklərinin başlandığı yerə çatmaq. İstedad baxımından dünyada elmi istehsal edən, genişləndirən, inkişaf etdirən və elm əsasında mürəkkəb texnologiyaları yaradan şəxslərə nisbətən bizim çatışmazlığımız yoxdur. Əlbəttə, elm istehsalının mənası bu deyil ki, biz tərcüməni və öyrənməyi kənara qoymalıyıq. Xeyr, o da lazımdır. Lakin demək istəyirəm ki, tərcümə və təhsildə dayanmamalıyıq.

Mənim nəzərdə tuduğum məsələdə müstəmləkəçiliyin rolu olduqca böyükdür. Müstəmləkəçilik məsələsinə, eləcə də siyasi, ictimai və mədəni şəraitə görə və sürətli vasitələrin köməyi ilə dünyanın bir hissəsi elmi zirvələrə sarı digər hissəsindən daha tez hərəkət etdi. Bu hissə sürətli vasitədən istifadə edib inkişaf etdi və sonra həmin vasitəni günbəgün daha sürətli, daha qüdrətli etdi, imkanlarını yüksəltməklə elmi nailiyyətlər qazandı. Halbuki biz bütün keçmiş elmi inkişaflara rəğmən, çoxlu cəhalətlərlə əhatə olunmuşduq. Dünyanın həmin hissəsinin sakinləri heyrətamiz elmi inkişaflara imza atdılar. Sonra da ümumi siyasətləri bu oldu ki, elmi öz əllərində saxlasınlar və geriqalmış ölkələrin onlara çatmasına, yaxud onları keçməsinə imkan veməsinlər. Siz bəzi mütərəqqi texnologiyalar üçün yaradılan məhdudiyyətlər və onların dünyanın heç bir nöqtəsinə əsla sızmaması barədə mütləq çoxlu sözlər eşitmisiniz.

Müstəmləkəçilik həm dünyanın bir hissəsinin elmi inkişafında rol oynadı, həm də həmin elmi inkişaf onu daha da qüdrətləndirdi və siyasi imkanlar yaratdı. Misal üçün, İngiltərə Hindistanı istismar etmək üçün buxar gəmisindən istifadə etdi və Hindistanın istismarı Buxar gəmisini mütərəqqi gəmilərə çevirməyə, Hindistana və digər bölgələrə hökmranlığı artırmağa kömək etdi. Beləliklə öz inhisarlarında olan elm müstəmləkənin xidmətində durdu, müstəmləkəçilik də elmin xidmətində.

Biz özümüzü üçüncü dünya ölkələrinin yerləşdiyi mövcud mühasirədən çıxarmalıyıq. Bu yalnız bizim deyil, bəlli bir dövrdə elm karvanından geri qalmış bütün dünya xalqlarının vəzifəsidir. Mənim ekspert və mütəxəssislər tərəfindən təsdiq olunan önfərziyyəm budur ki, biz bu işi görə bilərik. Düşmənlərin mədəni-ideoloji siyasətinin ümdə hissələrindən olan "bacarmarıq" və "bacarmazsınız" möhrünü beynimizdən silməliyik. Əlbəttə, mən hiss edirəm ki, bu sahədə də inkişaf edə bilərik. İndi görürəm ki, siz universitet müəllimləri və tələbələri elmi mühitlərdə Proqramlaşdırma və elm istehsalı hərəkatını əməli və fəal şüarlar kimi yad edirsiniz. Biz bu fikrə düşmüşük; bu məsələ şüar və istək formasına düşmüşdür. Bu böyük uğurdur.[1]

**Elmin sərhədlərini aşın!**

Proqramlaşdırma hərəkatı dedikdə siz gənclərdən və müəllimlərdən gözlədiyim budur; elmi istehsal edin, elmin sərhədlərinə sarı gedin, fikirləşin, işləyin. İş və fəaliyyətlə elmin bugünkü sərhədlərini aşmaq olar; bəzi fənlərdə tez, bəzi fənlərdə gec. Texnologiya da belədir. Elm texnologiyaya diqqət yetirməlidir. Texnologiya da çox əhəmiyyətli və yüksək mərhələdir. Biz texnologiyada da inkişaf edə bilərik; necə ki, etmişik.

...Elmdə şagirdlik etmək mədəniyyətdə təqlidçilik etmək demək deyil. Bu çox əhəmiyyətli bir məqamdır. Qacarlar dövründə Qərb mədəniyyətinin nümunələri ilk dəfə ölkəyə daxil oldu. Avropalılarla əlaqə quran birinci təbəqə olan ozamankı əyan-əşrafın və saray iranlılarının öyrəndikləri ilk məsələ isə elm deyildi; onların adət-ənənələrini, rəftarını və davranış tərzlərini öyrəndilər. Bu səhv və yanlış xətt oradan cızıldı. Bəziləri belə düşünürlər ki, qərblilər elmdə bizdən üstün olduqlarına görə, mədəniyyəti, inancları, həyat tərzini, ictimai və siyasi münasibətləri də onlardan öyrənməliyik. Bu, səhvdir.[2]

**Biz kəsə yollar tapacağıq!**

---

[1] Ölkənin universitet müəllimləri ilə görüşdə çıxışından: 2003.
[2] Həmədan gəncləri ilə görüşdə çıxışından: 2004.

Həqiqət budur ki, biz 200 il dünya elmindən geri qalmışıq. Amma elmin sərhədlərinə çatmaq o demək deyil ki, avropalıların 200 ilə getdikləri yolu biz də 200 ilə gedək, sonra onların bugünkü yerlərinə çataq. Yox, belə deyil. Biz kəsə yollar tapmalıyıq. Biz elmi avropalıların əlindən almalıyıq. Biz öyrənməyə utanmırıq. İslam deyir ki, dünyada bir neçə qrup var. Onların biri bilmədiklərini öyrənməyi düşünənlər, öyrənməyə utanmayanlardır. Biz bu gün bəşərin beyninin, ağlının və istedadının nəticəsi olan elmləri öyrənirik. Bilmədiyimiz məsələləri böyük məmnuniyyətlə öyrənirik. Müəllimlərimizə hörmət də edirik. Bizə elm öyrədənlərə hörmətsizlik etmirik. Amma ayrısından elm öyrənmək, şagirdin həmişə şagird qalması kimi başa düşülməməlidir. Biz bu gün şagirdik, sabah onların müəllimi olacağıq; necə ki, onlar bir gün bizim şagirdmiz idilər, amma indi müəllimimiz olmuşlar. Qərblilər elmi bizdən öyrəndilər. Siz Pier Russonun Elmlər tarixi kitabına baxın. Dörd-beş əsr öncə bir tacir Avropa ölkələrindən birində bir müəllimə müraciət edir ki, istəyirəm övladım dərs oxusun, onu hansı məktəbə yollayım? Müəllim cavab verir ki, əgər dörd məsələ - toplama, vurma, çıxma və bölmə ilə kifayətlənirsənsə, onu bizim ölkənin, yaxud digər bir Avropa ölkəsinin istənilən məktəbinə yolla, amma bundan artığını istəyirsənsə, onu Andalusa, yaxud digər müsəlman bölgəsinə göndərməlisən. Bunu Pier Russo yazır, mənim sözüm deyil. Xaç yürüşləri onlara kömək etdi və bizdən öyrəndilər. Onların alimlərinin bu bölgələrə səfərləri bizdən öyrənmələrinə kömək etdi. Həmçinin bizim alimlərimizin o bölgələrə səfərləri və kitabların oralara aparılması bu sahədə onlara böyük kömək göstərdi. Bir gün onlar bizdən öyrəndilər və bizim şagirdimiz oldular, sonra isə bizə müəllimlik etdilər. İndi də biz onlardan öyrənirik, onların şagirdi oluruq və sonra onların müəllimi olacağıq. Buna görə ölkəmizin tələbə, tədqiqatçı və alim nəsli bilsin ki, bu gün elmi üstünlük qərblilərdədir, amma sizin əmək və iradəniz sayəsində yaxın gələcəkdə onlar sizdən öyrənə bilərlər.[1]

**Həqiqi həll yolu yerli həll yoludur!**

---

[1] Yenə orada.

Həqiqi həll yolu yerli həll yoludur. Öz sağlam toxumumuzu əkməli və ona baxmalıyıq ki, cücərsin. Biz onu-bunu yamsılamağa çalışmamalı, əcnəbi dildə danışmamalı və onların köhnə təcrübələrindən borc götürməməliyik. Bu o demək deyil ki, digərlərinin elmi nailiyyətlərindən istifadə etməyək. Xeyr, qəti şəkildə düşünürəm ki, bəşərin bütün elmi təcrübələrindən bəhrələnmək lazımdır. Biz pəncərələri bağlamırıq; dünyada kim yaxşı iş görmüşsə, onu seçirik.

Mən bir dəfə mədəni hücumla mədəni mübadilənin fərqi haqda danışdım. Mədəni hücum mənfi haldır, mədəni mübadilə isə müsbət.[1]

**Nüvə texnologiyasından imtina etməyə haqqımız yoxdur!**

Nəyin bahasına olursa-olsun, bu texnologiyadan imtina etməyə haqqımız yoxdur. Bəziləri təbliğat aparırlar ki, böyük şey əldə olunmayıb. Bu da düzgün deyil. Bilin ki, əldə olunan çox dəyərli və böyükdür. Əgər böyük olmasaydı, düşmənlərimizi bu qədər qıcıqlandırmazdı. Ekspertlər və məlumatlı insanlar bu haqda düzgün mühakimə yürüdürlər. Biz yerli bir texnologiya əldə etmişik; mühüm olan budur. Əgər bu gün düşmənlərimiz İslam Respublikasının ixtiyarında olan bütün aparatları məhv edə bilsələr - əlbəttə ki, edə bilməzlər - bu texnologiya məhv olmayacaq. Çünki onu kimdənsə borc almamışıq, bizim istedadlı mütəxəssislərimiz onu əldə etməyi bacarmışlar. Əgər qərblilərin və beynəlxalq güc mərkəzlərinin istəyinə qalsaydı, İslam Respublikasının yüz il sonra da belə bir texnologiya əldə etməsinə qoymazdılar. Bu iş bizə qarşı embarqolara rəğmən, baş vermişdir. Odur ki, əldə olunan dəyərlidir və bu dəyərli elmi nə hökumət, nə məmurlar, nə Atom Enerjisi Təşkilatı və nə də bu ölkə insanlarından hər hansı birinin əldən verməyə, üzərindən bazarlıq etməyə haqqı çatmır. Qətiyyətlə deyirəm ki, bazarlıq edilməyib və edilməyəcək. Əlbəttə, İslam Respublikasının məsul şəxsləri ilə uyğun müzakirələri aparanlar bunun üstündə İslam Respublikasına əngəl yaratmaq və artıq tələblər irəli sürmək istəsələr, hər şey pozulacaq və şübhəsiz, İslam Respublikasından zərbə görəcəklər. Biz bu sahədə heç bir güzəştə getməyəcəyik. Biz bu texnologiyanı və Allahın lütfü ilə əziz

---

[1] Rəşt namazxanasında gənclərlə görüşdə çıxışından: 2001.

ölkəmizin müxtəlif sahələrində əldə etdiyimiz mühüm elm və tədqiqat inkişaflarını qorumalıyıq. Sözsüz ki, texnologiya və elmin ön xətləri ilə məsafəmiz çoxdur. Səbəbi budur ki, sıfırdan yox, sıfırdan da aşağıdan başlamışıq. Bu ölkəni elə vəziyyətə salmışdılar ki, nəinki elmi və texnoloji nailiyyəti, hətta ona ümidi də yox idi. Buna əsasən, biz "heç" nöqtəsindən başlamadıq, "heç üstəgəl ümidsizlik" nöqtəsindən başladıq. İslam inqilabı buradan başladı və Allaha həmd olsun ki, bu gün inkişaf etmişdir.[1]

[1] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2003.

## İyirmi doqquzuncu fəsil: Tələbə və universitet

**Daxili istehsal və xarici təcrübə**

Biz heç zaman digərlərinin nailiyyyətlərinə arxa çevirmirik. Kimin nəyi varsa - istər elmi, istər texnologiyası və texniki imkanları varsa, çarəsiz qaldıqda və onların hamısını öz məqsədlərimiz yolunda işlədə bildikdə bir an da gözləməyəcəyik. Biz bunların hamısını ölkə daxilindəki quruculuq istedadının çiçəklənməsi üçün vasitə və korpü etməliyik. Ölkə daxilində istehsal edə bildiklərimizi xarici məhsullara tərcih etməliyik. Ölkə daxilində istehsal olunan hər bir şey bizim üçün xarici oxşarından gözəl və hətta daha yaxşıdır.

İstedadları çiçəkləndirməliyik. Hamı - istər elm, istər texnologiya adamları, istər ixtiraçılar, istər hər hansı bir səviyyədə texniki işlərdə çalışanlar ölkə quruculuğu işinin onların üzərinə düşdüyünü hiss etməlidirlər. Biz özümüz ölkəni qurmalıyıq. Kimsə gəlib ölkəni bizim ehtiyacımız olan şəkildə qurmayacaq. Biz evimizi özümüz və öz ehtiyaclarımıza uyğun şəkildə tikməliyik. İndiyə qədər onillər boyunca bizə, ölkəmizə və sərvətlərimizə tamah gözü ilə, son 12-13 ildə isə çox vaxt nifrət gözü ilə baxanlar bizimlə birgə quruculuq işinə qoşulsalar da, bizim evimizi məqsədlərimizə, ölkəmizin təbiətinə, mədəniyyətimizə və xarakterlərimizə münasib deyil, öz istəklərinə uyğun şəkildə qura bilərlər. Deməli, ilkin prinsip budur ki, biz özümüz düzəldək.[1]

**Bizimlə inkişaf etmiş ölkələr arasındakı məsafə qət ediləsidir!**

Soruşdunuz ki, bizimlə inkişaf etmiş ölkələr arasında olan məsafə bitəcək, yoxsa yox? Mənim fikrim budur ki, bəli, tamamilə bitəcək. Ola bilsin biz onların getdiyi yollarla gedib məsafəni bitirə bilməyək. Lakin dünyada istədiyin qədər kəsə yollar mövcuddur. Biz Allahın yaratdığı təbiəti yaxşı öyrənməmişik. Minlərlə yol vardır. Bir yol indiki sənaye sivilizasiyasının getdiyi, hər bir addımdan sonra növbəti addıma səbəb olan yoldur. Biz nə üçün dünyada yeni bir bacanın açılmasına, yeni kəşfin

---

[1] Neft Naziri, nazirliyin əməkdaşları və ekspertləri ilə görüşdə çıxışından: 1991.

edilməsinə ümidsiz olmalıyıq?! Bir zaman elektrik enerjisi kəşf olunmamışdı; yəni dünyada mövcud idi, amma onu tanımırdılar. Birdən tanıdılar və əldə edildi. Buxar qüvvəsini, ondan öncə odu tanımırdılar, amma sonra tanıdılar. Nə üçün biz bu dünyada tanınmaz bir şeyi tanımağa məyus olmalıyıq?! Necə ki, hər gün yeni şeylər tanınmaqdadır. Biz bu sahədə işləməli və bizi sürətli elmi inkişafa tam hazır edən yola çatmalıyıq. Çarəsi də təkcə budur ki, gənclər, xüsusən də elm, təhsil və tədqiqatla məşğul olan gənclər ağır elmi işlərlə məşğul olsunlar.

Gənclikdə nə istəsəniz, etmək olar. Yəni hər üç sahədə - həm elm, həm mənəvi paklıq, həm də idman sahəsində gənclik çağında işləyin. Hamı bilir ki, qocalıqda idmanın gənclikdəki qədər təsiri olmur. Lakin mənəvi paklıq sarıdan əksərən bunu bilmirlər. Elə bilirlər ki, insan qalıb qocaldıqda ibadət etməli və mənəvi paklığa nail olmalıdır. Halbuki o zaman nəfsi paklamaq çətin, bəzən də qeyri-mümkün olur. Qocalıqda nəfsi paklamaq çətindir. Lakin sizin vaxtınızda - gənclikdə çox asandır.[1]

### Ölkənin elmi inkişafının zəruriliyi

Əgər biz bir ölkə üçün izzət, hörmət, rifah, beynəlxalq iqtidar və elmi inkişaf istəyiriksə, elm yolu ilə getməliyik. Mən demirəm ki, cəmiyyətin səadəti üçün elm kifayətdir. Görürük ki, dünyada elmi olan, lakin həqiqətən xoşbəxt olmayan və çoxlu problemlər içində çabalayan ölkələr var. Şübhəsiz, elm nəinki lazım, hətta olduqca vacib bir şərtdir və ölkədə inkişaf etməlidir. Odur ki, elmin əhəmiyyəti bəllidir. Əgər bu gün bir ölkə elmi baxımdan inkişaf etməsə, nə iqtisadiyyatı inkişaf edər, nə beynəlxalq iqtidarı, nə də xalqın güzəranı. Hər halda, ölkədə elm inkişaf etməlidir; xüsusən də biz geri qalmışıq və çalışmalıyıq.

...Son onilliklərdə, xüsusən də on doqquzuncu əsrdən bu yana dindarlığın elmə və elmi inkişafa mane olduğunu təlqin etməyə çalışmışlar. Lakin həqiqət əksinədir. Elmi inkişafın bir növ imana ehtiyacı var. Laqeyd, özbaşına, tüfeyli, nağd və şəxsi gəlir ardınca qaçan şəxs adətən çətin elmi tədqiqatla məşğul olmur. Əgər iman insanın qəlbinə hakim olsa, bu onun çətin elmi tədqiqat ardınca getməsinə kömək edər.

---

[1] Gənc Günü münasibətilə gənclərlə görüşdə çıxışından: 1998.

Çünki elmi tədqiqat işi şirin olmaqla yanaşı, həm də çətindir, problemləri var. Görürsünüz ki, bir bazar dəllalı nə qədər qazanır, amma alim belə deyil. Alimin qanı qarala bilər ki, məsələn, məişət imkanları zəifdir, lakin qəlbində nəyin bahasına olursa-olsun, bu vəziyyətini o alverçinin vəziyyəti ilə dəyişməyə razı olmaz. Əsla mümkün deyil desinlər ki, sən elmini ver, onun pulunu al və o da razı olsun. Yəni elmin qədrini alim bilir. Deməli, elm ardınca getməyin zəhməti, bəzən məhrumluğu, problemləri var. Əgər insanın qəlbinə iman hakim olsa, bu çətin yolu qət etməsinə kömək edər.[1]

**Universitetlərin İslama uyğunlaşması**

Ölkənin idarəçiləri, xüsusən də elmi-mədəni işlərdə çalışanlar İslam Respublikasının gələcəyi üçün universtetin əhəmiyyətini və universitet mənsublarının rolunu elə bir an da unutmamalıdırlar. Bizim mərhum və böyük imamımız onlarla yazılı sənəddə və şifahi tövsiyədə bu mühüm məsələni xatırlatmış, üzərində təkid göstərmişdir. Bizim universtetimiz İslama uyğunlaşsa, elmi işi və cəmiyyətin idarəsini üzərinə götürüb gələcəkdə elmi və siyasi inkişafa səbəb ola bilər. Lakin İslama uyğunlaşmasa, keçmiş rejimin onillərlə hakimiyyəti dövründəki bəlaya düçar olar: elmi və əxlaqi süqut, məcburən qaldığı geriliyi və zəifliyi özünün inqilabi əzmkarlığı və imanı ilə düzəltməyə iradə göstərmiş xalqın ehtiyaclarını təmin etməkdə bacarıqsızlıq.

Şübhə yoxdur ki, universitetin din və əxlaq müəllimləri və İslam təlimlərinin əmanətdarları olan din alimləri ilə əlaqəsi onların islahında, İslama sarı istiqamətlənməsində və mənəvi inkişafında layiqli təsirə malik olacaq. Və bu, İslam Respublikasının və ölkənin gələcəyi üçün həyati əhəmiyyət malikdir.[2]

**Tələbəyə əhəmiyyətli yanaşmaq**

Tələbəyə əhəmiyyət vermək, işsizlik, izdivac məsələsi, elmi tədqiqata aid məsələlər, universitetlərin texnika və proqram sahələrinə diqqət

---

[1] Ölkə üzrə elmi nümunələrlə görüşdə çıxışından: 1999.

[2] Fəqih rəhbərin ölkə universitetlərindəki nümayəndələrinin təyinat sərəncamından: 1989.

yetrmək, istər tələbə, istər müəllim olan elm adamına qayğı bizim istədiyimiz məsələlərdir. Mən çox sevinir və Allah şükür edirəm ki, bu sözlərin bu gün ümumi bir istəyə çevrildiyini görürəm. Bunları daha təkcə biz demirik, siz bizə deyirsiniz.[1]

**Universitetlər və İslam düşüncələri**

Bu gün gəncə inqilabın məsul şəxslərindən, öncüllərindən və ölkənin rəhbərlərindən ayrı olduğunu aşılayan hər bir fikir təlqin edilən yanlış siyasi təfəkkürlərdəndir. Bu gün xalq və hökumət əl-ələ verib bir-birinin yanında dayanmalı, var gücləri ilə müstəmləkəçiliyin və imperializmin bütün tilsimlərini qırmaq və məhv etmək üçün çalışmalıdırlar. Bu çox əhəmiyyətli və həssas bir gündür. Sizi hidayət edəcək və etməli olan təfəkkür isə İslam təfəkkürüdür. Siz universitetlərdə İslam düşüncələrinə və İslam işinə çox əhəmiyyətli yanaşmalısınız.[2]

**Tələbə yetişdirməkdə iki əsas amil**

Tələbə yetişdirməkdə iki əsas amil var. Onların heç biri diqqətdən kənarda qalmamalıdır. Əgər diqqətdən kənarda qalsa, biz ziyanını görəcəyik: biri elm, tədqiqat, elmi keyfiyyət, elmi istedadların çiçəklənməsi və bu tip məsələlərdən, biri də dindarlıq ruhiyyəsindən, düzgün hərəkətdən, tələbənin mənəvi və psixoloji sağlamlığından ibarətdir. Universitetlərdə bu iki amil bir-birindən ayrılmadan qüdrətlə və maksimum izlənməlidir.[3]

**Universitetin dindən ayrılması düzəlməz səhvdir!**

Universitetin dinə yad və ondan ayrı olması düzəlməz bir faciədir. “Düzəlməz” dedikdə məqsəd budur ki, düzəlincə çox tələfat və problemlər yaradacaq; həm də bəlli deyil ki, düzələcək, yoxsa yox.

İslam Respublikasının xüsusiyyəti budur ki, onun kadr yetişdirmə mexanizmi düzgün işləməli və məqsədlərinə uyğun insan yetişdirməlidir.

---

[1] Həmədan gəncləri ilə görüşdə çıxışından: 2004.
[2] Tələbə və şagirdlərin toplandığı görüşdə çıxışından: 1989.
[3] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.

Əgər biz bir xalqın və xüsusən də müsəlmanların müqəddəs arzularından uzaq və yalnız alim olan insan yetişdirmək istəsək, yaxşısı budur ki, tələbələrimizi qrup-qrup elm mərkəzlərinin bizdən daha imkanlı və daha modern olduğu ölkələrə göndərək; gedib orada öyrənib gəlsinlər. Məqsəd bu deyil. Məqsəd budur ki, ölkə elm və fikir baxımından səlahiyyətli insanların vasitəsilə öz məqsədləri istiqamətində hərəkət etsin. Bu yalnız o zaman mümkün olar ki, bu insanlar o məqsədləri bilib qəbul etsinlər.

...Biz universitetdə dini-inqilabi ruhiyyəni və milli asılılığa nifrəti diqqət mərkəzində saxlamalıyıq; xüsusən bu asılılıq məsələsini - təəssüf ki, bu gün dünyanın siyasi baxımdan kiçik ölkələrinin, necə deyərlər, keçmiş üçüncü dünya və əsasən müsəlman ölkələrinin düçar olduğu və gözlərinin dikildiyi məsələni.

Bu asılılığı elm öyrənməyə həvəslə səhv salmaq olmaz. Bəzən elm bizim düşmənimizin əlində olur; düşmənin yanına gedib diz üstə oturar və ondan elm öyrənərik. Bunun eybi yoxdur. Elmin dəyəri o qədər ucadır ki, insan ona görə hətta müxalif olduğu şəxsin yanına da gedə bilər. Bu bir məsələdir, elmdən başqa cəhətlərdə - siyasətdə, mədəniyyətdə və digər sahələrdə düşmənin təsiri altına düşmək isə başqa bir məsələ. Bizim üçün etdikləri ikincisidir. Dırnaqarası üçüncü dünya üçün istədikləri və planlaşdırdıqları ikincisidir. Təsadüfən birincinin baş tutmaması üçün işlər də görmüşlər.[1]

### Universitetdə İslamı birinci saymaq

Universitetdə mühüm məsələ ona hakim üsuldur. Universitetlərdə üsul və əlaqələr tamamilə İslam əsasında olmalıdır. Əlbəttə, böyük miqyasda belədir. Rektorlar universitetlərdə İslamı birinci bilməlidirlər. Universitet müsəlman və dindar mütəxəssislərin yetişdiyi yer olmasa, inqilabın istədiyi universitet olmaz. Bu da yalnız universitetlərdə bünövrə, üsul və sistemin İslam əsasında olması ilə mümkündür. Dərslər nə olur-olsun, müəllim kim olur-olsun, amma münasibətlər İslam münasibətləri

---

[1] Yenə orada.

olmalıdır. Yəni işçi, tələbə və müəllimlər birinciliyi İslama verməli və İslam hökmlərinə əməl etməlidirlər.[1]

**Universitetlərdə mənəviyyatı unutmayaq!**

Biz universitetlərdə mənəviyyatı unutmamalıyıq. Mənim sizə tövsiyə etməyim artıqdır, özünüz bilirsiniz ki, bütün sahələrdə sizə nə qədər güvənirəm. Lakin qorxum budur ki, bizim qəti və aydın prinsiplərimiz diqqətdən kənarda qala bilər.

Baxın, raket altında oturub müharibə, yaxud qeyri-müharibə üçün hansısa layihəni icra edənlər nə üçün bunu etdilər? Onları pul oturtmamışdı. Ehtiyatlı olun ki, onları orada oturdan amil universitetlərdə zəifləməsin. Siz həqiqətən bu məsələni də dərk etməlisiniz. Əlbəttə, mən buraya gələn İslam birliklərinə də bu sözləri deyirəm, Universitet Cihadına da, gələn deputatlara da. Onlar bu məsələlərə birbaşa məsuliyyət daşıyırlar. Lakin universitetlərin məsul şəxsləri olan sizlər, mənim fikrimcə, bu məsələdə onların hamısından çox məsuliyyət daşıyırsınız. Çalışın universitet daxilində bu mənəvi dəyərləndirmələr həqiqətən düzgün formada baş tutsun.

...Qoymayın bizim müsəlman tələbələrimiz xətt və cinah məsələləri üstündə bu qədər dalaşsınlar.[2]

**Şəhidlərin yolunun istiqamət seçilməsi**

Bizim üçün əhəmiyyətli olan budur ki, universitetlərdə, təhsil müəssisələrində, həmçinin bütün ölkədə istiqamət bizim fədakar və şücaətli şəhidlərimizin getdikləri və həvəslə can verdikləri istiqamət olsun. Kim hansı sahədə, hansı səviyyədə və ölkənin harasında olsa, bizim şəhidlərimizin hərəkət etdiyi inqilab və İslam istiqamətinin ziddinə bir iş görülməsindən ciddi şəkildə çəkinməlidir. Universitetlər də bu istiqamətdə olmalıdır, müxtəlif səviyyələrdə idarə və mərkəzlər də.[3]

---

[1] Hövzə və universitet tələbələri ilə görüşdə çıxışından: 1990.
[2] Mədəniyyət və Ali Təhsil Naziri və nazirliyin əməkdaşları ilə görüşdə çıxışından: 1990.
[3] Şahid məktəblərinin məzunları ilə görüşdə çıxışından: 1991.

**Mədəni İnqilab Ali Şurasının mühüm vəzifələrindən biri**

Mədəni İnqilab Ali Şurası tələbənin dindar, inqilabçı, siyasi məlumatlara malik və aktiv yetişməsini özünün mühüm vəzifələrindən və vacib işlərindən biri bilməlidir. Sizin görməli olduğunuz işlərdən biri budur. Əgər siz etməsəniz, bu xalqın düşmənləri onun əksini edəcəklər; necə ki, indi də etməkdədirlər.[1]

**Elmi elita ölkənin mənəvi sərvətidir!**

Elmi elita ölkənin mənəvi sərvətidir. Dünyada mənəvi sərvətlərə maddi baxış onların pula çevrilmə imkanını hesablamağa səbəb olmuşdur: bu elm nə qədər pula çevrilə bilər; bu incəsənət nə qədər pula çevrilə bilər. Lakin İslamda belə meyar yoxdur. Belə deyil ki, elmin, incəsənətin və digər mənəvi dəyərlərin pula çevrilməsi qadağan olunsun. Xeyr, elm rifah aləti, incəsənət həyatın rövnəqlənməsi və qiymətlənməsi vasitəsidir. Eybi yoxdur. Lakin buna baxmayaraq bu mənəvi sərvətin özünün də İslama görə uca dəyəri var. Yəni sənətkarın sənət əsərini kimsə tanımasa və ondan heç kəs istifadə etməsə də, ona sahib olmağın özü dini və mənəvi baxışda bir dəyərdir. Bu alim inkar olunsa da və elmini heç kəs tanımasa da, bu elmə malik olmanın özü bir dəyərdir. Düzdür ki, elm əməlin müqəddiməsidir. Düzdür ki, bilik bacarıq alətidir. Lakin bu bacarıq, bu əməl zəruri olaraq həmişə maddi sərvətə çevrilən deyil. Biz bu baxışı gücləndirməliyik.[2]

**Universitetlər və parlaq istedadlar üçün xüsusi mərkəzlər**

Universitetlərdə parlaq istedadlar üçün xüsusi mərkəzlər olmalıdır. Necə ki, biz 9-11-cisiniflərin parlaq istedadları üçün belə bir şey düzəltdik. Universitetlərin, tədqiqat mərkəzlərinin və bu işlərə sərf olunan büdcənin bir hissəsi istedadlara şərait yaratmağa ayrılmalıdır. Çünki onlara şərait yaratmaq öz növbəsində digərlərini həvəsləndirir, işə cəlb edir və elmi inkişaf dairəsini genişləndirir. Parlaq istedadı olub ali təhsil almış və indi ölkəyə qayıtmış şəxslə maraqlanmalı, ona diqqət yetirməli, yolunu açmalı

---

[1] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.

[2] Kerman vilayətinin elmi nümunələri ilə görüşdə çıxışından: 2005.

və onun üçün digərlərini gücləndirmək imkanı yaratmalıdırlar. Bu, əziz cənabların oturub proqram hazırlamalı olduğu işlərdəndir. Mən eşitdim ki, Şərif Sənaye Universiteti bu məsələ ilə məşğul olur, lakin bir universitet kifayət deyil, bütün universitetlər məşğul olmalıdır; Ali Təhsil qurumu mütləq bu məsələ ilə məşğul olmalıdır.[1]

**Tədqiqatın rolu olduqca böyükdür!**

Təhsilin kənarında tədqiqatın rolu olduqca böyükdür. Məsul şəxslər ona diqqət yetirməlidirlər.[2]

Universitetlərdə elmə, tədqiqata və praktik araşdırmalara şərait yaratmaq lazımdır.[3]

**Fəal tədqiqat mərkəzlərinin zəruriliyi**

Fikrimiz budur ki, elmi inkişaf və elmi tərəqqi ölkənin inkişafı üçün bütün əsaslı işlərin başında durmalıdır. Yəni ölkənin ən mühüm infrastrukturu elmli insan resursudur. Biz özümüzü elmi yoxsulluqdan xilas etməliyik. Bu bizim birinci və əsas işimizdir. Ötən iyirmi ildən artıq müddətdəki təcrübə bunu dəfələrlə sübut etmişdir.

Fəal tədqiqat mərkəzləri olmadan nə elm və nə texnologiya inkişaf edə bilər. Həm bizim universitetlərimiz, həm də universitetlərdən xaricdəki tədqiqat mərkəzləri inşallah himayə olunsunlar və qayğı görsünlər.[4]

**Universitet və sənayeni birləşdirmək**

Dediyim məsələ universitet və sənayeni birləşdirmək idi. Bu iş prezident aparatından başqa bir yerdə həyata keçə bilməz və mən xahiş edirəm ki, bunu bacardıqca tez görəsiniz. Əlbəttə, Təhsil və Sənaye nazirliklərinin hər birinin öz rolu olacaq. Lakin bu birləşdirmə Prezident aparatında və onun şəxsi nəzarəti altında olmalıdır. Elm və sənaye ilə tanış

---

[1] Ölkə üzrə elmi nümunələrlə görüşdə çıxışından: 1999.

[2] Tələbələr və universitet mənsublarının beyət mərasimində çıxışından: 1989.

[3] Mədəniyyət və Ali Təhsil Naziri və nazirliyin əməkdaşları ilə görüşdə çıxışından: 1990.

[4] Universitet müəllimləri ilə görüşdə çıxışından: 2005.

olan etimadlı bir şəxs - o bu iş üçün mərhum Doktor İbtikarı nəzərdə tutmuşdu, amma olmadı - Prezident aparatında oturub universiteti ölkə sənayesinə birləşdirməlidir. Bu iş həm ölkənin sənayesini inkişaf etdirəcək, həm də laboratoriyası və təcrübə meydanı olmayan elmi önündəki bəndi birdəfəlik götürəcək və möhtəşəm hərəkət başlayacaq.[1]

[1] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2001.

## Otuzuncu fəsil: Təhsil, təlim və tərbiyə

### Təhsil, təlim və tərbiyədə İslam etiqadı və əməli

Mənim fikrimcə, bu gün bizim təlim-tərbiyə qurumlarımızda hər şeydən vacib məsələ şagirdlərə İslam etiqadının və İslam əməlinin ötürülməsidir. İslam əməlinə və etiqadına qarşı laqeyd bir ailədən, yaxud laqeyd olmayan, lakin savadsız, düşüncə və mənəvi cəhətdən qüsurlu bir ailədən bir uşaq məktəbə daxil olduqda çatışmazlıqları düzəldilməlidir; yəni bu uşaq həm elm, həm əməl, həm də etiqad baxımından dindar bir insana çevrilməlidir. Məqsəd belə olmalıdır.

...Məktəblərdə uşaqlarımızın dini baxımdan – həm etiqadda, həm tərbiyə və əxlaqda, həm də əməli bəndəlikdə müsəlman yetişməsinə çalışmaq lazımdır. Bu çox vacibdir. Əlbəttə, elmsevərlik ruhiyyəsi İslam tərbiyələrindəndir. Yəni biz İslam əxlaqını aşılasaq, onda bu da olacaq. Elmi dərəcələr məsələsi də sizin əsas işlərinizdəndir; ona diqqət yetirmək lazımdır. Elmlərin bölgüsü, prioritetləri təyin etmək və bu gün, bu dövrdə, bu on, bu beş ildə şagirdlərin daha çox hansı elmlərə yönəldilməsi sizin ixtisaslı işlərinizdəndir. Bunu daha yaxşı bilirsiniz. Bu bizim üçün çox zəruridir. Yəni uşaqlar İslam vicdanı ilə tərbiyə olunmalıdırlar. Bu gün bu, aydın məsələdir.

...Məncə dərs vəsaiti hazırlamaqda, müəllim yetişdirməkdə, təlim və tərbiyənin müxtəlif sahələrinə nəzarətdə, müəllimlərə və məktəb daxilindəki işlərə nəzarətdə təlim və tərbiyə qurumunun proqramlarının sərlövhəsi bu olmalıdır ki, görsünlər İslam təfəkkürü köçürülür, yoxsa yox; bu məktəblərdə İslam əsasında insan və müsəlman yetişdirmək işi baş tutur, yoxsa yox. Bizim bu sahədə nə qədər çatışmazlığımız varsa, çalışıb aradan qaldırmalıyıq.[1]

### Məktəblərdə Tərbiyə bölməsinin qalmasının lazımlığı

---

[1] Təlim və Tərbiyə Naziri, müavinləri, müşavirləri və şöbə müdirləri ilə görüşdə çıxışından: 1992.

Şagirdlərin tərbiyəsinə çox əhəmiyyətli yanaşmaq lazımdır. Eşitdim ki, Təlim və Tərbiyə Nazirliyində Tərbiyə bölməsini Təlim bölməsi ilə birləşdirmək istəyirlər. Yəni müəllim sinifdə həm də tərbiyə etsin. Bu çox düzgün sözdür. Mən də düşünürəm ki, fizika, biologiya, riyaziyyat müəllimi, yaxud hər hansı bir müəllim bir sözlə, bir işarə ilə şagirdlərdə bəzən bir kitabın buraxmadığı təsiri buraxır və tərbiyə edir. Lakin bunun Tərbiyə bölməsi ilə ziddiyyəti yoxdur. Əlbəttə, bunu inkişaf və təkmil etdirin. İnkişaf hər halda yaxşıdır, durğunluq heç bir işdə yaxşı deyil. İnkişaf etmək, lakin qaydanı qorumaq lazımdır.[1]

**Uşaqları dindar yetişdirin!**

Əgər sizin müəllimlik işinizin Allah və gələcək nəsillər tərəfindən razılıqla qarşılanmasını, vəzifənizi yerinə yetirməkdə yaxşı sözlərlə yad olunmağınızı istəyirsinizsə, uşaqları dindar yetişdirin. Uşağı dindar yetişdirmək yalınız din müəlliminin işi deyil. Bir riyaziyyat, fizika, dil və ədəbiyyat müəllimi də yeri düşən bir məqama toxunmaqla və bircə mizrabla dini təfəkkürü şagirdinin qəlbinin dərinliyinə yerləşdirə bilər və onun yadından çıxmaz. O bəzən din müəllimindən də artıq təsir buraxa bilər. Din müəlliminin sinfə gəlməsi onun borcudur. Buna qarşı isə bütün uşaqlarda və insanlarda imtina haləti olur. Bu cənab gəlib tapşırıq vermək istəyir. Əgər çox gözəl nitqi, rəftarı, əxlaqı və tədris qabiliyyəti olsa, sözü bir qədər qəbul olunar; bunlar da olmasa, daha heç. Lakin bir fizika, riyaziyyat, kimya, ədəbiyyat, yaxud tarix müəllimi bəzən söhbət əsnasında yerində deyilən bir kəlmə ilə, həqiqətən bir kəlmə ilə uşağın, yeniyetmənin və gəncin ruhuna elə təsir buraxa bilər ki, onu sözün həqiqi mənasında dindar edər. Siz həm ibtidai, həm də orta məktəbdə bu işi görə bilərsiniz. Uşaqları dindar yetişdirin. Uşaqları dindar yetişdirmək bu ölkənin gələcəyini abadlaşdıracaq amildir.[2]

**Təlim və tərbiyə işinin bir fikir otağına ehtiyacı var!**

---

[1] Təlim və Tərbiyə Nazirliyinin məsul şəxsləri və müdirləri ilə görüşdə çıxışından: 2002.

[2] Kerman vilayətinin müəllimləri və mədəniyyət mənsubları ilə görüşdə çıxışından: 2005.

Təlim və Tərbiyə Nazirliyinin bu əzəmətli sahənin əsas məsələlərini həll etmək üçün avropalıların təbirincə desək, bir fikir otağına ehtiyacı var.

Təlim və tərbiyə işində qərarlar şəxsi üslubla verilməməlidir. Bir zaman məsələn, təlim və tərbiyə orqanının bir hissəsi belə düşünür ki, gənclərə cinsi təlimlər vermək lazımdır; Qərbə kor-koranə təqlid! Birdən görürük ki, bir tərəfdən bu sahədə yazı, kitab və broşür nəşr olunur. Bu məsələ üzərində harada düşünüldü, qərar verildi? Biz nə qədər Qərbin ardınca düşməliyik?! Qərblilərin uğursuz təcrübələrini nə qədər gözübağlı yamsılamalıyıq?! Məgər onlar cinsi hissləri oyatmaqdan xeyir gördülər?! Bu məsələdə aciz qalmışlar. Din və dini təlimlər bizim qadınımızın, kişimizin, gəncimizin və qocamızın üzərinə iffət və məsumluq pərdəsi salmışdır. Gəlib öz əlimizlə bu pərdəni götürək?! Bu hansı düşüncə və məntiqə uyğun gəlir?!

Yaxud bir tərəfdən biri qalxıb məsləhət görür ki, ibtidai məktəb uşaqlarına birinci sinifdən, yaxud hətta hazırlıq dövründən ingilis dilini öyrətməliyik. Nə üçün? Böyüyəndə kimin ehtiyacı olsa, gedib ingilis dilini öyrənər. İngiltərə və ABŞ dövləti nə qədər pul xərcləməlidir ki, öz dilini əcnəbi bir xalqın arasında belə asanlıqla yaya bilsin. Fars dilinin yayılması üçün bizim dünyada nə qədər problemimiz var! Bizim mədəniyyət evimizi bağlayırlar, kadrımızı terror edirlər, mədəniyyət mərkəzlərimizin önündə min cür əngəl törədirlər. Nə üçün? Çünki orada fars dilini öyrədirik. Lakin biz gəlib öz əlimizlə pulsuz-parasız bu dilin sahiblərinin xeyrinə və onların mədəniyyətinin köçürülmə amili olan bu işi görək? Əlbəttə, mən xarici dilin öyrənilməsi ilə tam razıyam. Bir dil yox, on dil öyrənsinlər, nə eybi var?! Lakin bu iş cəmiyyətin mədəniyyətindən olmamalıdır.[1]

**İstedadlara qayğının zəruriliyi**

Bu yüksək istedadlardan ötrü iş məsələlərində bizim də mahir işçimiz və yaradıcılığımız olmalıdır. Bizim iş mühitlərimiz fəal, bacarıqlı və işbilən qüvvələrlə dolmalıdır; nə iş gördüyünü bilməyən işçilərlə yox. Məsul şəxslər yenilik və yaradıcılıq şəraitini təmin etməli və günbəgün

---

[1] Yenə orada.

yüksəltməlidirlər. Düzdür, çoxlu işlər görülmüşdür, demək istəmirik ki, görülməyib, lakin bunu çoxaltmalı və bu istiqamətdə sürəti artırmalıyıq.

Təlim və tərbiyə sahəsində də belədir. Məktəblərdə elə iş görmək lazımdır ki, milyonlarla yeniyetmə və gənc arasında hətta bir istedad da hədər getməsin. Yəni bizim orta təhsil həddimizdə - dərs oxunan bu on iki ildə kim dərs oxuyursa, istedadı hədər getməsin. Ondan sonra bəziləri universitetə, bəziləri peşə sahələrinə gedə bilərlər. Eybi yoxdur, hamısı da yaxşıdır. Lakin bu müddətdə bütün istedadlar çiçəklənməlidir. Bu iş üçün çalışmalıdırlar. Adi vəziyyəti qorumaq, yaxud kəmiyyətlərlə məşğul olmaq isə bu iki sahənin məmurlarının əsas işi deyil. İş sahəsində məsələn, peşələri çoxaltsınlar, rəngarəng etsinlər və inkişaf etdirsinlər. Bizim bu iki sahənin məmurlarından gözləntimiz budur. Həm də bu sahələrdə bizim tövsiyə etdiklərimiz yalnız bu iki sahəyə aid deyil, bütün ölkəyə aiddir və bütün ölkə üçün faydalı olacaq.[1]

### Fəal təlim və tərbiyə

Müəllimin, təlim və tərbiyə mərkəzinin əsaslı rolu olmadan cəmiyyətdə heç bir müsbət, yaxud mənfi dəyişiklik baş verməz. Əgər təlim və tərbiyə toplumu fəal, həvəskar, öhdəlikli, məsuliyyətli, yaradıcı, alim və məqsədli bir toplum olsa, bütün ölkədə güclü təsir buraxacaq.

Əgər özünə inanan, ictimai nizam-intizamlı, məsuliyyətli, böyük işlərə bacarıqlı və qabiliyyətli, kreativ, böyük cəmiyyət ailəsi daxilində mehriban, komplekssiz, fədakar, zəhmətkeş, israfdan uzaq bir nəslin yaranmasını istəyiriksə, cəmiyyətin ümumi mədəniyyətinin bu səmtə hərəkət etməsini istəyiriksə, (bilin ki,) bunun yolu və açarı təlim və tərbiyə qurumlarındadır. Belə bir nəsil tərbiyə etmək üçün məktəblər münasib olmalıdır.[2]

### Qədirbilənlik və dəyərləndirmə

Məişət məsələsi bir zərurətdir, lakin hər şey deyil. Məişət məsələsindən daha əhəmiyyətli olan qədirbilənlik və dəyərləndirmədir.

---

[1] Fəhlə və Müəllim günləri ərəfəsində müəllim və fəhlələrlə görüşdə çıxışından: 1997.

[2] Kerman müəllimləri və mədəniyyət mənsubları ilə görüşdə çıxışından: 2005.

Cəmiyyətdə müəllimin məqamı elə olmalıdır ki, bir gəncdən "siz gələcəkdə nəçi olmaq istəyirsiniz?" - deyə soruşsalar, deməlidir ki, müəllim; fəhlənin məqamı, vəziyyəti və şərafəti elə olmalıdır ki, əgər bir gəncə, yaxud uşağa "siz daha çox hansı təbəqənin dəyərini və minnətini qəbul edirsiniz?" - desələr, cavab verməlidir ki, fəhlənin.[1]

**Ölkə inkişafında müəllimin rolu**

Siyasi və mədəni inkişaf nə deməkdir? Siyasi və mədəni inkişaf odur ki, insanlar cəmiyyətdə düzgün düşünə, düzgün anlaya və düzgün öyrənə bildiklərini hiss etsinlər. Əgər bir ölkə buna nail olsa, təxribat və azdırmalar ona təsir etməz. O yaxşı bir şeydir, lakin qalmaqalla, səs-küylə, qəzetbazlıq və bu kimi işlərlə düzəlməz, müəllimin əli ilə düzələr. Siyasi və mədəni inkişafın əsasını müəllim qoyur. Siz öz məktəblərinizdə uşağı 7 yaşında təhvil alır, 18-19 yaşında universitetə təhvil verirsiniz. Bu uşağın ömrünün ən əhəmiyyətli dövrü siz müəllimlərlə keçir. Ölkə və cəmiyyət bu məsələnin əhəmiyyətini nəzərə almalıdır. Yaxşı əxlaq xüsusiyyətlərini uşaqda yarada bilən, ona yaxşı bilgilər, düşünməyi və fikir müstəqilliyini öyrədə bilən, batil qarşısında və haqq yolunda mübarizə ruhu aşılaya bilən şəxs müəllimdir.

Mənim əzizlərim! Əziz müəllim və müəllimələr! Sinifdə təkcə dediyiniz dərs yox, saldığınız nəzər, etdiyiniz işarə, təbəssüm, göstərdiyiniz qaşqabaq, etdiyiniz hərəkət və geyindiyiniz paltar da şagirdə təsir buraxır. Biz özümüzə müraicət etdikdə, ən dərin hiss, duyğu və halətlərimizin kökünü axtardıqda, xəttin sonunda bir müəllim görürük. Bizi şücaətli, yaxud qorxaq, səxavətli, yaxud xəsis, fədakar, yaxud eqoist, elmli, dərrakəli və mədəniyyətli, yaxud durğun və qapalı fikirlərə meylli yetişdirən müəllimdir. Müəllim bizi dindar, təqvalı, iffətli, yaxud Allah eləməmiş, fəsadçı yetişdirə bilər. Müəllimin belə bir rolu var. Müəllim bu qədər dəyərli, təsirli, gələcək nəslimizin, cəmiyyətimizin, uşaqlarımızın və gələcək tariximizin əsas həyati məsələlərində həlledicidir.[2]

---

[1] Fəhlə və Müəllim Günü münasibəti ilə müəllim və fəhlələrlə görüşdə çıxışından: 1999.
[2] Yenə orada.

## Otuz birinci fəsil: İdman

**İdmanın gənclər üçün lazım, böyüklər üçün isə vacib olması**

Mən idmanı bütün xalq üçün lazım bilirəm. Mən idmanı gənclər üçün lazım, gənc olmayanlar - orta yaşlılar və qocalar üçün isə vacib bilirəm. Odur ki, idman gənclər üçün lazımdırsa, bizlər üçün vacibdir. Bu, orta yaşlılar üçün ölüm-dirim məsələsidir. Yəni əgər idman etsələr, sağlam həyatları olar və yaşayarlar. Əgər idman etməsələr, xəstələnər və ruhdan düşərlər. Əlbəttə, idman gənclər üçün də lazımdır. Onlar idmanla məşğul olsalar, sağlamlıqları, gümrahlıqları və gözəllikləri qorunar. Mən bütün xalqa, qadın və kişilərə özlərinə uyğun idmanı lazım bilirəm.

İdman zəruri olaraq peşəkar idman və yarışlarda iştirak etmək demək deyil. Bəziləri elə bilirlər idmançı olmaq üçün mütləq yarışlarda iştirak etməlidirlər. Əgər qadınların idman etməsini istəyiriksə, mütləq yarışlarda iştirak etməlidirlər? Xeyr, xörək yedikləri, gündəlik işlərini gördükləri, dərs oxuduqları kimi idman da etsinlər. İdman həyatlarının zəruri proqramlarından biri olmalıdır.[1]

**Peşəkar idmanın əhəmiyyəti**

Digər tərəfdən, düşünürəm ki, peşəkar idman da lazımdır. Əgər peşəkar idman olmasa, ümumi idman ümumiyyətlə, həyata keçməz. Həmişə bir zirvəmiz olmalıdır ki, aşağısında çoxlu insanlar hərəkət etsinlər. Odur ki, peşəkar idman bu baxımdan vacib və lazımdır. Əlbəttə, peşəkar idmanın və beynəlxalq yarışlarda iştirak etməyin digər faydaları da var və bu, xalqın başucalığı və şöhrətidir.

...Bir müddət öncə ölkənin idman məmurları və bəzi idmançılar burada idilər. Onlara dedim ki, ölkəmiz beynəlxalq idman yarışlarında son sıralarda durmamalı, müxtəlif idman növlərində ilk üç ölkədən biri olmalıdır. Demirəm ki, mütləq birinci, yaxud ikinci olsun; xeyr, lakin əvvəllərdə durmalıdır. Səbəbi budur ki, bizim bu sahədə çox qədim

---

[1] Gənclərlə sual-cavab məclisində söhbətlərindən: 1999.

keçmişimiz var. Bizim sağlam gənclərimiz, fiziki inkişafa əlverişli su və havamız, istedadlı insanlarımız var və biz inkişaf etməliyik.[1]

**Yerli idmanların əhəmiyyəti**

Bizim yerli idmanlarımız - qədim mədəniyyətimizə aid idmanlar təəssüf ki, tərk edilmişdir və əlimizdə deyil. Bizim ölkəmizdə çoxlu idmanlar tərk olunmuşdur və mən həmin görüşdə onların adlarını çəkdim. Biz yeni idmanlar da ixtira edə bilərik. Bir gün dünyada futbol yox idi, amma onu yaratdılar. Bir gün basketbol yox idi, yaratdılar. Buna əsasən, nə üçün bizim idmançı və idman mütəxəssislərimiz yenilik yaratmasınlar? İndi yenilikdən söhbət düşdü. Yenilik sahələrindən biri idmandır. Yenilik etsinlər; həm idman məsələlərində, həm də idmanın özündə yeni işlər görsünlər.

Ümumi idmanda əsaslı addımlar atmalıyıq. Bu söhbətləri gənclər və bütün xalq eşidəcək. Mən həqiqətən hamını idman etməyə çağırıram. Mən bəzən səhərlər Tehranın şimalındakı yüksəkliklərə gedirəm. Bəzən görürəm ki, ora boşdur. Doğrudan da kədərlənirəm. Bəzən də cümələr qələbəlik vaxtı gedirəm, görürəm ki, çox adam var və sevinirəm.[2]

**Bir neçə idman sahəsinə sərmayə qoyuluşunun zəruriliyi**

Mən idman üzrə məsul şəxslərə tövsiyə etdim, yenə də tövsiyə edirəm ki, bizim məntiq və mədəniyyətimizə görə mənası və məzmunu olan bir neçə münasib idman sahəsini seçib üzərində sərmayə qoyun. Məqsədim yalnız maddi yox, həm də mənəvi sərmayədir. Yəni iradə ilə çalışın, lazımi səy göstərin və yaxşı seçimlər edin ki, gənclərimiz bu idman növlərində dünyada birinci olsunlar. Bu idmanların bəzisi tariximizdən bizə yadigar qalan mənşəcə İran idmanlarıdır. Bəzi idmanları da digərlərindən öyrənmişik, amma onları bəyənirik; məsələn, kollektiv idmanları, döyüş idmanlarını. Bunları seçsinlər, bunlar üçün proqram hazırlasınlar və işləsinlər.[3]

---

[1] Yenə orada.

[2] Yenə orada.

[3] Ölkə əlillərinin mədəni-idman manevrinin açılış mərasimində çıxışından: 1997.

**Yerli idmanlarımızı elmiləşdirin!**

Bu gün bir çox idman növləri dünyada elmi formaya düşmüşdür. Mən hətta bir dəfə tövsiyə etdim ki, yerli idmanlarımızı elmiləşdirin. Bizim çoxlu yerli idmanlarımız var. Biz bunları qaydalı və elmi edə, bu idman növünə həvəsi olan gəncləri qayda-qanunla və nizam-intizamla inkişaf etdirə bilərik. İnsanın istedadları olduqca çoxdur. Biz idman ixtira edə bilərik.[1]

**Qadınların idmanında İslam qanunlarına riayət etməyin zəruriliyi**

Qadınların idmanı barədə fikrim budur ki, qadınların idmanına həqiqətən əhəmiyyətli yanaşılmalıdır. Bu məsələdə qadın və kişi arasında heç bir fərq yoxdur. İdmanda bizim fəlsəfəmiz mənim dediyimdən - yəni ümumiləşdirmək və idmandan irəli gələn ruhi gümrahlığa və fiziki sağlamlığa malik olmaqdan ibarətdirsə, bunda daha qadın və kişi fərqi yoxdur. Təkcə əzələ şişirtmək deyil ki, bunun qadınlar üçün lazım olmamasını deyək. İdman fiziki sağlamlıq və psixoloji gümrahlıq üçündür və bu, qadın və kişi üçün eynidir. Qadınların idman imkanlarını çoxaltmaq lazımdır. Lakin qeyd etdiyim kimi, çoxlu xalqlara məcburən yeridilən səhv beynəlxalq ənənə budur ki, qadınların idmanı mütləq mənfi cəhətlərlə yanaşı olmalıdır. Yaxşı, siz yanaşı etməyin və elə edin ki, bizim qadınlarımız onlar üçün əhəmiyyətli olan nəcibliklə, mətanətlə, vüqarla, İslam və şəriət qaydalarına riayət etməklə yanaşı, müxtəlif sahələrdə idman etsinlər.[2]

**İdmanda mənəviyyatı gücləndirin!**

Mən həm federasiyalara, həm Bədən Tərbiyəsi Komitəsinin özünə, həm də haradasa gördüyüm hər bir idmançıya tövsiyə edirəm ki, mənəvi cəhətlərə riayət etsinlər. Bu yalnız quru və içiboş dinbazlıqdan ötrü deyil. Bu ona görədir ki, mənəvi dəyərlərə inam və etiqadın arxasında bir imtiyaz və parlaqlıq mövcuddur. Bu, insanın qəlbini sevindirən, ona ümid verən,

---

[1] Nümunə idmançılarla görüşdə çıxışından: 2003.

[2] Yenə orada.

onun Allaha yaxınlaşmaqdan ibarət vəzifəsini bütün sahələrdə, hətta idmanda da qoruyan amilə sadiqlikdir.[1]

**İdmanda İslam mədəniyyəti ab-havasının yaradılması**

İranlı cəmiyyətin tələbi var, istedadı var. Hansı idman növünə diqqət yetirilməlidir? Hansı ruhiyyə və ardıcıllıqla? Mən bir-iki öl öncə bu mövzuda ölkənin idmançıları və idman üzrə məsul şəxsləri ilə geniş söhbət etdim. Mənim fikrim budur ki, biz bu sahəyə sərmayə qoysaq, düzgün işlər görsək, şübhəsiz, dünyanın idman yarışmalarında da, müharibədə dünyanın modern imkanlarından təxminən məhrum olan Bəsic üzvlərimizin və hərbi qüvvələrimizin vasitəsi ilə görülən iş baş verəcəkdir. Gördünüz ki, müharibədə nə etdilər və necə şərəfli tarix yazdılar! İndi də əlillərin voleybol yarışında həmin hadisə baş vermişdir. Bu qardaşlar davamlı olaraq uğur qazanırlar.

...Biz bütün idman sahələrində nümunə ola bilərik. Heç bir səbəb yoxdur ki, biz futbolda, voleybolda, atçılıqda, yaxud bəzi ənənəvi yarışlarımızda, məsələn, çövkən oyununda, fərdi döyüş idmanlarında, üzgüçülükdə dünyanın görkəmli idmançıları ilə yarışa girə bilməyək. İndiki xoşagəlməz vəziyyətin yaranmasına səbəb odur ki, tərbiyə, inkişaf və texniki fənddən istifadə üzərində proqram hazırlanmamışdır. Bu bir nöqsandır.

Bu nöqsanla tamamilə əlaqədar olan ikinci nöqsan idmanda mənəvi və mədəni ab-havanın çatışmazlığıdır. Yəni idmana dini və sağlam mədəni mühitin hakim olmasına çalışılmamışdır. Demək istəmirəm ki, bizim idmançılarımız yaxşı insanlar deyillər. Xeyr, onların arasında çox yaxşı, mömin və təqvalı insanlar var. Lakin bundan da əhatəli olmalıdır. Bizim idman mühitimiz iffətli mühit olmalıdır. İffətin çox qəribə və geniş mənası var. Bir insanın mənəvi sağlamlığı hər bir yerdə özünü göstərir. İdman mühiti iffətli mühit olmalıdır. Onda veyllik, pintilik və hər hansı bir iffətsizlik müşahidə olunmamalıdır. Biz idman mühitimizdə bu şəraiti yaratmalıyıq. Əgər belə olsa, dünyada parlayacaq və bizim idmanımız ulduz olacaq.

---

[1] Yenə orada.

Siz baxın, bizim beynəlxalq festivallara çıxan filmlərimizin hakim və tamaşaçılar üçün daha maraqlı cəhəti hələlik onlarda olan iffətdir. Bəzi rejissor və prodüserlər bunu təbii şəkildə edirlər, bəziləri də məcburən edir, qadın-kişi səhnələrini və ailə münasibətlərini İslam Respublikası şəraitinin bəyəndiyi formada hazırlamağa məcbur olurlar. Bunlar dünyada gül kimi açır.

Çoxlarının təsəvvürünün əksinə olaraq, dünya bu pozğunluqlardan, tüfeylilik və avaralıqdan xoşlanmır, yorulmuşdur. Xalqımızın təbiətində olan iffət, nəciblik, sağlamlıq, həya və digər belə xüsusiyyətləri İslam da tövsiyə etmişdir. Biz bunu idman mühitinə və digər yerlərə hakim etməliyik. Bu, mənəvi-mədəni idman mühiti olacaq. Siz də mədəni-ideoloji hücuma qarşı tədbir məqsədilə öz mədəniyyətimizdən istifadə etməyin lazım olduğunu deyirsiniz. Tamamilə düzgündür.

Buna əsasən, əgər idman üzrə məsul şəxslər bu iki məsələni diqqətdə saxlasalar - yəni bir tərəfdən elmi cəhətdən, idman üçün hərtərəfli dəqiq proqram hazırlamaq, seçim, texnika, tərbiyə, məşq baxımından və digər tərəfdən idmanın mədəni mühiti ilə maraqlanmaq baxımından diqqətdə saxlasalar, düşünrəm ki, bizim idman mühitimiz çox yaxşı inkişaf edəcək.[1]

---

[1] Gənc Günü münasibətilə gənclərlə görüşdə çıxışından: 1998.

## Otuz ikinci fəsil: Düşmən

**Düşmənlər qarşısında daha artıq çalışmağın zəruriliyi**

Mən ölkənin cari işlərinin tənzim və idarəsində böyük, yaxud kiçik rolu olan bütün şəxslərdən, fəhlələrdən, texniki qüvvələrdən, əkinçi və kəndlilərdən, məmurlardan və dövlət işçilərindən, böyük din alimlərindən və möhtərəm ruhanilərdən, universitet mənsublarından və tələbələrdən, tacirlərdən, yazıçı və natiqlərdən, sənət adamlarından, silahlı qüvvələrdən və polisdən, inqilab orqanlarının məsul şəxslərindən və digərlərindən səmimi şəkildə istəyirəm ki, bu gün düşmənlərin bizə qarşı fəaliyyətinin artdığına görə, onlar da öz iş və fəaliyyətlərini artırsınlar, saflıq, səmimilik, əməkdaşlıq və sayıqlıq şəraitində düşmənləri İslam Respublikasına hücumdan məyus etsinlər. Xüsusən də hər biri ölkə quruculuğunun beşillik proqramı ilə bir növ əlaqədə olan möhtərəm hökumətdən və İslam Şurası Məclisindən istəyirəm ki, bu məsələyə yetərincə əhəmiyyətli yanaşsınlar.[1]

**Daxili düşmənlərdən ehtiyatlı olun!**

İslam dövlətinin iki qrup düşməni var. Bir qrup düşmən tanınmışdır. Dünyanın bütün istismarçı və diktatorları bəlli dəlillərə əsasən İslam dövlətinə düşməndirlər. Çünki İslam dövləti istismarçılıq və diktaturaya müxalifdir. Elələri var ki, dinə, yaxud dinin ictimai həyata müdaxiləsinə qarşıdırlar, necə deyərlər, sekulyardırlar. Bunlar da İslam dövlətinə müxalifdirlər. Deyirlər ki, iqtisadiyyat dindən ayrılmalıdır, siyasət dindən ayrılmalıdır, sosial məsələlər dindən ayrılmalıdır, ümumi xalq fəaliyyətləri dindən ayrılmalıdır. Müxalifətlər də böyük miqyasda baş verir; müxalif olmaqdan müxalifət etməyə və ciddi qarşıdurmalara qədər. Beynəlxalq mütriflər - yəni nefti və dünyanın əsas sərvətlərini əllərinə keçirmək istəyən və bunun üçün maksimum elmi və praktik fəaliyyət göstərən böyük beynəlxalq oliqarxlar da İslam dövlətinin xarici düşmənlərindəndir. Dedik ki, düşmənlər zəruri olaraq düşmənlik etmirlər; onların bəzisi

[1] Şərafətli İran xalqına müraciətdən: 1989.

düşməndirlər, bəzisinin düşmənliyi müxalifət və etiraz formasındadır, bəzisi meydana atılıb vuruşurlar. Buna görə, müxtəlif qisimli düşmənlik mövcuddur və hər biri ilə bir cür rəftar etmək lazımdır.

İkinci qrup daxili düşmənlərdir; yəni təhlükə, xəstəlik və mikroblar. Bizim ölümümüz digərinin öldürməsindən daha çox öz daxilimizdə ixtilafın vücuda gəlməsindən irəli gəlir. Ölüm çox zaman virusdan, mikrobdan, xəstəlikdən və xərçəngə səbəb olan pozulmuş hüceyrədən baş verir. Bir başqasının insanı öldürməsi az olur. İslam dövləti də belədir. Onun daxili düşmənlərindən ehtiyatlı olmalıyıq. Bunlar təhdidlərdir.

Bu təhdidlərin bir-ikisini deyim. Söhbətin əvvəlində bu təhdidlərin bir hissəsinə işarə vurdum. Qafil olmağın və yoldan yayınmağın təhdidlərindən biri budur ki, biz dini ədəbiyyatı qəlizləşdirək, lakin əməldə qarşılığı olmasın. Bu bizi həm riyakarlığa çəkir, həm də riyakarlığı təbliğ edir. Mən dini ədəbiyyatın gücləndirilməsinə qarşı çıxmıram, lakin onun qarşılığı olmalıdır. Rəftarımızda İslama uyğun əməl etməkdən çox dildə, sözdə və görkəmdə özümüzü göstərməməliyik. Formaya məzmundan artıq əhəmiyyət vermək uyğun bəlalardandır.

Məzmunu İslama uyğunlaşdırmaq lazımdır. Əgər həqiqətən islamçı olmaq istəyiriksə, idarə tərzimizdə dəyişiklik etməlyik. Cənab prezidentimizin seçki təbliğatında dediyi yaxşı sözlərdən biri - mənim fikrimcə, bu söz çoxlarını cəlb etdi - idarəçilikdə yenilik idi. İdarəçilikdə yeniliyi kim etməlidir? Bizim özümüz etməliyik. Yenilikdə birinci addım budur ki, rəftarımız, işimizin keyfiyyəti, işə təyin etməmiz və işdən çıxarmamız, idarəçiliyimiz, yaratdığımız rəğbət, göstərdiyimiz yumşaqlıq və tərəf-müqabilimiz olan təbəqələrlə rəftarımız İslama uyğun olsun. Mən dedim ki, praktik qarşılıq olmadan dini ədəbiyyatı qəlizləşdirmək zərərlidir. Bu, ətrafda İslam bayraqlarını və İslam əlamətlərini xalqın arasından götürmək istəyən bəzi adamların işi ilə səhv salınmasın. Xeyr, mən bunu demirəm. İslam əlamətlərini əsla zəiflətmək olmaz: "Və hər kəs Allahın əlamətlərinə hörmət etsə, bu, şübhəsiz ki, qəlblərin təqvasındadır". Ümumiyyətlə, əlamətləri göstərmək, ortaya qoymaq və göz önündə saxlamaq lazımdır. Əlamətləri əsla zəiflətmək olmaz. Bəziləri "biz riya adamı deyilik və özümüzü göstərmək istəmirik" - deyə İslam əlamətlərini,

İslam atributlarını, İslam simasını, çöhrəsini, rəftarını və İslam bayraqlarını özlərinin və xalqın həyatından yığışdırırlar. Xeyr, mən əsla bunu tövsiyə etmirəm, hətta əksinə, tövsiyə edirəm ki, bunları qorumağa çalışın. Lakin canamazı suya çəkiriksə, o canamazın üzərində həqiqətən namaz da qılaq. İnsan canamazı suya çəksə, amma üstündə namaz qılmasa və bir kənara atsa, faydası yoxdur.

Bəzən deyirlər ki, siz ehkamçısınız və Taliban kimi rəftar edirsiniz. Bu sözlərə çox da əhəmiyyət verməyin. Bu sözlərdən həmişə demişlər və deyirlər. Biz Taliban növlü hər bir hərəkət və təmayüllə kökündən müxalifik. Onlar ümumiyyətlə, ağla müxalifdirlər. Onlar ehkamçı idilər. Təsadüfən, ibadətçi və sadiq cinahın qarşısında dayanan şəxslər bir cəhətdən ehkamçılığa və talibanizmə daha yaxındırlar. Çünki onlar da Qərb təlimlərini və dərslərini doqma kimi qəbul edirlər. Qərblilər nə desə, yüz faiz əməl etməlidirlər. Bu, ehkamçılıq deyil? Ehkamçılıq budur. Üstəlik, qərblilərin yeni sözlərini bizə çatdırmırlar, 19-cu əsrin köhnəlmiş və qüvvədən düşmüz sözlərini gətirib cəmiyyətdə ortaya qoyurlar. İstər siyasətdə, istər əxlaqda, istər dində, istər hökumət formasında, istər iqtisadiyyatda doqmatik və təəssübkeş şəkildə dayanırlar. Bu ki daha çox talibançılıqdır. Ümumiyyətlə, talibanizmin simvolu ehkamçılıqdır. Ağıldan uzaq olmanın əlaməti budur. Biz ağlı tövsiyə edirik, Quran əvvəldən ağıl və məntiq üzərində dayanmışdır.[1]

**Düşmən kimdir?**

Düşmən kimdir? Kim müstəqil və dini xalq hakimiyyətinə müxalif olsa, düşməndir. Tamahkarlar, soyğunçular, mənfəətpərəstlər, sərvət toplayanlar, hegemonlar, asılılar, fəsada meylli şəxslər və dini mədəniyyətin hakimiyyətindən şəxsi zərər görənlər düşməndirlər.[2]

**Böyük gücün xüsusiyyəti**

---

[1] Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2005.

[2] 19 Dey (9 yanvar) münasibəti ilə Qum əhalisinin müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 2000.

Bu gün müttəfiq qüvvələr onların güc kəməndindən azad yaşamaq istəyən bir dövləti və xalqı görməyə, qəbul etməyə, yaxud eşitməyə hazır deyillər. Onlar üçün bir xalqın müstəqilliyi söyüşə bənzəyir. Buna görə də dözmək istəmirlər. Əgər bir xalq "bizim işlərimizə müdaxilə etməyin" - desə, sanki onlara söyüş vermişdir.

Böyük gücün xüsusiyyəti belədir ki, dünya xalqlarına heç kəsin onun qarşısında müqavimət gücünün olmadığını qəbul etdirmək istəyir. Bir dəfə bir neçə il bundan öncə dedim ki, böyük güclər pulları və silahları ilə yaşamaqdan və güclərini göstərməkdən çox heybətləri ilə yaşayır, fərman verir və hökmranlıq edirlər.

Qardaşlar! Bunların hamısı mənə və sizə öyrədir ki, İslam quruluşunu daha çox rəğbət və ümidlə gücləndirək və məqsədlərimiz yolunda irəliləyək. Kim harada dayanmışdırsa, oranı möhkəm, sədaqətlə və diqqətlə qorusun.[1]

**Sionistlər - İran xalqının əsl düşmənləri**

Düşmənlərin bütün ədavətli və xəbis hücumuna məruz qalan bir ölkə üçün xalq qüvvələrinin səfərbərliyindən başqa çıxış yolu yoxdur. Əgər xalq qüvvələrinin səfərbərliyi olmasaydı, Böyük İmam bütün ölkənin - müxtəlif dillərdə danışanların, sərhədçilərin, əşirətlərin, gənclərin, universitet mənsublarının, ruhanilərin, şagirdlərin, qocaların, qadınların, gənc qızların və digər təbəqələrin idarəsi üçün xalqın iman və eşqindən istifadə etməsəydi və bu fəal qüvvənin möhtəşəm izdihamını vücuda gətirməsəydi, şübhəsiz, İslam Respublikası bütün bu təxribatların, xəbisliklərin, düşmənliklərin, yaradılan problemlərin qarşısında müqavimət göstərə bilməzdi.

...İslam Respublikası quruluşunun və İran xalqının qarşısında dayanan əsas düşmən əvvəla sionistlərdir. Onlar bilirlər ki, xalqımıza görə onların Fələstindəki işğalçı rejimi qeyri-məqbul, qeyri-rəsmi və məhvə doğru gedən bir rejim olmuşdur. Düşmənliklərin çoxu da onların tərəfindəndir. Sionist oliqarxlar dünyanın hər yerində, xüsusən də

[1] İran İslam Respublikası ordusunun Hərbi Hava Qüvvələrinin şəxsi heyəti ilə görüşdə çıxışından: 1990.

Amerika və Avropada fəaliyyət göstərirlər. Radiolar, qəzetlər, kütləvi informasiya vasitələri və bir çox imkanlar onların ixtiyarındadır, müqəddəs İslam Respublikası quruluşu və İran xalqı əleyhinə fəaliyyət göstərirlər. Digər düşmən də ABŞ rejimidir. O da əslində, həmin pulun o biri üzüdür. Bu düşmənlik də ondan ötrüdür ki, ABŞ-ın İranda nəzərdə tutduğu və yaratdığı böyük iqtisadi, siyasi və hərbi baza əlindən çıxmışdır.[1]

**Şəxsi və əxlaqi fəsad - ən böyük düşmən**

Ölkələrin və xalqların ən böyük düşməni şəxsi, əxlaqi və mühüm səviyyələrə hakim olan fəsaddır. Çox zaman ABŞ-ın və dünyanın digər istismarçı ölkələrinin casus şəbəkələri öz təsirləri altında olan ölkələrin nüfuzlu şəxslərini bulaşdırmaq və fəsada çəkmək üçün bəzi zəif nöqtələr tapmağa çalışırlar.[2]

**Düşmənin məqsədlərini öyrənmək**

Canlı və inkişaf halında olan bir xalqın quruculuq, elmi inkişaf və böyük işlər kənarında mütləq diqqət yetirməli olduğu işlərdən biri hər bir mərhələdə düşmənin məqsədlərini bilməkdir. Bu, canlılığın xüsusiyyətidir. Elə bir xalq fərz etmək olmaz ki, böyük amalları olsun və böyük işlər görmək istəsin, ancaq düşməni olmasın.

...Düşmən mərhələli şəkildə üç məqsədi izləyir. Birincisi milli birliyi pozmaqdan ibarətdir; xalqımızın milli birliyini qırıb dağıtmaq istəyir. İkincisi xalqın qəlbindəki imanı və təsirli inancları məhv etməkdir; yəni bu xalqı geriqalmış və başıqapazlı bir vəziyyətdən dünyada qabaqcıl, qorxmaz və imkanlı bir xalqa çevirən iman və inancları məhv etmək. Bu hərəkət bəzi etiqad və inamlarla baş verdi. Bu inamlar olmasaydı, insanlar və bu xalq inkişaf etməzdi. Düşmən bu inamları xalqımızın beynindən çıxarmaq istəyir. Üçüncüsü ümid ruhunu və xalqın təsəvvüründə olan gələcəyi pozmaqdır. Deməli, düşmən üç təxribat planlaşdırmışdır: milli birliyi pozmaq, təsirli və müqavimət aşılayan inamları məhv etmək və ümid

---

[1] Ölkənin Bəsic üzvləri ilə görüşdə çıxışından: 1996.

[2] Aviasiya universitetinin tələbələrinin məzuniyyət tədbirində çıxışından: 1994.

ruhunu öldürmək. Bu işlərin adını da islahat qoyur. Mənim qafil dost və doğmalarla işim yoxdur. Mən hərəkətin zirvəsi və sərhədlərdən xaricdəki düşməndən danışıram.[1]

**Quruluşun zirvəsində ixtilaf yaratmaq**

Düşmənin məqsədi təkcə siyasi cinahlar arasındakı siyasi ixtilafları qızışdırmaq deyil, quruluşun zirvəsində ixtilaf və ikilik yaratmaq və parçalamaq da onun mühüm məqsədidir. Yəni quruluşun başında və qərar mərkəzində heç bir məsələdə razılığa gələ bilməyən iki ziddiyyətli fikir mövcud olsun. Bu layihə üzərində işləmişlər. Bəziləri də daxildə bunun baş tutması üçün təzyiq göstərdilər.[2]

**Hegemonizmin İslam və inqilaba düşmən olması**

Demək istədiyim əsas məqam budur ki, İslamla və İslam inqilabı ilə düşmən olan hegemonizm həmişə və hər zaman bir formada faciə yaratmaq fikrindədir. Həmişə bu faciələrdə onun aləti olan şəxsləri tapır. Bir gün münafiqləri tapdı, Rəcai və Bahünərin şəhadətini və digər faciələri törətdi. Bir dəfə İraq rejimini tapır və səkkizillik müharibə törədir. Hegemonizm, ABŞ və bütün vücudu ilə İslamla və İslam inqilabı ilə düşmən və müxalif olan böyük beynəlxalq oliqarxlar hər bir dövrdə vasitələri tapırlar.

Dünyada pis və əskik insanlar, rəzil və satqın qruplar az deyillər. Deməli, düşmən həmişə düşməndir və zərbə vurmağı düşünür. İmkanlar da həmişə onun əlindədir. Yəni zərbə vurmaq üçün lazım olan vasitələri tapır. Bu arada bizim vəzifəmiz sayıqlıq göstərmək, inqilabın prinsip və meyarlarını qorumaqdır. Bu bizim vəzifəmizdir. Kimsə düşünməsin ki, bir dövr zərbələr dövrü idi və bitdi. Xeyr, əgər biz daha əlli il də yatsaq, düşmən öz zərbəsini endirəcək. Biz sayıq olmalı və aldanmamalıyıq.[3]

**Düşmən və xalqın imanı**

---

[1] Tehranın cümə namazı xütbələrindən: 1999.

[2] Kerman vilayətinin universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışından: 2005.

[3] 7 Tir (27 iyun) şəhidlərinin ailələri ilə görüşdə çıxışından: 1991.

Əgər imanın gücü və imandan yaranan cəsarətlə böyük iş görməyi bacaran bu xalqın bir düşməni olsa, o nə edər? Özünüz fikirləşin. Düşmənin belə bir xalq üzərində qələbə yolu nədir? Düşmənin qələbə yolu budur ki, bu mənəvi amili xalqdan alsın. Düşmən bilir ki, həmin iman ruhiyyəsi, iman ixlası, iman şücaəti və məqsədlərə vurğunluq olduğu təqdirdə bu xalq ələ alınası deyil. Nə iş görməlidir? Gərək onların imanını zəiflətməyə çalışsın, onların beynindəki ilahi amalları zəiflətsin, onlarla böyük arzular arasında məsafə yaratsın. Bu iş də xəncərlə, modern və postmodern texnikalarla olmaz. Bu iş təbliğatla baş verir. Müharibədən sonradan və hətta müharibə əsnasında düşmənin bu təbliğatı başlanmışdır, bu günə qədər də davam edir.

Mən deyirəm ki, bu xalqın və ölkənin taleyini sevən hər bir kəs xalqın imanının gücləndirilməsinə, gənclərin imanının, dindarlığının və İslam amalları ilə əlaqələrinin gücləndirilməsinə çalışmalıdır. Kim bunun ziddinə bir iş görsə, deməli, xalqın taleyini düşünmür, yaxud düşmən qüvvələrindəndir və ya aldanmışdır. Burada ayıq insanların, ziyalı, natiq, yazıçı və məmurların, xalqın düşüncəsinə təsir göstərə bilən hər bir kəsin vəzifəsi aydın olur.[1]

**Düşmənin zərbə vurmaq üsulu**

Əgər xalqımızın hərəkətinə qarşı mübarizə aparmaq istəsələr, yolu budur ki, xalqı səhnədən çıxarsınlar və ona zərbə vursunlar. Deməli, əlli il ötsə də, hegemonizm zərbə vurmaq fikrindən daşınmayacaq. Biz sayıq olmalı və aldanmamalıyıq. Biz düşmən təbliğatının təsiri altına düşməməliyik. Biz İslam quruluşuna inamımızı əldən verməməliyik. Çünki düşmən zərbə vurmaq istəyəndə birinci xalqın imanını zəiflədir ki, zərbəni yaxşı endirə bilsin.[2]

**Düşmən qarşısında möhkəm sədd**

Bu gün hegemonizmin siyasəti postmodern müstəmləkəçilikdir; yəni ötən əsrin uzun illərində mövcud olan modern müstəmləkəçilikdən bir

---

[1] Xürrəmşəhrin fəthinin ildönümündə İslam döyüşçüləri ilə görüşdə çıxışından: 1999.
[2] 7 Tir (27 iyun) şəhidlərinin ailələri ilə görüşdə çıxışından: 1991.

pillə yuxarı. Postmodern müstəmləkəçilik nə deməkdir? Yəni hegemon qurum elə bir iş görür ki, onların ələ almaq və istismar etmək istədiyi xalqın bəzi qüvvələri bilmədən ona kömək etsinlər. Düşmən sizin imanınızı özünün möhkəm səddi bilir və bu səddin götürülməsini arzulayır. İndi bizim aramızdan olan bəzi qüvvələr gəlib bu divarı yonmağa və deşməyə başlayırlar. Bunlar doğma olsalar da, düşmənə işləməkdədirlər. Düşmən də bunlara sərmayə yatırır. Gördünüz ki, amerikalılar konqreslərində onlara işləmək üçün hətta ölkəmiz daxilindəki ünsürlərə pul vermək barədə qərar çıxardılar; belə açıq-aşkar şəkildə. Bu, postmodern müstəmləkəçilikdir.[1]

**Təfriqə yaratmaqda İslam düşmənlərinin rolu**

Düşmən İslam firqələri arasında çəkişmənin olmasını istəyir. Xüsusən də İslam inqilabının qələbəsindən sonra inqilabçı və islamçı İranla digər xalqlar arasında ayrılıq yaratmağa çalışır. Allahdan istəyirlər ki, İslam dünyasında deyilsin: "Bunlar şiədirlər, inqilabları şiə inqilabıdır və biz sünnilərə aidiyyəti yoxdur". İran xalqı inqilabın əvvəlindən demişdir ki, bəli, biz şiə və Peyğəmbər (s) əhli-beytinin tərəfdarlarıyıq, lakin bu inqilab bir İslam inqilabıdır, Quran, tövhid, əsl İslam və bütün müsəlmanların vəhdəti və qardaşlığı əsasında baş verən bir inqilabdır. Bunu bizim xalqımız əvvəldən dedi, imamımız da açıq söylədi və bəyan etdi.

Bu birliyin sarsılmasına qoymayın. Digər ölkələrdə yaşayan müsəlman xalqlar muzdur yazıçıların və qələm sahiblərinin İran xalqı, İslam inqilabı və İslam Respublikası əleyhinə yazı yazmalarına, böhtan və iftira yaymalarına qoymasınlar. Onlar bu işi görməkdədirlər. Bizim öz yazıçılarımız da sayıqlıq göstərsinlər, düşmən bəhanə tapmasın və bu yarıq genişlənməsin. Radio və televiziya, media qurumları, qəzetlər, kitab yazanlar - hamı və hamı ehtiyatlı olsunlar və müsəlmanlar arasında ixtilaf yaratmaq üçün düşmənin əlinə bəhanə verməsinlər. Biz dedik ki, məzhəbləri nə olursa-olsun, müsəlmanların hamısı qardaşdırlar, İslam,

---

[1] Kerman şəhidlərinin ailələri ilə görüşdə çıxışından: 2005.

tövhid, və Quran düşməni olan hegemonizmə qarşı mübarizə aparmalıdırlar.[1]

**Müsəlman xalqları qorxutmaq istəyirlər!**

Müsəlman xalqları qorxutmaq istəyirlər. Bu gün elə bir gündür ki, İslam xalqları hegemonizmin zəhmli görkəmi qarşısında qorxuya düşməməlidirlər.

Bu mübarizə davam edir. Əlbəttə, bizim böyük xalqımız quruculuq dövrü olan bu günə qədər çoxlu problemləri arxada qoymuşdur. Siz böyük çətinlikləri arxada qoymusunuz və Allaha şükür olsun ki, buraya çatmısınız, lakin müqavimət davam etməlidir. Düşmənlər İran xalqının təslim olmasından məyus olmalıdırlar. İslam Respublikası quruluşu daxilində heç bir kəs yoxdur ki, ona düşmənlərin yalançı və puç əzəməti, cah-calalı qarşısında qorxmaq və vahiməyə düşmək haqqını vermək mümkün olsun. Biz böyük xalqıq. Biz kimdən qorxuruq?! Biz çox güclüyük. Bizim xalqımızın elmi istedadı, maddi sərvətləri, tarixi keçmişi, elmi və mədəni kökləri var; hamısından üstünü budur ki, İslam imanı və Allaha təvəkkülü var. Bizim xalqımız müstəqil xalqdır və özünə arxalanmalıdır. Məmurlar xalqa və onun istedadlarına arxalanmalıdırlar.[2]

**Düşmən və gənclərin əxlaqı**

Mənim əzizlərim! Gərək Allaha qayıdasınız. Allahı unutmayın! Əziz gənclər! Bu xalqda əmanət olan ilahi və İslam əxlaqını qoruyun. Bu gün sizin düşmənlərinizin əsas məqsədlərindən biri bu xalqın gənclərinin əxlaqını korlamaqdır. Bunun üçün çalışır və sərmayə qoyurlar. Kim ehtiyatlanmalıdır? Hamı, xüsusən də mömin gənclər.

Allahla barışıqda olan, Allaha dua və təvəssülü unutmayan xalqın quruculuq yolu da açıq olar.[3]

**Düşmən və ölkə quruculuğu**

---

[1] Tehranın cümə namazı xütbələrindən: 1991.

[2] Tehranın cümə namazı xütbələrindən: 1992.

[3] Sari şəhərində xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 1995.

Düşmənin göz dikdiyi ikinci nöqtə budur ki, müsəlman İran ölkə quruculuğunu layiqli şəkildə apara bilməsin. Bu da düşmənlərin ümid yeridir. Onlar istəyirlər ki, İslam Respublikası hökuməti ölkə daxilində quruculuq işləri görə, xalqın məişət vəziyyətini yaxşılaşdıra, daxili istehsalı artıra, xaricə asılılığı azalda, məhrum, məzlum və yoxsul insanları lazımi məişət vəziyyətinə çatdıra bilməsin. Onlar istəyirlər ki, İslam hökuməti bu böyük vəzifələri yerinə yetirmək səadətinə nail olmasın, bu işləri görə bilməsin. Bu arzuya göz dikmişlər.[1]

**Düşmən son sözü əvvəldə demir!**

Düşmən siyasətçidir, siyasi ideoloq beyni var, nə etməli olduğunu fikirləşir. Planlardan biri budur ki, son sözü əvvəldə deməsinlər, yavaş-yavaş və tədricən tələbkarlıq yaratsınlar və tərəf-müqabili geri çəkilməyə vadar etsinlər. Siz geri çəkilən kimi yeni tələblər başlayacaq. Bəziləri deyirlər ki, bir şey verək və bir şey alaq. Verməyimiz mümkündür, almağımız isə mümkün deyil; çünki heç nə verməyəcəklər. Bəzi şüarlar düzəldib İranı quldurluğun mərkəzi kimi təqdim edirlər. Filan işləri görək ki, bizi belə təqdim etməsinlər. Bu, sözdür?! Qələt eləyib belə təqdim edirlər. Nə vaxt lazım olsa, bizi yenidən eyni işi görəcəklər. Əgər bir qüvvə qaşlarını çatıb "mən güclüyəm, vuraram, kəsərəm, bağlayaram" demək imkanı və bacarığı əldə etsə, diqqətinizi toplayın, burada qorxmağın son həddi yoxdur. Siz bu səngərdən geri çəkilsəniz, fərz edin hansısa protokolu qəbul etsəniz, sonra başqa bir tələb irəli sürəcəklər: hansısa qanunsuz dövləti rəsmən tanıyın; yenə həmin təzyiq və təhdidlər. Hansısa qanunsuz dövləti rəsmən tanıyan kimi yenə də başqa bir istək ortaya qoyulacaq: konstitusiyanızdan İslam adını çıxarın. Siz gərək az-az geri çəkiləsiniz. Bunun son həddi yoxdur. Mən şübhəyə və qorxuya düşən bəzi məmurlara dəfələrlə demişəm ki, ABŞ-ın təzyiqinin son həddi haradır? Onu müəyyən edin, bilək ki, oraya çatsaq, daha bizim əleyhimizə heç bir təzyiq olmayacaq.[2]

---

[1] Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü mərasimində çıxışından: 1990.
[2] İslam Şurası Məclisinin deputatları ilə görüşdə çıxışından: 2003.

**Təbliğat - hegemonizmin ən mühüm fəndi**

Bu gün hegemonizmin düşmənliyinin ən mühüm fəndi onun təbliğatının keyfiyyətindədir. Mənim fikrimcə, bu gün düşmənin siyasi və təbliğat ideoloqlarının hər biri bizim ölkəmiz, xalqımız, hökumətimiz və məmurlarımız barədə düşünür və onlara qarşı təbliğatın növünü seçirlər. Hegemonizmə və beynəlxalq sionizmə bağlı xəbər agentlikləri də ölkəmiz barədə eyni üsulla rəftar edirlər. Xəbər agentliklərinin və radioların xalq, imam, məmurlar və ölkənin gələcəyi barədə bugünkü təbliğatının hamısı planlıdır.[1]

**Müstəmləkə təxribatının müxtəlif yolları**

Düşmən müxtəlif yollarla təxribat aparır. Yollardan biri ixtilaf yaratmaqdır. Hər hansı ixtilaf harada olsa, İslamın və Quranın ziddinədir; istər siyasi ixtilaflar olsun, istər qəbilə ixtilafları.

...Düşmənin bu gün istifadə etməyə çalışdığı digər yollardan biri xalqımız arasında şayiə yaymaqdır. İnqilabın qələbəsindən bu günə qədər harada bacardılarsa, şayiə yaydılar. Məqsədləri isə xalqı qorxutmaq və onların ümidini qırmaqdır.

...Düşmənin təxribatlarından başqa birisi fəsad törətməkdir; gənc nəslə təsir göstərmək, İslamın həqiqi əsgərlərini fəsada çəkmək, gəncləri fəsadla məşğul etmək. Gənclər bilsinlər ki, bu, təxribatdır.[2]

**Dünyagirlik, dünya malı və bəzəkləri ilə məşğul olmaq mikrobu**

Bu gün düşmənin ən mühüm planı gözləməkdir. Düşmən gözləyir ki, mikrob bu sağlam və güclü bədənə, yəni İslam quruluşuna və İslam Respublikasına təsir etsin. Odur ki, biz ehtiyatlı olmalıyıq. Bu gün onlar fəsadın bu ölkənin daxilində yayılmasını, ölkə gənclərinin beyninə girməsini, çəkindirici və fəsadçı məşğuliyyətlərin böyük amallara qalib gəlməsini, dünyagirliyin, dünya malına və bəzəklərinə məşğul olmağın

---

[1] Şəhid ailələrinin əlaçı övladları və Şəhid fondunun mədəni işlər üzrə məsul şəxsləri ilə görüşdə çıxışından: 1989.

[2] Xürrəmabad əhalisi ilə görüşdə çıxışından: 1991.

yayılmasını, pul, komfort və dəbdəbə ləzzətinin özünü inqilabçı qüvvələrin dişi altında göstərməsini gözləyirlər.

...Bəli, insanları fəsada çəkmək, onların gözü önündə qanunsuz yollarla dünya gözəlliklərinin paradını təşkil və ürəklərini cəlb etmək olar; belə ki, bütün dəyərləri maddi gözəlliklərə qurban versinlər; amma əgər təqva olmasa: "təqvalılardan başqa". Təqva qiyamətə də təsir edir, dünyaya da, siyasətə də, quruluşu qorumağa da, müharibəyə də. Siz özünüz bunu dərk etmiş, yaşamış və görmüsünüz.[1]

**Düşmənin mədəni yollardan istifadəsi**

ABŞ jurnallarının birində məşhur bir amerikalı yazıçı tərəfindən baş məqalə yazılmışdı. Xülasəsi bu idi ki, İran kimi - əlbəttə, o, pis söz işlətmişdi, misal üçün, yağı - ölkələrlə mübarizə aparmaq üçün biz hərbi və iqtisadi yollardan istifadə edə bilmərik. Bunlar sınanmış və məğlubiyyətə uğramış yollardır. Biz mədəni yollardan istifadə etməliyik. Açıq-aşkar deyir. Necə iş görülməsini də deyir. Həmin səhifənin ortasında tamamilə çılpaq bir qadın şəkli çəkib və deyir ki, onlara qələbə çalmaq üçün bunları yaymalıyıq. Doğru da deyir. Yolu budur. Təəssüf ki, bəziləri ölkədə nə iş gördüklərini anlamırlar. Əlbəttə, Allahın gücü və qüvvəsi ilə qoymayacağıq və bacarmayacaqlar. Biz icazə vermərik ki, bu ölkəyə və bu inqilaba xəyanət etsinlər, onu bitirsinlər. Lakin başlarında həvəs var. Xalqı bu ölkənin ozamankı bədbəxtliyinə və fəlakətinə qaytarmaq istəyirlər.[2]

**Ehtiras vasitələri - düşmənin təsir yollarından biri**

Əfqanıstanın kənd və şəhərləri ABŞ raketləri altında dağılanda, məzlum Fələstin xalqı amerikalıların bombaları altında çabalayanda ABŞ-ın bir hərbi strateqi dedi: "Əgər bu raketlərin yerinə əfqan gəncləri üçün alt qadın paltarları, ehtiras vasitələri, Qərb və Amerika geyimləri göndərsəniz, bu xərcləri çəkmədən Əfqanıstanı ələ keçirə bilərsiniz və silah xərcləriniz cibinizə qalar. Bomba və raket yerinə pornoqrafik disklər, təhrikedici

---

[1] Keşikçi günü münasibəti ilə Keşikçilər korpusunun şəxsi heyəti ilə görüşdə çıxışından: 1995.

[2] Gənc Günü münasibətilə gənclərlə görüşdə çıxışından: 1998.

görüntülər və ədəbiyyat yayın, o zaman işiniz asan olar". Bu, əsaslı bir siyasətdir. Buna əhəmiyyətsiz yanaşmayın.

Avropalılar Andalusu müsəlmanlardan almaq istəyəndə uzunmüddətli addımlar atdılar. O zaman sionistlər yox idi, lakin İslam düşmənləri və siyasi mərkəzlər İslam əleyhinə fəaliyyətdə idilər. Onlar gəncləri fəsada çəkməyə başladılar. Bunun üçün müxtəlif dini və siyasi maraqları vardı. İşlərin biri bu idi ki, gənclərə pulsuz şərab vermək üçün üzüm bağları vəqf etdilər, gəncləri öz qadın və qızlarına sarı sövq etdilər ki, onları ehtiraslara bulaşdırsınlar. Zamanın ötməsi bir xalqı fəsadçı, yaxud islah etməyin əsas yollarını dəyişdirmir. Onlar bu gün də həmin işi görürlər.[1]

**İslam əleyhinə hücum saytları**

Bu gün internetdə əsas məqsədləri İslam, xüsusən də Şiə təfəkkürünə hücum etməkdən ibarət yüzlərlə sayt və bloq mövcuddur. Hücum da əsaslı deyil, təxribat yollarından, psixoloji və digər üsullardan istifadə edirlər. Bunların hamısının cavabı var, çətin də deyil. Bu vasitələrdən istifadə etmək lazımdır. Əlimizdə olandan maksimum istifadə etməliyik. Biz nə radio və televiziyamızdan, nə mətbuatımızdan, nə də ümumi minbərlərimizin bir çoxundan lazımınca və layiqincə istifadə edirik. Bu bizim zəif cəhətimizdir. Bu zəif cəhətləri azaltmalıyıq. Zəif cəhətləri günbəgün azaltmalı, güclü cəhətləri artımalıyıq və bu, mümkündür.[2]

**İran gənclərinin möminliyi**

Düşmənin sərmayə qoyduğu ikinci nöqtə gənclərdir. Müsəlman İranda bizim gənclərimiz inqilab sobasında mömin şəxslər kimi yetişdilər. Bizim gənclərimizin möminliyi bənzərsizdir, ən azı misli azdır. Mənsə ona bir bənzər tanımıram. Müxtəlif çirkinliklərdən uzaq və ehtiraslardan pak olan gənc təhlükəli işlərə atılır, hər şeyi buraxır, rahatlığı və asayişi kənara qoyur, ilahi hərəkət barədə düşünür və üzərinə məsuliyyətin düşdüyünü hiss edir. Düşmən belə bir gənclə qatı düşməndir. Bu səbəbdən bizim

---

[1] Sistan və Bəlucistan vilayətinin gəncləri ilə görüşdə çıxışından: 2003.
[2] Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdə çıxışından: 2001.

gənclərimizin mömin qalmamasına çalışır. Bu gün gəncləri fəsada çəkmək istəyən qruplar tanıyırıq. Əlbəttə, biz belə qruplara qarşı tədbir görürük və gənc nəsli təhdid edənlərlə kəskin mübarizə aparacağıq.[1]

**Xarici təhlükələri unutmamalıyıq!**

Bir xalq və bir hökumət həmişə hazır olmalıdır. Heç zaman və heç bir şəraitdə xarici təhlükələrdən xəbərsiz qalmaq olmaz. Lakin düşmənlərin təhdidli səs-sədası da ölkə məmurlarını yolu davam etdirməkdən və vəzifələrini yerinə yetirməkdən saxlamamalıdır. Xalq və hökumət öhdəsinə düşən vəzifələrdə öz səyini yerinə yetirəcək.

...Mənim məmurlara və xalqa tövsiyəm budur ki, düşmənlərin təhdidlərinə etina etməsinlər, öz yollarını davam etdirsinlər və işlərini görsünlər. Sözsüz ki, aidiyyətli məmurlar sayıq olmalı, yatmamalıdırlar.[2]

**Qafillik - Allahın bir xalqa ən böyük bəlası**

Qardaşlar! Qafil olmayaq! Allahın bir xalqa ən böyük əzabı o xalqın qafilliyidir. Bir cəmiyyət üçün ən böyük dərd onun qafilliyidir. Allahı unutmayaq. Qəlbimizdə və canımızda, qərar və hərəkətlərimizin hər birində - idarə işində, siyasi, hərbi işdə, idarəçilikdə, pul xərclədikdə, büdcə ayırdıqda, qanun qəbul etdikdə, hökm çıxardıqda - bütün mərhələlərdə Allahı yadda saxlamalıyıq. Biz Allah üçün işləməliyik. Bu cəmiyyət belə inkişaf edəcək.[3]

**Əgər qafil olsaq, düşmən bizi mühasirəyə salacaq!**

Quranın Ühüd döyüşü barədə bizə verdiyi dərs böyük dərsdir və həmişəyə aiddir. Xülasəsi budur ki, Allah-Taala müsəlmanlara kömək vədi verir və bu vəd Ühüd döyüşündə həyata keçir: "Allah sizə verdiyi vədinə sadiq çıxdı".[4] Kömək vədi həyata keçdi, siz qalib oldunuz və düşmən geri çəkilməyə məcbur oldu. Amma sonra özünüz tərəfindən problem yarandı.

---

[1] Şəfəq ongünlüyü tədbirlərində iştirak edən xarici qonaqlarla görüşdə çıxışından: 1993.

[2] İmam Rzanın (ə) məqbərəsində çıxışından: 2005.

[3] İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 1991.

[4] "Ali-İmran"/152.

Hədislərə görə, Peyğəmbər (s) buyurmuşdu ki, bu yeri tərk etməyin; siz bu yerinizdə sabit qalacağınız təqdirdə biz qalib olacağıq.[1] Problem yarananda, dünya malına meyl, vəzifəni unutmaq, bəhsə girmək və dünya malı üstündə dartışma vəzifə hissinə, daxili və dini vicdana qalib gələndə vəziyyət dəyişdi; əvvəlcə zəiflədiniz, öz aranızda çəkişməyə başladınız, postunuzu tərk etdiniz, sizə tapşırılan yeri buraxdınız: "...zəiflik göstərdiniz və (sizə verilmiş) əmr barədə bir-birinizlə mübahisə edərək (Peyğəmbərə) qarşı çıxdınız".[2] Nəticədə vəziyyət dəyişdi. "Bu əzab ona görədir ki, bir tayfa özünə bəxş edilən neməti (naşükürlük üzündən küfrə) dəyişməyincə, Allah da ona əta etdiyi neməti dəyişən (pisliyə çevirən) deyildir"[3]. Bu bir qanundur; cazibə qanunu və digər təbii və tarixi qanunlar kimi.

...Deməyək ki, o bir neçə saatdan bizə nə. İndi bizim hamımız həmin vəziyyətdəyik. Bizim cəmiyyətimiz bu gün yox, inqilabın qələbəsindən etibarən həmin vəziyyətdədir. Dönəm qələbəsi əldə olunmuşdur. Biz yarığı və pusqu yerini qorumağa, onun keşiyini çəkməyə təyin olunmuşuq. Diqqətsizlik etsək, düşmən bizi mühasirəyə salacaq və tələfat törədəcək. İnqilabın əvvəlindən indiyədək baxın, harada mühasirəyə düşmüşüksə, belə diqqətsizlik üzündən olmuşdur. Əgər qayıtsaq, diqqətsizliyi taparıq; həmişə siyasi təhlil dalınca qaçmayaq. Əlbəttə, mən xarici, real və siyasi iş və təsirləri inkar etmirəm, amma əsas məsələ bizim daxilimizdədir.[4]

**Düşmənin güzəştə getməməsi**

Hegemonizm kompliment etməyə adətli deyil, qarşı tərəfin güzəştə getdiyini gördükdə demir ki, bağışlayın, daha sizə sözümüz yoxdur. Əsla belə deyil. Siz hegemonizmin və müstəmləkəçiliyin qarşısında nə qədər əyilsəniz, bir o qədər təzyiq görəcəksiniz. Əgər başınızı aşağı salsanız, öz təzyiqini asanlıqla göstərəcək ki, səcdəyə düşəsiniz. Qarşısında torpağa

[1] "Bihar əl-ənvar", c. 20, səh: 30.
[2] "Ali-İmran"/152.
[3] "Ənfal"/53.
[4] İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 1991.

düşüb səcdə etdikdə də ayağını möhkəm şəkildə sizin üzərinizə qoyacaq. Bu, hegemon və təcavüzkar qüvvələrin xasiyyətidir.[1]

**Müstəmləkəçilərin xətti və yolu**

Siz bu gün beynəlxalq güclərin və birinci növbədə ABŞ-ın xalqların və ölkələrin ixtiyarını ələ keçirdiyini müşahidə edirsiniz. Bu ondan ötrüdür ki, bəzi insanların ruhuna hakim olan zəiflikdən istifadə etmişlər. Əvvəlcə xalqları İslama, öz mədəniyyət və tarixlərinə qarşı etiqadsız və etinasız edirlər, sonra onların ixtiyarını və idarəsini ələ keçirirlər. Bu bütün dünyada işlətdikləri üsuldur.[2]

**Düşmən dəlik tapmağa çalışır!**

Düşməni unutmaq olmaz. Düşmənin düşmənliyini yaddan çıxarmaq olmaz. Əmirəlmöminin (ə) Nəhcül-bəlağədə buyurur ki, siz döyüş cəbhəsində yatmısınızsa, bu, qarşı cəbhənin əsgərinin də yatması anlamına gəlmir. Xeyr, o oyaqdır və hücuma keçmək üçün sizin yatmanızı gözləyir. Vuruşma həmişə hərbi vuruşma olmur, bəzən siyasi, bəzən də mədəni-ideoloji olur. Düşmən dəlik tapmağa çalışır. Gözləri açıq saxlamalı, dəlik nöqtəsini görməli və onun böyüməməsi üçün ehtiyatlı olmalıyıq. Mədəni və siyasi dəlikləri bağlamalıyıq.[3]

**Düşmənlər və mövqedən geri çəkilmək**

Əziz xalqımızın, xüsusən də gənclərin, müqəddəs İslam Respublikası quruluşunun müxtəlif sahələrinin məsul şəxslərinin diqqət yetirməsinə israrlı olduğum başqa bir məsələ budur ki, İslam Respublikası quruluşunun düşmənləri üzbəüz mübarizədə bu quruluşa qarşı təsirli iş görə bilməyəndə, yəni ona hərbi və təhlükəsizlik zərbələri vura, daxildə partlayış törədə, iqtisadi blokada ilə onu diz çökürə bilməyəndə - bunların hamısından məyus olanda yalnız bir yolu qalır. O yol İslam və inqilab quruluşunu öz prinsiplərinin ziddinə olan mövqelərə sövq etmək, yaxud

[1] Ordu günü münasibəti ilə ordu mənsubları ilə görüşdə çıxışından: 1994.
[2] Buşəhr şəhərinin Şəhid Behişti stadionunda çıxışından: 1992.
[3] Kermanın şəhid ailələri ilə görüşdə çıxışından: 2005.

daha sadə və aydın desək, onu inqilabi sözlərindən dönməyə vadar etməkdir. Yəni öz sözünü və mövqeyini səhv saysın, özünü paradoksa düçar etsin. Bunu hansı yolla edirlər? İnformasiya təzyiqləri, siyasi və mədəni təzyiqlərlə. O qədər sıxışdırırlar ki, zəif insanlar müqavimət göstərə bilmirlər.[1]

**Düşmən tərəfindən quruluşun bacarıqsızlığının təbliği**

Düşmənin fəndlərindən biri təbliğatdır. Təbliğat aparırlar ki, İslam Respublikası bacarmadı, İslam kifayət etmir, İran xalqı qorxdu və geri çəkildi, İran xalqı inqilabdan və İslamdan uzaqlaşmışdır, hökumət zəifdir və işləyə bilmir. İnsanlarda qrup və sinif maraqlarını oyatmaqla dövlətin, ölkə məmurlarının və məsul şəxslərin işlərini dayandırmağa çalışırlar. Düşmən yalnız bu işləri görə bilər. Düşmənin əlindən başqa bir iş gəlmir.[2]

**Düşmən və xalqın səhnədən çıxması**

Əgər xalqımızın hərəkətinə qarşı mübarizə aparmaq istəsələr, yolu budur ki, xalqı səhnədən çıxarsınlar və ona zərbə vursunlar. Deməli, əlli il ötsə də, hegemonizm zərbə vurmaq fikrindən daşınmayacaq. Biz sayıq olmalı və aldanmamalıyıq. Biz düşmən təbliğatının təsiri altına düşməməliyik. Biz İslam quruluşuna inamımızı əldən verməməliyik. Çünki düşmən zərbə vurmaq istəyəndə birinci xalqın imanını zəiflədir ki, zərbəni yaxşı endirə bilsin.[3]

**Xalqın zehniyyətinə nüfuz etmək**

İndi yazırlar ki, ABŞ hücum etmək istəyirdi, filan etmək istəyirdi. Əlbəttə, bir dövlətin quldurluq üzündən səhv qərar verməsi də mümkündür. Lakin şübhəsiz, hər növ hərbi hücum və hərəkət düşmənin zərərinə və İslam Respublikasının xeyrinə bitəcək. İndi xoşbəxtlikdən, bu

---

[1] Həzrət İmam Xomeyninin vəfatının səkkizinci ildönümü mərasimində çıxışından: 1997.

[2] İmam Həsən Müctəba (ə) qarnizonunda Bəsic günü münasibətilə özəl mərasimdə çıxışından: 1990.

[3] İran İslam Respublikasının xaricdəki mədəni nümayəndələri ilə görüşdə çıxışından: 1991.

ehtimallar azdır. Lakin çox olduğu zaman da biz deyirdik ki, düşmən ağıllı olsa və ağıllı qərar seçmək istəsə, buna getməyəcək. Buna əsasən, hərbi, zorakı və təzyiqə söykənən işin bu ölkəyə təsiri yoxdur. Onlar üçün mühüm olan xalqdan ibarətdir. Xalq da Mövləvinin haqlı olaraq dediyi kimi: "Ey qardaş, sən bütünlüklə düşüncəsən"; yəni xalqın düşüncəsini, imanını, cismini səhnəyə çıxaran, dilini və qolunu həqiqətin xidmətində işlədən və hücumlara yönəldən amil. İndi bu iş baş verir.

...Əgər addım-addım təsvir etmək istəsək, belədir: beyinləri təsir altına salmaq, sonra quruluşun sütunlarında təsir maneələrini, misal üçün, Nəzarət Şurasını ortadan götürmək.

...Deməli, ilk addım nədir? Xalqın zehniyyətinə nüfuz etmək. Xalqın zehni, imanı, qəlbi, duyğu və eşqi düşmənlərin hədəfindədir və mədəni yollarla bunlara nüfuz etmək istəyirlər.

...Sizin ehtiyatınız daha çox olmalıdır. Ajiotajlardan və azadlıq əleyhdarı ittihamından qorxmayın. Siz hətta ən yüksək azadlıq növlərini versəniz, lakin prinsiplərinizi qorusanız, yenə də deyəcəklər ki, azadlığın əleyhdarısınız. İndi bu regionda öz tarixləri boyunca bir seçkili parlament üzü görməyən ölkələr var. Amma onları diktaturada ittiham etmirlər. Amma iyirmiillik ömründə iyirmi dəfə azad və xalq seçkiləri keçirmiş ölkəmizi ittiham edirlər. Düşməndən gözlənti yoxdur. İnsan düşmənin sözünə görə özünün düzgün, məntiqli və ağıllı yolunu dəyişdirməz. Odur ki, əsla çəkinməyin.[1]

**İstismarçılıqla mübarizə - İslam dövlətinin vəzifəsi**

İstismarçılıqla mübarizə İslam dövlətinin vəzifələrindən biridir. İstismarçı düzən qorxulu kabus kimi bəşər cəmiyyətini məhvə aparır. Bu istismarçı düzənin iki tərəfi var: istismarçı və istismar olunan. Bu düzənlə mübarizə aparmaq lazımdır. Mübarizə yolu da xəncərlə deyil, ağılla, peşəkar siyasətlə, lazım olanda cəsarətli addım atmaqladır.[2]

**Xalqlar ayılmalıdır!**

---

[1] Kitab sərgisində iştirak edən naşirlərlə görüşdə çıxışından: 1999.
[2] Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2005.

Siyasətçilər nazik və dayaqsız bir divar kimidirlər, onları bir təzyiqlə məhv etmək olar. Düşmənlərin qarşısında dayanan amil isə xalqların möhkəm səddidir. Xalqlar oyanmalıdırlar və bu gün dünyada müsəlman xalqlar oyanmaqdadırlar.[1]

[1] İmam Rzanın (ə) məqbərəsində ziyarətçilərlə görüşdə çıxışından: 2004.

## Otuz üçüncü fəsil: İsrail

**İsrailin məqsədi torpaqlarını genişləndirməkdir!**

İsrailin məqsədi böyüməkdir. Sionizm dövləti indiki Fələstin torpaqları ilə qane olmur. Əvvəl bir qarış yer istəyirdilər, sonra Fələstin torpağının yarısını, daha sonra isə hamısını tutdular. Bundan sonra İordaniya, Suriya və Misir kimi qonşu ölkələrə təcavüz etdilər, onların torpaqlarını tutdular. İndi də sionizmin əsas məqsədi Böyük İsrail yaratmaqdır. Əlbəttə, bu günlər bunun adını az çəkir və gizlətməyə çalışırlar.

...İsrail təkcə öz xalqı yox, bütün region üçün təhlükəlidir. Onların atom silahları var və yenə də istehsal edirlər. Birləşmiş Millətlər Təşkilatı bir neçə dəfə xəbərdarlıq edib, lakin veclərinə deyil. Təbii ki, əsas səbəbi ABŞ-ın himayəsinə görədir. Yəni sionistlərin və işğalçı dövlətin günahı böyük həddə ABŞ rejiminin boynuna düşür. Siz bunu bilin. Son 50 ildə BMT-nin Təhlükəsizlik Şurasında İsrail əleyhinə 29 qətnamə qəbul olunmuşdur və ABŞ onların hamısına veto qoymuşdur. SSRİ-nin dağılmasından indiyədək ötən 10 ildə isə Təhlükəsizlik Şurasında İsrail əleyhinə heç bir qətnamənin qəbul olunmasına imkan vermir. Deməli, bu cinayətlərin günahı ABŞ-ın boynuna düşür.

... İsrail iqtisadi baxımdan da region üçün təhlükəlidir. Bir müddətdir Fələstini ələ keçirmiş sionistlər Yeni Orta Şərq nəzəriyyəsi adlı bir tezis irəli sürüblər. Yeni Orta Şərq nə deməkdir? Yən İsrailin mərkəzliyi ilə Orta Şərq formalaşsın, İsrail tədricən ərəb və region ölkələrinə və Fars körfəzindəki neft zonalarına iqtisadi hökmranlıq statusu qazansın. İsraillilərin məqsədi budur. Bəzi dövlətlər xəbərsizdirlər. Onlara etiraz olunanda deyirlər ki, biz əlaqə qurmamışıq, yalnız tacirlərinə icazə vermişik. Təsadüfən onlar da bunu istəyirlər. Onlar istəyirlər ki, İsrail ABŞ-ın himayəsi və öz təhlükəli silahlarının dəstəyi ilə bəzi dövlətlərin avamlığından və zəifliyindən istifadə edib oraya daxil olsunlar, iqtisadi mərkəzləri və maliyyə

mənbələrini ələ keçirsinlər. Bu, region üçün çox böyük təhlükədir. Təhlükələr içində ən böyüyü budur.[1]

**Fələstin məsələsi bitməmişdir!**

Sadəlövhcəsinə elə bilirlər ki, Fələstin məsələsi bitdi... Bir xalqı tarixdən silmək olmaz.

...İslam, xüsusən də ərəb dünyası bilməlidir ki, bu gün düşmən onları bu mühüm məsələdən yayındırmaq, diqqəti ikinci dərəcəli və yalançı məsələlərə yönəltmək istəyir. Onlar bununla öz işlərini görməyə çalışırlar.[2]

**Fələstin - İslam dünyasının problemi**

Fələstin məsələsi İslam dünyasına aid bir məsələdir, siyasi, təhlükəsizlik və iqtisadi cəhətlərdən əlavə, ilahi və dini vəzifədir. Hamısından üstünü budur ki, bir ilahi məsələdir.

...Sionistlərin Fələstinə qarşı işğalçılığının üç şərti vardı:

Bir şərti ərəblərə qarşı qəddarlıqdan ibarət idi. Onların əsl sahiblərlə rəftarları daşürəkli, şiddətli və çox kobud idi; onlarla heç cür yola getmirdilər.

İkinci şərt dünyanın ictimai rəyini aldatmaq idi. Dünyanın ictimai rəyini aldatmaq qəribə məsələlərdən biridir. Onlar yəhudilərin əlində olan sionist informasiya vasitələri ilə o qədər yalan dedilər ki, həmin yalanlara görə bəzi yəhudi oliqarxlarını tutdular. Çoxları onların yalanlarına inandılar. Hətta bizim gənclikdə bir müddət çox sevdiyimiz insanlardan olan fransız ictimai filosof və yazıçını - Jan Pol Sartrı da aldatdılar. Jan Pol Sartr bir kitab yazmışdı. Mən otuz il öncə onu oxudum. O yazmışdı: "Torpaqsız xalq, xalqsız torpaq!" Yəni yəhudilər torpağı olmayan xalq idilər və xalqsız torpaq olan Fələstinə gəldilər. Xalqsız nə deməkdir? Orada bir xalq yaşayırdı. Buna çoxlu dəlillər var. Bir xarici yazıçı deyir ki, bütün Fələstin torpaqlarında göz işlədikcə uzanan yaşıl dəniz kimi buğda tarlaları vardı. Xalqsız torpaq nə deməkdir? Dünyaya belə göstərdilər ki, Fələstin xaraba, boş qalmış və buraxılmış bir yer idi, biz gəlib buranı

---

[1] Tehranın cümə namazı xütbələrindən: 1999.
[2] İslam İnqilabının Keçikçiləri Korpusunun komandirləri ilə görüşdə çıxışından: 1999.

abadlaşdırdıq. İctimai rəyə yalan söyləmək budur! Həmişə özlərini məzlum göstərməyə çalışırdılar; indi də belədir. ABŞ jurnallarında, məsələn Taym və Nyusvikdə - mən hərdən bunlara baxıram - əgər bir yəhudi ailəsinə qarşı ən kiçik hadisə baş versə, öldürülənin şəklini, haqqında məlumatları, yaşını və uşaqlarının məzlumluğunu böyüdürlər. Lakin işğal olunmuş Fələstində və Livanda fələstinli gənclərə, ailə, uşaq və qadınlara qarşı yüzlərlə, minlərlə qəddarlıq nümunəsi baş verir, onlar haqda heç nə yazmırlar.

...Üçüncü şərt də dəm-dəsgah, müzakirə və özləri demiş, lobbidir; otur bu hökumətlə, filan şəxsiyyət, siyasətçi, ziyalı, yazıçı və ya şairlə söhbət et və anlaş. Bunların işinin indiyədək üç şərti olmuşdur, bu hiylə və kələklərlə ölkəni tuta bilmişlər. Xarici qüvvələr də bunların yanında olmuşdur. Əsas İngiltərə idi. Millətlər Təşkilatı və ondan öncə müharibədən sonra dırnaqarası sülh məsələləri üçün yaradılan Millətlər Cəmiyyəti bəzi hallar istisna olmaqla həmişə bunları müdafiə etmişdir.[1]

**Fələstin məsələsinin həlli: İsrail rejiminin məhvi**

Fələstin məsələsinə dair bizim görüşümüz aydındır. Biz Fələstinin həllini İsrail rejiminin məhvində bilirik. Deməsinlər ki, olmaz; dünyada "olmaz" yoxdur, hər şey olar. İnsanların hərəkəti yolunda maneə olan bütün nəhəng dağları götürmək olar. Qırx il ötmüşdür. Əgər daha qırx il də ötsə, İsrail dövlətinin aqibəti məhv olasıdır və məhv olmalıdır.[2]

**Sionizm dövlətinin məhvi - Orta Şərq məsələsinin həll yolu**

Orta Şərq məsələsi üçün də yalnız bir yol mövcuddur: sionizm dövlətinin buraxılması və bitməsi. Fələstinli qaçqınlar ölkələrinə qayıtmalıdırlar. Bu 8 milyon insan Fələstinin əsas sahibləridir. Fələstin xalqının böyük əksəriyyəti müsəlmandır və onların arasında bir qədər yəhudi və məsihi də var. Fələstinin sahibləri və Fələstin xalqı dövlət qursunlar; o hökumət qərar versin ki, digər ölkələrdən Fələstinin daxilinə gəlmiş və hal-hazırda orada yaşayan mühacirləri saxlasın, hansı şərtlərlə

[1] Tehranın cümə namazı xütbələrindən: 1999.
[2] Əsirlikdən azad olanlarla görüşdə çıxışından: 1991.

saxlasın, yaxud qaytarsın. Əsas məsələ budur ki, bütün Fələstin torpağında bir Fələstin hökuməti qurulsun. Muxtar hökumət və digər bu tip oyunlar bu gün çox sadəlövh insanlardan başqa heç kəsi aldada bilməz. Bunlar iş deyil. Görülməsi lazım olan əsas iş budur.[1]

**Fələstin xalqının referendumu**

Fələstin xalqı - Fələstinin sahibi olan müsəlman, məsihi və yəhudilər, tarixin və coğrafiyanın şəhadətinə əsasən, tarixi Fələstin torpağının sahibləri səs verməlidirlər. Onlar dünya əhalisinin gözü qarşısında keçirilən bir sorğuda, bir referendumda Fələstin dövlətinin taleyini müəyyən etməlidirlər. Bu dövlət qanuni dövlət olacaq.[2]

**Məqsəd İsrail dövlətinin məhvidir!**

Fələstin məsələsində məqsəd Fələstinin xilasıdır; yəni İsrail dövlətinin məhvi. 67-ci ildən öncəki torpaqlarla sonrakı torpaqlar arasında fərq yoxdur. Fələstin torpağının hər bir qarışı müsəlmanların evinin bir hissəsidir. Fələstin ölkəsində Fələstin xalqının və müsəlmanların hakimiyyətindən başqa hər bir hakimiyyət qəsbkardır. Söz əzəmətli və mərhum imamın buyurduğudur: "İsrail məhv olmalıdır!" Fələstin yəhudiləri əgər İslam dövlətini qəbul edirlərsə, orada yaşasınlar. Söhbət antisemitizmdən deyil, müsəlmanların evinin işğalından gedir. Müsəlman başçı və rəhbərlər qlobal güclərin təsiri altında olmasaydılar, bu mühüm məsələni həll edə bilərdilər. Lakin təəssüf ki, etmədilər.[3]

**İsraillə heç bir əlaqənin olmaması**

Biz elan edirik ki, hətta bir gün və bir saat da işğalçı, qanunsuz və xəbis İsrail dövləti ilə dostluq etməmişik, onlara məhəbbət göstərməmişik, ən kiçik və zəif əlaqəmiz olmayıb və olmayacaq.[4]

---

[1] Tehranın cümə namazı xütbələrindən. 1999.

[2] Mübarək Fitr bayramı münasibəti ilə quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2005.

[3] Birinci "Fələstin İslam Konfransı"nın iştirakçıları ilə görüşdə çıxışından: 1990.

[4] Tehranın cümə namazı xütbələrindən: 1990.

## Otuz dördüncü fəsil: ABŞ

### ABŞ-la əlaqədə iki əsas məqam

Bizim ABŞ-la əlaqəmizdə iki əsas məqam mövcuddur. Onlara diqqət yetirilməsə, hər kəs səhv edəcək: Birinci məqam budur ki, İran xalqı ABŞ dövlətini və siyasətini bir işğalçı, hegemon və istismarçı kimi öz ölkəsindən qovmuşdur. Bu, uşaqlıq nadanlığı və qafilliyi dövründə evi və əmlakı qəsb olunmuş bir ev sahibinin əməlinə bənzəyir. O indi böyüyüb gənclik dövrünə çatmış, ağlı və gücü vasitəsi ilə öz xeyrini təyin edir və işğalçını mülkündən qovur.

Heç bir işğalçı xoş dillə gedən deyil, onu qovmaq lazımdır. Bu mümkün olsaydı, əvvəldən işğal etməzdi. İşğalçını bayıra atmaq lazımdır. İran xalqı işğalçını, yəni ABŞ-ın siyasətini və yolunu, müstəşar və muzdurlarını zorla öz evindən bayıra tulladı. Bəllidir ki, işğalçı bu xalqa, inqilaba və hökumətə qarşı həmişə ürəyində kin saxlayacaq. Əgər gəlib "icazə verin sizinlə sülh bağlayaq və dost olaq" - desə, bilin ki, niyyəti yenə də düşmənlik, sui-istifadə və istismarçılıqdır.

ABŞ İrandan siyasi, iqtisadi və hərbi məqsədlər üçün istifadə edirdi. O bizim sərhədlərimizdə yerləşirdi ki, özünün beynəlxalq rəqibini nəzarətdə saxlasın. O, maddi imkanlarını və nəhəng kompaniyalarını kökəltməkdən ötrü bizim mənbələrimizdən istifadə edirdi. O, bütün beynəlxalq hadisələrdə, OPEK-də ərəblərlə düşmənlikdə və İsrailin ətrafında təhlükəsizlik halqası yaratmaqda İran hökumətindən nökər və alət kimi istifadə edirdi. Alətin mənası budur. Və ABŞ bu gün bundan məhrum edildiyinə görə yaralanmışdır.

Başqa bir məqam budur ki, İslam Respublikası ABŞ-ı ölkədən ixrac etməklə kifayətlənmədi və birinci addımdan da böyük iş gördü. O da budur ki, dünya səviyyəsində bir milyard müsəlmanın qəlbində ümid işığı yaradıb ABŞ-ı belə bir miqyasda təhdid etdi. Bu gün ABŞ müsəlman ölkələrində keçmişdəki kimi istədiyini edə bilmir. Çünki digər ölkələrin müsəlmanları da oyanmışlar.

...Bu gün müsəlmanlar İslamın həyatı ilə ayıq, canlı və ümidvar olmuşlar, öz İslam kimliklərini tədricən tapırlar və bu, ABŞ üçün böyük başağrısıdır. Deməli, ABŞ-ın intiqam almaq istəyi bu acı hadisəyə görədir və bunun acılığı ABŞ kimi təcavüzkar və quldur bir dövlətin təcavüzkar və ekspansionist mahiyyətindən irəli gəlir.[1]

**ABŞ-la əlaqəni qəbul etmirik!**

ABŞ elə nümunələrdəndir ki, biz onunla əlaqəni qəbul etmir, rədd edirik. Sual oluna bilər ki, nə zamana qədər? Bu sualın cavabını həm imam və həm bu barədə danışanlar veriblər. Cavab budur: O zamana qədər ki, İslam Respublikası ilə şiddətə, zülmə, təzyiqə və düşmənçiliyə əsaslanan siyasətlər, İslam Respublikasının düşmənlərini müdafiə və sionizm dövlətini qeyd-şərtsiz himayə sona çatsın. İmam buyurdu ki, adam olana - yəni bu yanlış üsulları düzəldənə qədər. Həqiqətən, biz o gəminin alnında xilas nuru görmürük. Əlaqə və müzakirə söz-söhbəti də boş sözlərdir və heç kəs deməmişdir.[2]

**ABŞ-la müzakirənin milli maraqlara zidd olması**

Biz bütün tərəfləri nəzərə alaraq, öz ölkəmizin və qonşu olkələrin bütün təcrübələrini mütaliə edərək və nəzər sahibi olan əsas şəxsiyyətlərlə məsləhətləşərək bu nəticəyə gəlmişik ki, nəinki ABŞ-la əlaqə, hətta ABŞ dövləti ilə müzakirə də bu gün milli maraqlarımıza ziddir. Bu, təəssübkeş bir nəzər deyil. Bu bir düşüncə və fikirdir; araşdırılmış, bütün tərəfləri nəzərə alınmışdır. İstər indiki, istər digər məsələlərdə ABŞ-la müzakirə onun gözlənti və tələbkarlıqlarına qapı açmaq deməkdir.[3]

**ABŞ-ın iddia etdiyi qədər qüdrəti yoxdur!**

ABŞ-ın iddia etdiyi kimi gücünün olmamasına və zəif insanları qorxudan heybətinin həqiqi gücündən olduqca artıq olmasına başqa bir aydın dəlil odur ki, çox yerlərdə güc və şiddət işlətmək istəyirlər, amma

---

[1] Xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 1989.
[2] Xarici İşlər Naziri, müavinləri və nazirliyin məsul işçiləri ilə görüşdə çıxışından: 1989.
[3] İsfahanda xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 2001.

bacarmırlar. Hansı dəlilə əsasən? Dəlil budur ki, bacardıqları yerdə, misal üçün, Panamada etdilər. Əgər ABŞ Panamada gördüyü işi digər inqilabçı ölkələrdə, çox narahat və pərt olduğu Kubada görə bilsəydi, görərdi. Deməli, bacarmır. Əgər bu işi o regionda, yaxud digər regionlarda olan və ABŞ siyasətinə qarşı çıxan ölkələrdə görə bilsəydi, görərdi. Dəlili budur ki, Panamada gördü.

Bunlar insani məsələləri düşünmürlər. ABŞ dövləti beynəlxalq qanunlar barədə fikirləşmir. Bunlar xalqların hüququna hörmətlə yanaşmırlar. Nə vaxt bacarsalar, bir ölkəyə daxil olurlar, o ölkənin xalqının hüququnu saymadan hökumətlərini devirirlər. O şəxsi də götürüb apardılar və öz ölkələrində həbsxanaya saldılar. Harada bacarsalar, bunu edirlər. Harada etmirlərsə, bacarmırlar. Gücləri haqda həqiqət budur.

...Gedib hegemon, insani prinsiplərə və beynəlxalq hüquqa inanmayan təkəbbürlü bir qurumla stol arxasında oturmağımızı istəyənlər necə də sadəlövhdürlər! Amerikalılar beynəlxalq prinsip və hüquqlara inanmırlar.[1]

**Şayiə yayanların məqsədləri**

Daim deyirlər ki, İran ABŞ-la müzakirə aparmaq istəyir, İran tədricən ABŞ-la əlaqə qurmaq istəyir və s. Bu sözlərdə məqsədləri nədir? Nə istəyirlər? Bizim müxaliflərimizin məqsədləri nədir? Dəqiq olan budur ki, İslam Respublikasının və İran xalqının xeyrini güdmürlər. Bu, aydındır. İnqilabdan ötən bu 19 il boyunca indiyə qədər həm ABŞ hökuməti, həm ABŞ mətbuatı, media qurumları, televiziya və radio kanalları İran xalqına bacardıqları qədər zərbə vurub, arxadan xəncər endirib, hörmətsizlik, xəyanət edib və yalan danışıblar. Bizim səkkizillik müharibəmizdə və iqtisadi məsələlərdə bunlar bir dəfə də xeyrimizə iş görməyiblər. İndi də belədir. Bəs məqsədləri nədir? Məqsəd bir neçə şeydir:

Biri budur ki, bunlar bu günə qədər İran xalqının birlik amili olan məsələni onun ixtilaf amilinə çevirmək istəyirlər. İndiyə qədər İran xalqı ABŞ dövlətinin onların düşməni olduğunu bildiklərinə görə, xırda ixtilafları olsa da, hamısını kənara qoyub ABŞ-ın düşmənliyi qarşısında

---

[1] Müəllim və fəhlələrlə görüşdə çıxışından: 1990.

birləşirdilər. ABŞ-la mübarizə bu xalqın birlik amillərindən biri olmuşdur. Bunlar istəyirlər ki, bu ajiotajla həmin birlik amilini ixtilaf amilinə çevirsinlər; bu onun əleyhinə, o bunun əleyhinə; bu desin müzakirə, o desin müzakirənin nə faydası var, başqa birisi də desin ki, nə zərəri var; bir qrup bu tərəfdən söhbət etsin, bir qrup o tərəfdən. Onlar da İran xalqının düşmənlə mübarizədə malik olduğu əzəmətli milli birliyi İran xalqının ixtilafına çevirsinlər.

İkinci məqsəd budur ki, ABŞ-la müzakirə və əlaqə məsələsini təkrarlamaqla məntiqli dəlillərə görə İran xalqının gözündə ən çirkin işlərdən biri olan bu işin qəbahətini ortadan götürsünlər. Cümə namazında onun məntiqli dəlillərinin nə olduğunu deyəcəyəm. Onlar bunun qəbahətini ortadan götürmək istəyirlər; İsrailin ərəblərlə münasibətində gördükləri işi kimi.

Bir zaman ərəb hökumətləri İsraillə söhbət etməyi və hətta İsrailin adını çəkməyi çox çirkin işlərdən bilirdilər. Bunlar bu məsələni ortaya qoymaqla onları bir-bir ərəb xalqının sıralarından xaric etdilər və günahı onun boynuna yıxdılar. Elə iş gördülər ki, tədricən bu məsələnin qəbahəti ortadan qalxdı. Hətta İsrailin sərhədlərində olmayan və İsraildən heç bir təhlükə və zərər görməyən hökumətlər də öz evlərində oturub İsraillə müzakirədən danışırlar. Doğrudan buna nə lüzum var?! Amma edirlər; çünki qəbahət aradan qalxmışdır.

İran xalqı çox güclü dəlillər və məntiqli əsaslandırmalarla ABŞ dövlətini özünün düşməni bilir. Mən sonra buna toxunacağam. Bütün dünya xalqları da bunu İran xalqından görüblər və buna hörmətlə yanaşırlar. Onlar tədricən bunun qəbahətini ortadan götürmək və adi bir işə çevirmək istəyirlər.

Üçüncü məqsəd budur ki, İranla müzakirənin özü böyük güc olan ABŞ üçün çox əhəmiyyətlidir. Bəziləri təəccüb edə bilər ki, məgər İran nədir ki, böyük güc olan ABŞ üçün onunla müzakirə stolu arxasında oturmaq mühüm olsun. Bəli, çox mühümdür. Təsadüfən, böyük güc olduğu üçün çox əhəmiyyətlidir. Böyük güc dünyanın bütün siyasi güclərindən üstündür və onları öz iradəsinə məcbur edə bilir.

Bir gün dünyada iki böyük güc - ABŞ və Sovet və hər birinin təsir zonası vardı; istədikləri işi görə bilirdilər. Hətta ABŞ öz düşməninə qarşı Avropa ölkələrində Kroz və digər raketlərini yerləşdirmişdi. Yazıq avropalıların da çarəsi yox idi, bir söz demirdilər; çünki keçmiş SSRİ qarşısında müdafiə üçün lazım idi. Sovet də öz təsir regionunda bu işləri görürdü. Bu gün Sovetlər dağıldığından ABŞ dünyada birqütblü sistem yaratmağa çox iddialı və israrlıdır; yəni adı dünya olan böyük imperiyanın başında bir böyük güc dayansın.

ABŞ-ın siyasi texnoloqları bunu gizlətmirlər. ABŞ mətbuatında bu məzmunda elmi-siyasi məqalələr çap olunur. Təxminən bir ay öncə ABŞ mətbuatının birində məşhur bir siyasi yazarın dünyaya müraciətini gördüm. Deyirdi nə eybi var ki, vahid dünya imperiyasının başında ABŞ dursun; ABŞ bu gün belədir, elədir və sair. Ümumiyyətlə, onların iddiaları budur, bunu istəyirlər.[1]

**ABŞ və İsraili himayə**

Son 3-4 ildə amerikalılar hərdən o tərəf-bu tərəfdə dedilər ki, biz İranla əlaqələri bərpa etməyə hazırıq. 3-4 ildir bəzən bu sözləri deyirlər. Əslində, bunu deməyə ehtiyac da yox idi. Bəllidir ki, əlaqə qurmaq istəyirlər. Lakin bu əlaqədə onların məqsədi nədir? Bunu gizli saxlayırlar. Bu yaxınlarda dövlət rəsmilərindən biri - dövlət rəsmisi deyəndə, nə deyim, o bir xanım idi - sadəlövhlük etdi və onların demədiyi sözü dilinə gətirdi. Dedi ki, biz İranla əlaqələr qurarıq, lakin şərti budur ki, İran əvvəlcə İsraillə problemini həll etsin. Bəli, ümumiyyətlə, problem budur. Biz bunu həmişə deyirdik, amma bəziləri fikir vermirdilər. Hər hansı bir ölkə ilə əlaqədə, xüsusən də bu gün İsraillə mübarizənin ən güclü bazası olan müsəlman İranla əlaqədə ABŞ-ın əsas məqsədi budur.

...Məsələ sionist məsələsidir, müsəlman xalqların ürəyində bir xərçəng vəzisi kimi işğalçı İsrail qüvvələrinin yerləşdirilməsidir. Müsəlman xalqlar üçün ən böyük bədbəxtliklər buradan yaranır.

...Təhlil qabiliyyəti olan hər bir şəxsə aydındır ki, bu gün ABŞ-ın İran üçün hegemonluqdan başqa bir planı yoxdur. O, inqilabdan öncəki

---

[1] Tehranın cümə namazı xütbələrindən: 1998.

vəziyyəti qaytarmaq istəyir. Bəllidir ki, İran xalqı bu plan qarşısında dayanır. Bu, İran xalqının istibdad əleyhinə məqsədidir.

...Düşməni tanımaq hər bir işdən mühümdür. Düşmən özünü dost kimi göstərmək, xalqların şüarlarını dəyişdirmək istəyir. Necə ki, bəzi ərəb rəsmiləri arasında sionizmlə mübarizə şüarını başqa bir şüara çevirdilər. İşlərindən biri şüarları dəyişdirməkdir. Elə xalq və dövlət təslim olar ki, düşməni tanımasın, yaxud fəsad və bədbəxtlik içində olsun. Amma düşməni tanısa - mən gənclərə bunu tövsiyə edirəm - o zaman şüarlar aydın və ayıq şüarlar olacaq, Allahın lütfü ilə, düşmən İran xalqından istədiyini ala bilməyəcək.[1]

**İstismar - ABŞ-ın əsas məqsədi**

Bu gün bizim regionumuzda çoxlu məsələlər mövcuddur. Bəlkə də demək olar ki, bu gün dünyanın ən həssas nöqtəsi Orta Şərq regionudur. ABŞ bu regionda özünə bəzi maraqlar tərif etmişdir. ABŞ-ın əsas məqsədi onun istismarçı və imperiyalist maraqları çərçivəsindədir. Bu müəyyən bir yerdə seçdikləri bir şey deyil. Xeyr, bütün dünyaya imperatorluq və hökmranlıq etmək istəyirlər. Bu maraqlar fonunda Orta Şərq həssas region sayılır. Onların Orta Şərq, Fars körfəzi və Şimali Afrika üçün proqramları vardır. Əlbəttə, bunun mənası o deyil ki, bunlar həyata keçəcək. Xeyr, proqramlar var, hazırlıq görüblər, amma nail olmayacaqlar; necə ki, nail olmayıblar. Fələstində nail olmadılar, İraqda nail olmadılar. Lakin buralar və digər ölkələr üçün proqramları vardır. İraq üçün proqramları vardı. ABŞ-ın regiondakı məqsədi odur ki, bu ölkələrdə ona tam müti olan və onun üçün başağrısı yaratmayan qüvvələr hakimiyyətə gəlsinlər. Bugünkü Orta Şərq hökumətləri belə deyillər. Əlbəttə, onların çoxusu mütidirlər, lakin başağrıları var. Əgər ABŞ proqramına uyğun olaraq başağrısı verməməsini istəsələr, yolu budur ki, orada formal bir demokratiya mövcud olsun. ABŞ-ın hökmranlığı olsun, amma zahirən xalq tərəfindən seçilən hökumətlər iş başında olsunlar. Hətta bu gün Orta Şərqdə mövcud

---

[1] ABŞ-ın casus yuvasının tutulmasının ildönümü münasibəti ilə tələbə və şagirdlərlə görüşdə çıxışından: 1999.

olan şah hökumətlərini də ABŞ sevmir. Çünki ona başağrısı yaratdıqlarını bilir. İslam və ərəb hökumətləri bu məqama diqqət yetirməlidirlər.[1]

[1] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2005.

## Otuz beşinci fəsil: Müqavimət və dirəniş

### Yeganə yol dirəniş və müqavimətdir!

İslamı və inqilabı müdafiə etmək üçün yeganə yolumuz dirəniş və müqavimətdir. Xalqın bu günü və gələcəyi üçün dirənişin çoxlu faydaları vardır. Sizin bu müqavimətiniz problemləri inşallah bir-bir aradan qaldıracaq.[1]

### Müqavimət göstərmək əsas işdir!

Allahla rabitə işin düzgünlüyünü və yolda müqaviməti təmin edir. Əgər bu yolda düzgün hərəkət etmək istəsək, könül aparan ötəri məsələlərlə yoldan yuvarlanmamaq və məqsədə sarı düzgün hərəkət etmək istəsək, bu işdə mütləq Allahı xatırlamaq, Allaha güvənmək və Allahla daimi mənəvi əlaqə qurmaq lazımdır. Bunu özümüzün həmişəlik işimiz etməliyik.

...Müqavimət əsas işdir. Ağır bir daşı mənim kimi zəif bir adam da qaldırıb bir neçə saniyə saxlaya bilər, lakin çox saxlaya bilməz, yerə atar. Güclü və bacarıqlı şəxs odur ki, bu ağır daşı lazımi qədərincə saxlaya bilsin. Bizim çoxumuzun niyyəti yaxşıdır, yaxşı niyyətlə başlayırıq, lakin bu niyyəti saxlaya bilmirik. Bu niyyət yolun əsnasında maneələrlə rastlaşır, sürtünür, rəngi azalır, zəifləyir və bəzən güclü bir müxalif cazibə niyyətin yeri olan qəlbi özünə çəkir. Bir də baxıb görürsünüz ki, ümumiyyətlə, niyyət getdi və dəyişdi. O zaman insanın yolu dəyişilir.[2]

### Müqavimət - düşmənin uğursuluğunun amili

Hamımız bilməli və anlamalıyıq ki, hegemon qüvvələr qarşısında geri çəkilmək onları daha da cürətləndirir, müqavimət isə onların uğursuzluğu ilə nəticələnir.[3]

---

[1] Xalqın müxtəlif təbəqləri ilə görüşdə çıxışından: 1989.

[2] Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 2005.

[3] Mübarək Fitr bayramı münasibəti ilə İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 2005.

İslamı müdafiə erkən İslam çağında olduğu kimi bu gün də fədakarlıq etmədən və candan keçmədən mümkün deyil. Sadiq müsəlmanların canı, malı, əməyi, elmi, hörməti, sərvəti - hər bir şeyi lazım olduqda o işıqlı və müqəddəs həqiqəti müdafiəyə sərf olunmalıdır. Bütün xalq, xüsusən də İslam dövlətinin məmurları şəhidlərin bu dərsini həmişə yadda saxlamalı və bu yolda Allah-Taaladan uğur diləməlidirlər.[1]

**Haqdan ötrü mübarizə**

Əgər haqdan ötrü mübarizə aparılsa, heç bir batil önə çıxmağa qadir olmaz. Əgər mübarizə və mücahidlik olunsa, Allah-Taala kömək və hidayət edər. Amma mübarizə aparmasaq, bikar otursaq, sayıq olmasaq, səngərdə yatsaq, yenə də düşmən bizim səngərimizi fəth etməyə gəlməyəcək?! Kim belə bir söz demişdir?! Biz çalışmalıyıq ki, düşmən nakam qalsın. Əgər biz çalışmasaq, düşmən uğur qazanacaq və bundan Allaha pənah aparırıq. Biz imkan verməməliyik ki, bizim vəzifə dövrümüzdə və bizim ciynimiz üzərində belə olsun.

...İlahi sünnə o zaman əməl edəcək ki, biz öz yerimizdə möhkəm dayanmış olaq. Əsas məsələ budur. Elm, əməl, söz, iş, siyasi, ictimai və fərdi baxımdan durduğumuz post - hara bizim postumuz, məmuriyyət və məsuliyyət yerimizdirsə, orada möhkəm, fədakarlıqla və az gözlənti ilə dayanıb işimizi görməliyik. Allah-Taala da inşallah kömək edəcək və bərəkətləri bizə nazil olacaq; necə ki, Allahın lütfü ilə indiyədək belə olmuşdur.[2]

**Müqavimət sayəsində işi bitirmək lazımdır!**

İran xalqı keçmiş uğurlardan iki dərs almalıdır: Birinci dərs budur ki, bu uğurlar müqavimətin sayəsində əldə ediləcək, təlsimçiliyin sayəsində yox. Kim böyük güclərə təslim oldusa, xar oldu; xardırsa, daha da xar edəcək, başıucadırsa, zəlil edəcəklər... İkinci dərs də budur ki, yol yarımçıqdır və işləmək lazımdır.[3]

---

[1] Dəyərli şəhidlərin anım münasibətilə müraciətindən: 1992.
[2] Buşəhr vilayətinin ruhaniləri və cümə imamları ilə görüşdə çıxışından: 1992.
[3] Fəhlə və müəllimlərlə görüşdə çıxışından: 1991.

**Başucalığı - müqavimətin nəticəsi**

Bəzi Avropa dövlətləri absurd iddialarla İslam Respublikasını güzəştə vadar etməyə çalışırdılar. Müqavimət, dirəniş, uzaqgörənlik, ağıl, inqilab və İslam dəyərlərinə arxalanmaq və Böyük İmamımızın inqilabın ilk on ilindəki getdiyi yolu seçmək onların uğursuzluğuna səbəb oldu. Onlar geri çəkildilər və İslam Respublikası Avropa ölkələrinin kollektiv şəkildə ölkəmizi tərk etmiş səfirləri sınağından başıuca çıxdı. Bunu hamı etiraf etdi.

...Xoşbəxtlikdən, xalqımız bu sahədə məsul şəxslərə son dərəcə sayıq yardımını etdi və yenə də edir. Bir quruluşun və dövlətin əcnəbi, düşmən, bədxah və hər hansı iddiaçılar qarşısında müqaviməti məsul şəxslərin uzaqgörənliyindən, bacarığından və müdrikliyindən əlavə, xalqın sayıqlığına və fəallığına da borcludur. Bu il boyu – istər seçkilərdə, istər hər il adət olan müxtəlif yürüşlərdə, xüsusən də ilin axırlarındakı yürüşlərdə xalqın güclü fəallığı öz sözünü deyə və böyük nəticələr gətirə bildi.[1]

**Problemləri aradan qaldırmaq prosesi**

Problemləri aradan qaldırmaq prosesi onların yaranma prosesi kimidir. İqtisadi, siyasi, yaxud başqa bir problem yarananda öz ardınca başqa problemləri də gətirdiyi kimi, problemlərin aradan qalxması da belədir. Siz bir düyünü açdıqda görürsünüz ki, ondan sonra beş başqa düyünü açmaq imkanı yaranır. İşgüzar əllərin hər hansı biri az və kiçik işdən başlasa, düşünürəm ki, yaxşı nəticələr əldə olunar. Bu tələb edir ki, siz pul xərcləməkdə, proqram seçməkdə, bir hissəni o biri hissədən önə keçirməkdə və hər bir hissə daxilində bir proqramı önə keçirməkdə prioritetlərə riayət edəsiniz. Mən görürəm ki, bəzi yerlərdə buna riayət olunmur.[2]

**İşlərdə müntəzəmlik**

---

[1] Yeni il münasibəti ilə novruz müraciətindən: 1998.

[2] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışından: 1999.

İşlər düzgün getməlidir: "Əgər onlar o yolda doğru olsaydılar, Biz onlara bol yağış verərdik"[1]. Yolda düzgünlük. Yolu düzgün və müntəzəm getmək lazımdır. Əgər üç-dörd gün yaxşı və düzgün getsək, sonra isə tərk etsək, faydası yoxdur.[2]

**Mehdi inancı və həyata ümid**

Mehdiyə etiqadı olan cəmiyyətin qəlbi qüvvəli olar. Qəlbin qüvvəliyi xalqlar üçün çox önəmlidir. Bilin ki, müstəmləkəçiliyin İslam ölkələrinə hökmranlığı xalqları ümidsiz edəndən sonra baş verdi. Onlar zəiflik, gücsüzlük hiss etdilər, sonra bunlar gəlib zorla onlara hakim oldular. Bu gün də belədir. Biz dünyanın siyasi və diplomatik münasibətlərində gözlərimiz önündə görürük ki, qlobal hegemonizmin ən böyük fəndlərindən biri müxtəlif ölkələrin - o cümlədən, İslam ölkələrinin məsul şəxslərini ümidsiz etmək, onlara dayaqsızlıq hissi ötürmək istəməsidir; onlar məsələn, ABŞ-ın boyunduruğu altına düşməkdən başqa yollarının olmadığını hiss etsinlər. Belə zəiflik hissi böyük bəladır.[3]

---

[1] "Cin"/16.

[2] İslam Şurası Məclisinin sədri və deputatlarla görüşdə çıxışından: 1994.

[3] 15 Şaban - İmam Mehdinin (ə) doğum günü münasibəti ilə xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 2005.

## Otuz altıncı fəsil: Xarici siyasət

### Başucalığı, müdriklik və xeyir

Başucalığı, müdriklik və xeyir beynəlxalq münasibətlərdə bizim çərçivəmiz üçün lazım olan üçbucaqdır. Başucalığı: "İslam üstündür, ona üstün gəlinmir"[1]; "Allah heç vaxt kafirlərə möminlərin əleyhinə olan bir yol göstərməz!"[2] Biz başucalığımızı irqlə, nasionalizmlə və təəssüf ki, bütün dünyanın güvənərək öz ətrafına hasar çəkdiyi sözlərlə sübut etmək istəmirik.

...Biz başucalığını İslam təfəkkürünün səciyyəsi olan tövhid etiqadı və imanı əsasında, Allaha bağlılıq, Allahın yaratdıqlarına sevgi və xidmət şərtilə qəbul edirik. Odur ki, biz özünün digər xalqlarla münasibətlərində supergüclülüyü, təkəbbürlülüyü, hegemonluğu və lövğalığı əsas götürən hər bir qüvvəni rədd edirik.

...Biz İslam, tövhid izzəti və öz xalqımızın başucalığı əsasında hərəkət edirik.

Bizim xalqımız beynəlxalq münasibətlərdə rəzillik görməməli və təhqir olunmamalıdır. Heç kəsin haqqı yoxdur ki, xalqımıza qarşı təhqiri qəbul etsin. Əgər kimsə təhqiri qəbul edəndirsə, özü üçün qəbul edər, xalq üçün olmaz, buna haqqı çatmır.

...Müdriklik düşünülmüş və ağıllı işləməkdir. Diplomatik danışıqlarda, xarici siyasətə və beynəlxalq münasibətlərə aid məsələlərdə heç bir biçimsizliyə yol vermək olmaz. Hər bir şey ölçülüb-biçilmiş olmalı, heç kəs ağzına gələni danışmamalıdır. Ölçməliyik ki, bu söz məntiq və ağıl meyarlarına uyğundur, ya yox. Əgər uyğun deyilsə, ona nəzarət edək. Biz müdrikcəsinə rəftar etməliyik. Yalnız danışıqda deyil, davranış və rəftarda da hikmətli olmaq lazımdır. Əlbəttə, hikmət dinməmək deyil. Bəziləri deyirlər ki, biçimsiz söz deyilməməlidirsə, bəs nə üçün danışmaq lazımdır. Sanki heç bir biçimli iş görmək olmaz. Xeyr, əgər "biz müdrik işləməliyik"

---

[1] "Bihar əl-ənvar", c. 39, səh: 47.

[2] "Nisa"/141.

dediksə, mənası bu deyil ki, işləməyək, ünsiyyət qurmayaq, hərəkət etməyək, danışmayaq, birdən biçimsiz çıxar.

...Biçimsiz iş görülməməlidir. Çünki burada onun zərəri hansısa yerin qeydiyyat idarəsində, yaxud Sənaye Nazirliyində görülən biçimsiz işin zərərindən fərqlidir. Xarici İşlər Nazirliyində biçimsiz işin zərəri daha dərin, daha ümumi, nəzərəçarpan və nağddır. Ölçülüb-biçilməmiş iş görülməməli, söz deyilməməlidir. Hər bir işin tərəfləri yaxşı ölçülüb-biçilməlidir. Müdrikliyin mənası budur.

Xeyrə gəldikdə isə məqsəd mənim və sizin xeyrimiz deyil ki, biz bu işi gördükdə bizim üçün ağır bitməsi mümkün olsun. Xeyr, ağır bitsə də biz kimik ki?! Əgər bir iş ölkənin və inqilabın xeyrinə, lakin mənim şəxsi xeyrinə deyilsə, bizim xeyrimizin nə əhəmiyyəti var?! Xeyir dedikdə məqsəd inqilabın hərtərəfli xeyridir. Bu isə bizim və xüsusən də sizin şəxsi rəftarınızdan başlayır.

Xarici İşlər Nazirliyinin əməkdaşı olan sizlərin, xüsusən də xaricdə çalışan səfirlərin və ikinci növbədə xaricə get-gəl edənlərin işi və şəxsi rəftarı başqa bir nazirlikdə çalışandan fərqlənir. Siz elçi və nümayəndəsiniz. Xaricdə vəziyyətin necə olduğu sizdən təxmin vurulur. Sizin səfirlikdə müsəlman yaşamanız, həyat yoldaşınızın, övladlarınızın, işçilərinizin müsəlman kimi davranması başqa bir nazirliyimizdə sizinlə eyni səviyyədə, eyni rütbədə çalışan biri kimi deyil, təsiri daha çox nəzərə çarpır. Əgər Allah eləməmiş, əməliniz normadan bir qədər kənara çıxsa, zərəri daha çox olacaq. Deməli, xeyirli rəftara buradan başlamaq lazımdır.

Mən digər ölkələrdə yaşayan qardaşlardan mütləq zahidlik gözləmirəm, lakin qısaca demək istəyirəm ki, bir qədər özünü saxlamaq lazımdır. Əgər kiminsə gəliri, istifadə imkanı varsa, öz meyli, təşəbbüsü və şəxsi iradəsi ilə bəzi istəklərin qarşısını alsın. Bu çox faydalıdır. Həm inqilabın ümumi vəziyyəti üçün faydası var, həm də şəxsi baxımdan sizə nuranilik verər. Sizin belə bir imkanınız olduğuna görə, hansısa dəbdəbədən, artıq xərcdən, sui-istifadədən - insan onun üçün qanunsuz bir bəhanə də fikirləşə bilər - çəkinsəniz, onun fəziləti, faydası və öz nəfsinizə təsiri olduqca böyük olar.[1]

---

[1] Xarici İşlər Nazirliyinin əməkdaşları ilə görüşdə çıxışından: 1991.

**Bizim İslam prinsiplərimiz dünyaya hakim olmalıdır!**

Dünyada digər hökumətlərin və dövlət məmurlarının gördüyü işlərin bizə də icazəli olduğunu düşünmək səhvdir. Bizim öz prinsiplərimiz, özümüzə xas üsullarımız var. Bunlar İslama aiddir. Bu prinsiplər dünyaya hakim olmalıdır, cahiliyyət və hegemonizm dünyasının səhv prinsipləri bizə hakim olmamalıdır.[1]

**Əcnəbinin bizim maraqlarımızı tapdamasına imkan vermərik!**

Biz ölkəmizin və xalqımızın maraqları üzərindən dünyada heç kəslə bazarlıq etmirik. Bu ölkənin və bu xalqın düşmənləri öz düşmənliklərinə səbəb göstərməkdən ötrü deyirlər ki, İslam Respublikası quruluşu bizim maraqlarımızı təhdid edir. Amerikalılar deyirlər ki, İslam Respublikası bizim maraqlarımızı təhdid edir. Biz İran xalqı öz ölkəmizin dörd divarı daxilində bizim maraqlarmıza - istər elmi, istər təbii, istər insani, istər texnoloji maraqlarımıza təcavüz niyyətilə uzanan hər bir əli dərhal kəsəcəyik. Biz ölkəmizin sərhədləri daxilində icazə vermərik ki, hər hansı gücün maraqları bizim milli maraqlarımızdan önə keçirilsin. Lakin düşmən həyasızlıq, hücum və təcavüz etsə, o zaman bizim cavabımız yalnız ölkəmizin divarları daxilində olmayacaq. Əgər kimsə bizim xalqımıza hücum və təcavüz etsə, biz onun dünyanın hər bir nöqtəsindəki maraqlarını təhdid edəcəyik.[2]

**Diplomatik münasibətlər və düşmənə güvənməmək**

Növbəti məsələ xaricilərin və qərblilərin müdaxiləsi ilə ciddi mübarizə, qərblilərin işarəsinə və bədgümanlığına etina etməməkdir. Əlbəttə, diplomatiya və xarici əlaqələr başqa mövzudur. İnsan diplomatiya məqamında verir-alır, müqavilə bağlayır və hər bir iş görür. Lakin quruluşun əsas məsələlərində onların işarəsinə bədgümanlıqla baxmaq lazımdır... Onların niyyətləri əsla yaxşı deyil. Biz səkkizillik müharibədə gördük ki, bütün Avropa Səddama kömək etdi; Fransa kömək etdi,

---

[1] İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 1991.

[2] Həmədan əhalisi ilə ümumi görüşdə çıxışından: 2004.

Almaniya kömək etdi, İngiltərə kömək etdi, keçmiş Yuqoslaviya kömək etdi, ozamankı Şərq bloku kömək etdi. Düzdür, biz diplomatik danışıqlarda heç kimə demirik ki, siz Səddama kömək etdiyinizdən biz sizinlə əlaqəmizi kəsirik. Xeyr, diplomatiya dünyası başqa dünyadır. Bu gün bizim xarici siyasətimizdə irəli sürülən "Gərginliyi azaltmaq" siyasətini biz də dəstəkləyirik. Gərginlik azaldılmalıdır. Lakin gərginliyi azaltmaq kiminsə onlara güvənməsi demək deyil. Xeyr, o bizə güvənmir, biz də ona. Diplomatik sahədə fəalliyyət göstərənlər mənim nə dediyimi yaxşı anlayırlar. Ümumiyyətlə, diplomatiya real döyüş sahəsidir. Lakin elə bir döyüş ki, stol arxasında, təbəssümlə, "sabahın xeyir" və "gecən xeyrə qalsın" deməklə baş verir. Diplomatik münasibətlərin olması heç zaman düşmənə etimad sayılmamalıdır.[1]

**Diplomatiyada qadağan olunmuş zonanı keçmək olmaz!**

Bəziləri deyirlər ki, fəal diplomatiya. Bəli, biz fəal doplomatiyanı qəbul edirik. Düşünürük ki, bizim Xarici İşlər Nazirliyimiz dünya səviyyəsində istisna etdiyimiz bir neçə yerdən başqa hər yerdə fəaliyyət göstərsin. Əlbəttə, dəfələrlə demişik ki, başucalığını, müdrikliyi və xeyri qoruyun. Gedib bütün dövlətlərlə, müxtəlif sistem, etiqad və üsullara malik ölkələrlə əlaqə qursunlar. Eybi yoxdur. Lakin qadağan olunmuş bir zona var, onu keçmək olmaz.

Avropa bir nümunədir. Həzrət imam Avropa dövlətləri ilə əlaqə qurmağa icazə vermişdi. Bizim Xarici İşlər Nazirliyimiz də çox fəaliyyət göstərdi. İndi mən soruşuram: bizim bir çox Qərbi Avropa dövlətləri ilə dost münasibətlərimizə rəğmən, onlar həqiqətən İslam Respublikası ilə gözlənilən tərzdə rəftar etdilərmi?! Xeyr! Üstəlik, onlar ABŞ-dan zəifdirlər. Bu həqiqəti müxtəlif hadisələrdə gördük. Onlar özlərinin İslam Respublikasına və İslama müxalif içlərini göstərdilər. Məsələ İslam məsələsidir.[2]

**Xaricdə ölkənin rəsmi siyasətlərinə tabe olmaq**

---

[1] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2000.
[2] Müəllim və fəhlələrlə görüşdə çıxışından: 1990.

Çox mühüm məsələlərdən biri də xaricdə İslam Respublikasının elan olunmuş rəsmi siyasətlərinə tabe olmaqdır. Harada olsanız, sizin beyninizdə, əməlinizdə və dilinizdə olan şəxsi üsul İslam Respublikasının qəbul etdiyi siyasətə üstün gəlməməlidir. Fərz edək, o siyasət yanlış da olsa, onu düzəltməyin yolu əsla bu deyil ki, İslam Respublikasına bağlı bir qüvvə, məsələn, ümumi, yaxud xüsusi iclasda o siyasətlərə qarşı çıxdığını elan etsin. Bu iş İslam Respublikasının yanlış siyasət seçməsindən əlavə, təşkilati uğursuzluğundan da xəbər verəcək. Bu, iki eyibdir.

Hər bir təşkilat - bir ailə də belədir - bir olmalıdır ki, ona etimad göstərilsin. Biz bir-birimizə bağlı olmalıyıq. Belə ağır yükü üzərinə götürmüş bir quruluş birliyin örnəyi olmalıdır. Xalqın arasında kiminsə rəsmi nəzərlərə müxalif bir fikri ola bilər, lakin hökumət üzvü olan qüvvə orada hökumətin rəsmi mövqeyini bildirməli və təşkilati sistemin birliyini əməli surətdə göstərməlidir. Bu çox mühüm məsələdir. Biz bunları təcrübə etmiş və xaricdə necə əks olunduğunu görmüşük.[1]

**Beynəlxalq məsələlərdə siyasi təşəbbüsçülük**

Biz beynəlxalq məsələlərdə İslam Resbpublikasının siyasi təşəbbüsçülüyü üçün çoxlu nümunələr müşahidə edirik. Çoxlu yerlər var ki, bəzi səbəblərə görə qlobal güclər onlarla məşğul olmurlar. Yaxşı bacarırlar, lakin bəzi səbəblərə görə maraqlanmırlar. Məsələn, bir yerdə bir hərəkət, bir təşəbbüs böyük güclərin mənafeyinə zidd olur; adətən üçüncü dünyanın, yaxud Avropanın bir ölkəsi hər hansı səbəbdən bu işi görmür. Lakin biz bu işləri görə bilərik. Açıq yollar vardır və bir ölkə addım atsa, ona cavab vermək olar.

Əvvəllər siz qardaşlarla oturanda təkrarlayırdıq ki, biz müəyyən birliklər yarada bilərik. Biz Asiyada, Orta Şərqdə, İslam ölkələrində, Şərq regionunun İslam ölkələrində və bəzən başqa yerlərdə fəal olub ittifaqlar yarada bilərik. İslam Respublikası indiki beynəlxalq birlikləri də düzgün istiqamətə yönəldə bilər.[2]

---

[1] Xaricdəki mədəni nümayəndələrlə görüşdə çıxışından: 1991.

[2] Xarici İşlər Nazirliyinin məsul şəxsləri ilə görüşdə çıxışından: 1991.

**Xarici siyasətdə təqiyyəyə diqqət**

Təqiyyədən söhbət etdikdə deyə bilərsiniz ki, təqiyyə zalım bir hökumətin iş başında olduğu, bizim gizləndiyimiz və qorxusundan bir söz demədiyimiz zamana aid idi. Xeyr, o zaman da təqiyyə qorxu məsələsi deyildi: "Təqiyyə mömünin qalxanıdır"[1]. Qalxanı harada işlədirlər? Qalxan döyüş meydanında istifadə olunur və vuruşan zaman kara gəlir. Deməli, təqiyyə qarşıdurmaya aiddir.

O zaman da belə idi. Təqiyyənin mənası bu idi ki, xəncər zərbəsini düşmənin mənfur bədəninə endirirdik; amma elə endirirdik ki, o nə xəncəri, nə vuran əli, nə onun qaldırılmasını və nə endirilməsini görüb anlayırdı. Yalnız ağrısını hiss edirdi. Təqiyyə bu idi. O zaman təqiyyə edənlər belə təqiyyə edirdilər. Onlar məxfi şəkildə, düşmənin gözündən uzaqda, gizli evlərdə, min növ diqqət və ehtiyatla, məsələn, bəyanat hazırlayırdılar, yayılanda isə rejim bütünlüklə rüsvay olurdu. Bu iş xəncər zərbəsinə kimi qalxanda düşmənin belinə və başına dəyirdi. Odur ki, o zaman təqiyyə edirdik. Yəni düşmənin nə baş verdiyini anlamasına qoymurduq. Təqiyyə qalxan idi və təqiyyə edən qalxan arxasında gizlənirdi. Təqiyyənin mənası budur. İndi də həmin anlamı ifadə edir.

Hal-hazırda qlobal hegemonizm güc sahibidir. Sizin də məqsədləriniz var və bəzi işlər görmək istəyirisiniz. Heç bir lüzumu yoxdur ki, kimsə daim tribunalardan elan etsin və yarış keçirsin ki, filan işi görmək istəyirik, sonra da görməsin.

Mənim siyasi fəaliyyət boyu gördüyüm təcrübəli və bacarıqlı müsəlman rəhbərlərdən biri Seku Ture idi. O çox bacarıqlı, təcrübəli və ayıq adam idi. Tehrana etdiyi bir neçə səfərdə onunla çoxlu görüşlərim olub. O, inqilaba çox vurulmuşdu. O zəif olsa, yolunu gedə bilməsə, Qvineyanı idealı olan və sevdiyi şəkildə qura bilməsə, hegemonizm onun qollarını arxadan bağlasa və müxtəlif yollarla mühasirəyə salsa da, uğurlu və sağlam insan idi və düzgün anlayırdı. O bu inqilabı çox sevirdi və imama həqiqətən ürəkdən hörmət bəsləyirdi... Bir dəfə mənə dedi ki, sizin yalnız bir eybiniz var. O da budur ki, daim bütün işləri deyir və söyləyirsiniz. Bütün işləri deməzlər. Nə üçün deyirsiniz? Mən

---

[1] "Üsul əl-Kafi", c. 2, səh: 221.

prezidentliyimin birinci ilində bu sözü eşidəndə bəlkə də ürəkdən qəbul etmədim. Öz-özümə dedim ki, bu dünya onun xəyal etdiyi dünya deyil. Biz bir söz dedikdə dünya anlayır, deməsək, anlamaz və deməyimiz problem yaratmır. Sonrakı təcrübələr göstərdi ki, o, təcrübəli və haqlı olmuşdur.

İndi mənim fikrim budur. Bəzi qardaşlar bəzi yerlərdə oturub elə bilirlər ki, özlərindən başqa heç kəs yoxdur, bəzi məsələ və arzuları dillərinə gətirir və deyirlər; düşmən də bundan sui-istifadə edir. Bizdə belə hallar olub. Siz ehtiyatlı olub düşmənə bəhanə verməməlisiniz. Bu xüsusda Xarici İşlər Nazirliyi, xarici siyasətlə əlaqəsi olanlar, parlament, hökumətin digər sahələri və bəzi cümə imamları daha diqqətli olmalıdırlar. Deməli, təqiyyə məsələsi çox mühümdür və xarici siyasətdə onu diqqətdə saxlamalıyıq.[1]

**Məmurların düzgün mövqe seçməsinin zəruriliyi**

Bu gün bütün xalqın və birinci növbədə məmurların, dövlət rəsmilərinin, parlament deputatlarının, alimlərin, natiqlərin və yüksək rütbəli məmurların üzərinə düşən budur ki, bu İslam quruluşunun doğulduğu zaman ən qatı və ən vəhşi düşmənlərlə üzləşdiyi kimi, indi də həmin düşmənlərlə üz-üzə olduğunu bilib anlasınlar. Ölkə məmurlarından - istər hökumət, istər Ali Məhkəmə, istər parlament məmurlarından bu qəddar düşmənə təmayülü göstərən heç bir söz və əməl baş verməsin. Sayıq olsunlar. Olmasın ki, bir məmur - istər elmi-mədəni, istər iqtisadi, istər siyasi məmur, istər qanunverici hakimiyyətdə, istər icraçı hakimiyyətdə, istər Ali Məhkəmədə çalışan bir məmur bir söz desin, bir mövqe bildirsin, bir iş görsün və bu, düşmənin xeyrinə tamamlansın. Düşmən oyaqdır, siz də oyaq olmalısınız.[2]

---

[1] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 1990.

[2] 19 Dey (9 yanvar) münasibəti ilə Qum əhalisinin müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 2001.

## Otuz yeddinci fəsil: Bağışlanmaq istəyi

**Bağışlanmaq istəyinin faydası**

Bağışlanmaq istəyi - günahlar üçün ilahi bağış və əfv diləməkdir. Əgər bu düzgün baş versə, ilahi bərəkətlərin qapısını açar. Bir fərdin və bir cəmiyyətin ilahi lütflərdən möhtac olduğu hər bir şey - ilahi rəhmət, nurluluq, hidayət, Rəbb tərəfindən uğur, işlərdə kömək, müxtəlif sahələrdə yardım qapısı bizim etdiyimiz günahlar vasitəsi ilə bağlanır, günah bizimlə ilahi mərhəmət və lütf arasında pərdə olur. Bağışlanmaq istəyi bu pərdəni götürür, Allahın rəhmət yolunu bizə açır. Bağışlanmaq istəyinin faydası budur.

...Bağışlanmaq istəyi əslində, tövbənin bir hissəsidir. Tövbə də Allaha qayıdışdır. Tövbənin şərtlərindən biri bağışlanmaq istəyi, yəni Allah-Taaladan əfv diləməkdir. Bu, Allahın böyük nemətlərindən biridir. Yəni Allah-Taala bəndələr üçün tövbə qapısı açmışdır ki, bunlar kamal yolunda irəliləyə bilsinlər və günah onları iflic etməsin. Çünki günah insanı insani zirvədən endirir. Günahların hər biri insanın ruhuna, saflığına, mənəviyyata və mənəvi yüksəlişə bir zərbə vurur, onu qaraldır. Günah insanda olan və onu bu maddi dünyanın digər məxluqlarından ayıran mənəvi cəhəti şəffaflıqdan salır, heyvanlara və cəmadata yaxınlaşdırır.[1]

**Günah insanı iflic edir!**

Günahlar insanın həyatında mənəvi cəhətdən əlavə, bəzi maddi uğursuzluqlara da səbəb olur. Bəşər fəaliyyətinin bir çox sahələri var ki, insan etdiyi günahlara görə uğursuzluğa düçar olur. Əlbəttə, bunların elmi, fəlsəfi və psixoloji izahı da var, yalnız gözüyumulu qəbul etmirik. Necə olur ki, günah insanı iflic edir? Misal üçün, Ühüd döyüşündə bəzi müsəlmanların səhlənkarlığı və təqsiri səbəbindən ilk qələbə məğlubiyyətə çevrildi. Yəni müsəlmanlar əvvəl qalib gəldilər, amma sonra dağın yarıq hissəsində oturub cəbhənin arxasını mühafizə etməli olan oxçular qənimət tamahından səngərlərini buraxıb meydana qaçdılar və düşmən də onları

---

[1] Tehranın cümə namazı xütbələrindən: 1997.

mühasirəyə alıb qəfil hücumla tar-mar etdi. Ühüd məğlubiyyəti bundan başladı.

Ali-İmran surəsində bəlkə də 10-12, yaxud daha çox ayə bu məğlubiyyət barədədir. Çünki müsəlmanlar psixoloji cəhətdən çox gərgin idilər. Bu məğlubiyyət onlar üçün çox ağır tamamlanmışdı. Quran ayələri onları həm sakitləşdirir, həm hidayət edir, həm də başa salırdı ki, sizin bu məğlub olmanıza nə bais oldu və bu hadisə nədən qaynaqlandı. Nəhayət, bu şərafətli ayəyə çatır: "İki ordu qarşılaşdığı gün sizdən üz döndərənləri şeytan, məhz etdikləri bəzi əməllərlə yoldan çıxmağa məcbur etdi". Yəni gördünüz ki, Ühüd döyüşündə sizin bir qrupunuz düşmənə arxa çevirdi və məğlubiyyətə uğradılar; bunların məsələsi qabaqcadan hazırlanmışdı. Bunların mənəvi nöqsanları vardı. Şeytan bunları qabaqcadan gördükləri işlərin köməyi ilə səhvə vadar etdi. Yəni qabaqkı günahlar təsirini cəbhədə göstərir; hərbi cəbhədə, siyasi cəbhədə, düşmənlə mübarizədə, quruculuq işində, təlim-tərbiyə işində, müqavimətin, dəqiqliyin lazım olduğu yerdə, insanın polad kimi kəsib irəliləməli və maneələri ortadan götürməli olduğu yerdə. Sözsüz ki, Nəsuh tövbəsinin və həqiqi əfvin dilənmədiyi günahlar belədir.

Həmin surədə başqa bir formada həmin mənanı çatdıran bir ayə də var. Quran demək istəyir ki, sizin məğlub olmanız və döyüşdə problemin yaranması təəccüblü deyil. Bu hadisələrdən indi də baş verir, öncə də baş vermişdir. Buyurur: "Neçə-neçə peyğəmbər bir yığın allahpərəstlə birlikdə (düşmənə qarşı) vuruşmuşlar. Lakin onlar Allah yolunda çəkdikləri müsibətlərə görə nə zəiflik, nə acizlik göstərmiş, nə də (kafirlərə) boyun əymişlər". Yəni sizə nə olub? Ühüd döyüşündə məğlub olduğunuza və bəzilərinizin öldürüldüyünə görə hamınız gərgin və narahatsınız; bəziləriniz zəiflik və ümidsizlik hiss edirsiniz. Xeyr, öncəki peyğəmbərlər üçün də döyüş zamanı belə hadisələr baş verirdi. Onlar baş verənlərə görə zəiflik hiss etmirdilər. Sonra buyurur: "Onların: “Ey Rəbbimiz, günahlarımıza və işlərimizdə həddi aşdığımıza görə bizi bağışla! Qədəmlərimizi möhkəmləndir və kafirlərə qələbə çalmaqda bizə kömək et!” – deməkdən başqa sözləri olmamışdır". Yəni keçmişdə peyğəmbərlərin səhabələri və həvariləri döyüşlərdə və müxtəlif hadisələrdə fəlakətə düçar

olanda Allaha dua edib deyirdilər: "Ey Rəbbimiz, günahlarımıza və işlərimizdə həddi aşdığımıza görə bizi bağışla!" İlahi! Bizim günahlarımızı, israfçılıqlarımızı və işlərimizdə etdiyimiz diqqətsizlikləri bağışla! Bu əslində, onu göstərir ki, hadisə və müsibət sizin günahlarla hazırladığınız vəziyyətdən irəli gəlir.[1]

**Günahın fərd və cəmiyyətə təsiri**

İnsanın etdiyi günahlar, müxtəlif yayınmalar, ehtirasdan, günyagirlikdən, tamahkarlıqdan, dünya malına hərislikdən, dünya məqamına yapışmaqdan, insanın əlində olan sərvətlərə qarşı xəsislikdən, həmçinin paxıllıqdan, xəsislikdən, tamahkarlıqdan və qəzəbdən irəli gələn işlər insanın vücudunda iki qəti təsir buraxır. Bir təsir mənəvidir; ruhu ruhanilikdən, nuranilikdən çıxarır, insanda mənəviyyatı zəiflədir, ilahi rəhmət yolunu bağlayır. Digər təsir budur ki, ictimai mübarizələrdə, əzmkarlığa, müqavimətə, insan iradəsinin qətiyyət göstərməsinə ehtiyac olan yerdə insanın yaxasını tutur; bu zəifliyi düzəldən başqa bir amil olmadıqda insanı çökürdür. Əlbəttə, bəzən digər amillərin, məsələn, insanda yaxşı bir xüsusiyyətin və yaxud işin olması mümkündür. Bu onu düzəldir. İndi o yerlərdən söhbət getmir. Öz-özlüyündə günahın təsiri budur.[2]

**Qafillik - insanın ən böyük düşməni**

Bir məsələ budur ki, bağışlanmaq istəyini və bu ilahi neməti əldə etmək istəsək, iki xisləti özümüzdən uzaqlaşdırmalıyıq: qafilliyi və qüruru. Qafillik odur ki, insan ondan günahın baş verdiyini ümumiyyətlə, bilməsin və buna diqqət yetirməsin... Hər halda, dünyada və insanlar arasında belə adamlar var. Onlar qafildirlər: günah edirlər, lakin onun baş verdiyinə diqqət yetirmirlər. Yalan danışırlar, təxribat aparırlar, qeybət edirlər, zərər vururlar, dağıntı yaradırlar, qətl törədirlər, müxtəlif günahsız insanlara papuş tikirlər, ucqar üfüqlərdə və geniş miqyasda xalqlar üçün qorxulu yuxular görürlər, xalqı azdırırlar və bu səhv işləri gördüklərinə əsla diqqət

---

[1] Yenə orada.
[2] Yenə orada.

də yetirmirlər. Əgər kimsə ona "günah edirsən" - desə, laqeydliklə qəhqəhə çəkib ələ salması da mümkündür: "Günah?! Nə günahı?!"

Bu qafil insanların bəzilərinin ümumiyyətlə, savaba və əzaba inamı yoxdur. Bəzilərinin savaba və əzaba inamı var, lakin qəflət içərisindədirlər və nə iş gördüklərini bilmirlər. Əgər bunu özümüzün gündəlik həyatımızda bir qədər kiçiltsək, görəcəyik ki, həyatımızın bəzi halları qafillərin halına bənzəyir. Qafillik çox qəribə bir iş və böyük təhlükədir. Bəlkə də insan üçün heç bir təhlükə qafillikdən ciddi və heç bir düşmən qafillikdən böyük deyil. Bəziləri belədirlər.

Qafil insan heç zaman bağışlanmaq barədə düşünmür, ümumiyyətlə, günah etdiyini xatırlamır. Günaha qərq olub, məst və yuxuludur, həqiqətən yuxuda hərəkət edən adam kimidir. Əxlaq və seyri-süluk adamları buna görə əxlaq məsləkində və nəfsi paklamada yolçuların mənzillərini bəyan edərkən insanın qafilikdən çıxmaq istədiyi bu mənzilin adını Oyanış mənzili qoyurlar.[1]

**Qafillik qarşısında diqqət**

Quran terminlərində qafilliyin əksi təqvadır. Təqva - sayıq olmaq və daim özünə nəzarət etməkdir. Əgər qafil insan onlarla günah edir və günah etdiyini əsla hiss etmirsə, təqvalı insan onun tam əksinədir. Azca günah da etsə, tez fikir verir ki, günah etmişdir və onu düzəltmək lazımdır: "Təqvalılara şeytandan bir vəsvəsə (zərər) toxunduğu zaman onlar xatırlayıb düşünərlər". Şeytan onun yanından keçən kimi, şeytanın küləyi ona toxunan kimi tez səhvə və qafilliyə düçar olduğunu hiss edir və xatırlayır. Belə adamın gözü açıqdır.

Mənim əzizlərim! Qardaş və bacılar! Kim olsanız, diqqətli olun. Bu müraciət xalqın xüsusi bir qrupuna aid deyil ki, deyək məsələn, az məlumatlı insanlar, savadsız insanlar, yaxud gənc və azyaşlılar buna fikir versinlər. Xeyr, hamıya aiddir. Alimlər, görkəmli şəxsiyyətlər, böyüklər, kiçiklər, pullular, yoxsullar - hamı diqqətli olmalıdır; çünki ən azı bəzən qafillik onların da yaxasını tutur və qafil olurlar; ümumiyyətlə, günah edirlər, lakin günah etdiklərinə diqqət yetirmirlər. Bu, böyük məsələdir.

---

[1] Yenə orada.

Mən və siz etdiyimiz günaha diqqət yetirmirik. Günah etdiyimizi bilmədiyimizdən ona görə tövbə etmir və bağışlanmaq istəmirik. Qiyamət günü gözlərimiz açıldıqda isə görəcəyik ki, əməl dəftərimizdə qəribə şeylər var. İnsan təəccüb edəcək ki, mən bu işləri nə vaxt görmüşəm; ümumiyyətlə, xatırlamayacaq. Bu, qafilliyin günahı və problemidir. Deməli, bağışlanmaq istəyinin bir maneəsi qafillikdən ibarətdir.[1]

**Qürur**

İkinci maneə qürurdur. İnsan kiçik bir iş görən kimi məğrur olur. Dua və rəvayətlərimizdə "Allah qarşısında məğrurluq" ifadəsi var. Səhifeyi-Səccadiyyənin cümə günləri oxunan 46-cı duasında çox təsirli sözlər mövcuddur. Deyir: "Bədbəxtlərin ən böyüyü Sənin qarşında məğrur olandır". Ən böyük bədbəxtlik Sənə məğrur olan şəxsə aiddir. Qürur belədir. Məğrur insan abadlıqdan çox uzaqdır, qurtuluş və salamatlıq sarıdan əli boşdur. Nə üçün? Çünki kiçik bir iş görən kimi, iki rəkət namaz qılan kimi, məsələn, xalqa bir xidmət göstərən kimi, hansısa qutuya pul salan kimi, yaxud Allah yolunda bir iş görən kimi tez məğrur olur ki, biz daha Allah-Taala yanında işimizi düzəltdik, hesabımızı qurduq və bir şeyə ehtiyacımız yoxdur. Bunu dillə söyləmir, lakin qəlbində belə düşünür.

Buna görə, yaxşı işlə məğrur olmaq - bunu da elə bilirik ki, yaxşı işdir, lakin o qədər də yaxşı olmaması, yaxud çox mühüm olmaması mümkündür - sizin əfv istəyinə sarı getməməyinizə bais olur.[2]

**Günahı kiçik saymaq olmaz!**

Ehtiyatlı olun! Allah-Taala tövbə qapısını açmış və buyurmuşdur ki, mən günahları bağışlayaram. Bunun mənası o deyil ki, günahlar kiçik və əhəmiyyətsiz şeylərdir. Xeyr, bəzən insanın bütün həqiqi vücudunu məhv edir, uca insani həyat dərəcəsində olan bir insanı çirkin və dəyərsiz bir yırtıcıya çevirir. Günah belədir. Onu kiçik sanmayın. Yalan danışmaq, qeybət etmək, insanların ləyaqətinə diqqətsizlik, bir sözlə olsa belə zülm etmək az və kiçik günahlar deyil.

---

[1] Yenə orada.

[2] Yenə orada.

İnsanın günahkarlıq hissi keçirməsi üçün mütləq uzun illər günaha qərq olması lazım deyil. Xeyr, bir günah da günahdır. Günahı kiçik saymaq olmaz. Rəvayətlərimizdə günahları kiçik saymaq bölməsi var, bunu məzəmmət etmişlər. Allah-Taalanın "bağışlayarıq" - deyə buyurmasının səbəbi budur ki, Allaha qayıdış çox mühümdür, nəinki günah az və kiçikdir. Günah çox təhlükəli bir şeydir, lakin Allaha qayıdış, diqqət və Allahın zikri o qədər əhəmiyyətlidir ki, insan bunu səmimi və düzgün şəkildə yerinə yetirsə, o zaman əlacı çətin olan xəstəlik sağalar.[1]

**Bağışlanmaq istəyi hamı üçündür!**

İmamların necə ürəkdən dua etdiklərini görürsünüz. Bəziləri elə bilirlər ki, İmam Səccad (ə) digərlərinə öyrətmək üçün belə yanğılı dua etmişdir. Bəli, işin həm formasında, həm də məzmununda digərlərinə öyrətmək var, lakin məsələnin məğzi bu deyil. Məsələnin məğzi bu saleh bəndənin, uca və böyük insanın özünün dua halıdır. Bu yanğı onun özünə aiddir. Allah qarşısında belə yalvarış onun özünə aiddir. Allah əzabından qorxu, Allaha yaxınlaşmağa və Allahın razılığına meyl onun özünə aiddir. Bu bağışlanmaq istəyi və Allahdan diləmək həqiqətən onun özünə aiddir.

O ucalıqda olan bir insanın nəzərində həyatın halal işlərinə, halal ləzzətlərə diqqətin də bir növ süqut və tənəzzül hesab olunması mümkündür. Ürəyi istəyirdi ki, maddi və fiziki zərurətlər çərçivəsində olmasın, həyatın halallarına və adi məsələlərinə bu yarımçıq nəzəri də salmasın, mərifət yolunda, ilahi razılığa və ilahi mərifətin cənnətinə sarı sonsuz vadidə daha çox inkişaf etsin. Belə bir iş olmadıqda isə, bağışlanmaq istəyir. Bu baxımdan, bağışlanmaq hamı üçündür.[2]

**Bağışlanmaq istəyi qəlbi işıqlandırır!**

Üç növ günahdan bağışlanmaq istəmək lazımdır. Bunlar bizə lazımdır. Mən və siz idarə işlərində də bunlara ehtiyaclıyıq. Bunları yaddan çıxarmaq bizə çox zərər yetirmişdir və yetirir. Üç cür günah vardır: Biri yalnız özünə zülm olan günahdır. Bu söz Quranda və hədisdə çox

---

[1] Yenə orada.

[2] Yenə orada.

işlənmişdir. Elə bir günahdır ki, insan edir, birbaşa təsiri də özünə qayıdır. Adi fərdi günahlar belədir.

Başqa növ budur ki, insan günah edir, lakin onun birbaşa təsiri xalqa və digərinə çatır. Bu günah daha ağırdır. Bu günah həm də özünə zülmdür. Lakin digərlərinə təcavüz olduğundan onun ağırlığı çox və əlacı daha çətindir. Məsələn, zülm, qəsb etmək, insanların hüququnu tapdamaq, insanların ümumi haqqına girmək. Bu günah daha çox hökumətlərə aid olur. Bu, müdirlərin, siyasətçilərin, beynəlxalq şəxsiyyətlərin günahıdır. Bu, bir kəlmə sözlə, bir imza ilə, birini işdən çıxarmaqla, birini işə təyin etməklə ailələrə və bəzən bir xalqa təsir göstərənlərin günahıdır.

...Biz bağışlanmaq istəməliyik. Mən də gedib özüm üçün bağışlanmaq istəməliyəm, siz də. Biz günahkar deyilik, əslində, günah içində batmışıq; bu qədər səhlənkarlıq, bu qədər qanunsuzluq və şəxsi işlərimizdə bu qədər təqsirkarlıq var. Odur ki, bağışlanmaq istəməliyik. Bağışlanmaq istəyi qəlbi nurani, zehni və ruhu şəffaf edir.

...İxtilaflardan tövbə etməli və bağışlanmaq istəməliyik. İxtilaf bizə zərbə vurur. İxtilaf bəzən milli, dini, yerli və siyasi hissləri təhrik etməklə olur, bəzən elmi fikir ayrılıqlarını qarşıdurmaya çəkməklə. Elmi fikir ayrılıqlarının olması mümkündür, eybi yoxdur, lakin qarşıdurma olmamalıdır.[1]

---

[1] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2005.